Nurəli Yusifbəyli

ENERJI: KEÇIMIŞ VƏ GƏLƏCƏK VEKTORLARIN KƏSIŞMƏSINDƏ



Bakı – 2020

Nurəli Yusifbəyli

ENERJI: KEÇIMIŞ VƏ GƏLƏCƏK VEKTORLARIN KƏSIŞMƏSINDƏ

ADNSU-nun 100 illiyinə həsr olunur

Bakı - 2020

UOT 620.9

Elmi redaktor: T.e.n. professor M. Ağamalıyev

Rəyçilər: T.e.n., dosent Z. Hasənov

T.e.n. dosent Ş. Nəsirov

Yusifbəyli Nurəli Adil oğlu,
Enerji: keçimiş və gələcək vektorların kəsişməsində
Elmi-kütləvi kitab, Bakı, ADNSU, 2020 – 239 s.

Kitapda enerjidən istifadənin inkişafı, onun istehsal texnologiyaları və gələcək inkişaf imperativləri ilə bağlı məlumatlar və eləcə də müəllifin mülahizələri təqdim olunmuşdir.

Kitab sahə üzrə mütəxəssislərlə yanaşı digər sahələrdə çalışan oxucü kütləsi üçün nəzərdə tutulmuşdur.

© ADNSU, 2020

MÜNDƏRİCAT

Müqqədimə.....7
Giriş.....11

HİSSƏ I

FƏSİL I
1.1. TƏBİƏT HADİSƏLƏRİNİN ENERJİ MAHİYYƏTİ TƏBİİ ENERJİ EHTİYATLARINDAN İSTİFADƏ TARİXİ.....15
1.2. GÜNƏŞ. YER VƏ ONUN TƏKAMÜLÜ. SU VƏ KÜLƏK.....25
1.2.1. Günəş bəşəriyyətin ibadət obyektidir.....25
1.2.2. Yerin təkamülü. Günəşin, suyun və küləyin Yer kürəsində həyatın inkişafında rolu.....29
1.2.2.1. Yer Planeti və Yer haqqında biliklərin inkişafı….....….....29
1.2.2.2. Yerin daxili quruluşu….....32
1.2.2.3. Yerin təkamül mərhələləri.....…33
1.2.2.4. Geoloji proseslər, Yerin geoloji tarixinin əsas xüsusiyyətləri…....38
1.2.2.5. Yer kürəsində həyatın inkişafında Günəş, su və küləyin rolu.....39
1.3. OD ENERJİ VƏ İBADƏT MƏNBƏYİ KİMİ..40

FƏSİL II
2.1. ELEKTRİK NƏDİR?.....50
2.2. ELEKTRİK DÜNYANIN ƏSAS QÜVVƏLƏRİNDƏN BİRİDİR 54
2.3. ELEKTRİK TƏBİƏTİN TƏMƏL QÜVVƏSİ KİMİ.....56
2.4. ELEKTRİKİN IKI NÖVÜ.....58
2.5. ATOMUN PLANETAR MODELİ.....62
2.6. ELEKTRİK İŞIQ MƏNBƏYİ KİMİ.....67
2.7. TƏHLÜKƏLİ VƏ TƏHLÜKƏSİZ ELEKTRİK.....70

FƏSİL III
3.1. ELEKTRONLARIN İŞİ VƏ KVANT MEXANİKASININ HƏQİQƏTLƏRİ.....72
3.2. ELEKTRON VƏ İONLARIN ƏSAS XÜSUSİYYƏTLƏRİ.....76
3.3. KEÇİRİCİLƏR, YARIMKEÇİRİCİLƏR VƏ DİELEKTRİKLƏR 78
3.4. ELEKTRİK DÖVRƏSİNİN ƏSAS ELEMENTLƏRİ.....80
3.5. ÖLÇÜ VAHİDLƏRİ SİSTEMİNİN BAZA PRİSİPLƏRİ 82
3.6. ELEKTRİK YÜKÜNÜN ÖLÇÜ VAHİDİ.....84
3.7. CƏRYAN ŞİDDƏTİ VƏ ONUN ÖLÇÜ VAHİDİ.....87
3.8. ELEKTRİK HƏRƏKƏT QÜVVƏSİ VƏ ÖLÇÜ AHİDİ.....89
3.9. ELEKTRİK GƏRGİNLİYİ VƏ ÖLÇÜ VAHİDİ.....93
3.10. İŞ VƏ ENERJİNİN ÖLÇÜ VAHİDİ.....94
3.11. GÜC VƏ ONUN ÖLÇÜ VAHİDİ.....95
3.12. ELEKTRİK MÜQVİMƏTİ VƏ ÖLÇÜ

VAHİDİ. OM QANUNU.....97
3.13. ELEKTRİK EVİMİZDƏ.....101

HİSSƏ II

ENERJİ ISTEHSAL TEXNOLOJİYALARI
GİRİŞ.....105

FƏSİL IV
ƏNƏNƏVİ (BƏRPA OLUNMAYAN) ENERJİ
İSTEHSALI TEXNOLOJİYALARI.....109
4.1. ƏNƏNƏVİ (BƏRPAOLUNMAYAN) ENERJİ
MƏNBƏLƏRİ TARİXİNƏ QISA
SƏYAHƏT.....109
4.2. İSTİLİK ELEKTRİK STANSİYALARI.....112
4.2.1. Buxar-turbin İstilik Elektrik
Stansiyaları.....117
4.2.2. Qaz və buxar-qaz turbinli İES.....119
4.2.3. Dizel elektrik stansiyaları.....126
4.2.4. Qaz-porşen elektrik stansiyaları.....129

FƏSİL V
QEYRİ - ƏNƏNƏVİ (BƏRPAOLUNAN) ENERJİ
MƏNBƏLƏRİ.....136
GİRİŞ.....136
5.1. HİDROELEKTRİK STANSİYALARI.....137
5.1.1. Sudan istifadənin tarixi.....137
5.1.2. Su çarxı və onun təkamülü.....141
5.1.3. Hidroturbinlərin inkişaf mərhələsi.....146
5.2. GÜNƏŞ ELEKTRİK STANSİYALARI.....153

5.2.1. Günəş enerjisindən istifadənin təkamülü.....153
5.2.2. Günəş enerjisinin potensialından səmərəli istifadə 163
5.3. KÜLƏK ELEKTRİK STANSİYALARI.....167
5.3.1. Külək enerjisindən istifadənin təkamülü.....170
5.3.2. İlk küləkqurğuları.....175
5.3.3. Müasir külək qurğularının növləri.....183
5.3.4. Problemin həllində elmin töhfəsi.....193
5.4. ƏTRAF MÜHÜT VƏ KÜLƏK ENERGETİKASININ PERESPEKTİVLƏRİ.....198
5.5. GEOTERMAL ELEKTRİK STANSİYALARI.....201

FƏSİL VI
SABAHIN İMPERATİVLƏRİ.....206
GİRİŞ.....207
6.1. GÜNƏŞ ENERJİSİNDƏN ƏNƏNƏVİ ŞƏKİLDƏ İSTİFADƏSİ.....209
6.2. NÜVƏ ENERJİSİ.....210
6.3. TERMONÜVƏ SİNTEZ.....212
6.4. HİDROGEN ENERGETİKASI.....214
6.5. İSTİLİK ELEMENTLƏRİ.....218
6.6. ENERJİNİN AKUMLYASİYA SİSTEMLƏRİ.....224

İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT SİYAHISI....229

Hesab edirəm ki, bizim iqtisadi kompleksimizdə elektrik enerji kompleksi əsas yer tutur.

Heydər Əliyev

MÜQƏDDIMƏ VƏ MİNNƏTDARLIQ

Məlumdur ki, enerji, o cümlədən elektrik enerjisi son yüz ildən artıq bir dövrdə sivilizasiyanın inkişafındakı sıçrayışı, dünyanın yenidən qurulması və insanların sosial müdafiəsində öz rolunu oynamış və məhz bəşəriyyətin sonrakı inkişafı üçün başlanğıc nöqtə onun əsasında hazırlanmışdır.

Enerjinin vacib növündən biri hesab olunan elektrik enerjisinin enerji təminatında xüsusi yeri, onun uzaq məsafələrə verilməsinin mümkünlüyü, digər növ enerjiyə asanlıqla çevrilmə imkanlarının olması ilə əlaqədardır. Eyni zamanda, qeyd edək ki, elektrik enerjisinin böyük həcmlərdə akumlyasiya etmək imkanlarının olmaması, onun böyük surətlə axması, texnoloji cəhətdən yüksək idarəetmə sistemlərinin vacibliyini şətrləndirir. Elektrik enerjisi bəşəriyyətin elmi-texniki inkişafının əsas faktoru kimi, yüksək texnologiyaların bazisini formalaşdırmaqla yanaşı, əmək məhsuladarlığını yüksəltmiş, əməyin fiziki strukturunu dəyişərək insanların həm məişətdə, həm də istehsalatda həyat şəraitini və keyfiyyətini dəyişmişdir.

Müasir dövrdə elektriklə (elektrik enerjisi ilə) əlaqəsi olmayan insanların çətin ki, tapılması mümkün olsun. Hara baxsaq, o bizə xidmət edir. Elektrik, evlərdə parlaq işıqlar, zavod və fabriklərdə müxtəlif avadanlıqlardır, televizor və telefonlar, kompyütürlər, elektrik qatarları və s-dir. Əgər

kosmosdan müşahidə etsək, görərik ki, Yerin qaranlıq hissəsində işıq ləkələri yaranır və günəş şüaları parlamağa başladıqdan sonra sönürlər. Bu, bizim miliyonlıarla qoşulu elektrik işıqlanma lampaları gecəni qarşılayır və tədricən günəş parlamğa başladıqda sönürlər.

Tam mümkündür ki, elektriklə o insanlar da bilik əldə etmək istəyərlər ki, onlar üçün bu lazım deyil. Psixoloqlar təcürbə yolu ilə müəyyən ediblər ki, həyat dəyərləri şkalasında bilik çox yüksək səviyyədə dayanır. İsbat olunub ki, biliyə ehtiyac qədim dövrlərdən irsən ötürülən qeyri – şərtsiz reflekslə əlaqədardır.

Məhz bu səbədən, elm və texnolojiyanın əsasları, bizi əhatə edən ətraf mühüt, cəmiyyətin həyatının əsasları haqqında ümümi təsəvürrlərimiz olmayanda özümüzü narahat hiss edirik. Təsadüfi deyil ki, qabaqcıl ölkələrin elm və təhsil müəssilərində, həttda humanitar ixtisalar ürə təhsilalanlara dəqiq elmlər haqqında az da olsa biliklər verirlər. Hətta xüsusi dərsliklər mövcuddur, məsələn, "Şairlər üçün fizika".

Qeyd edək ki, elektrik sahəsi insanlar üçün adət etdiklər sahə hesab olunmur. Mexaniki və istilik hadisələri ilə bəşəriyyət min illərlə tanışdırlarsa, elektiklə yalnız son üç yüz ildə məşğul olmağa başlamışlar. Bundan əlavə, elektrik prosesləri bizdən gizlədilib, onların qavranması üçün, görünməyən elektrik dünyasına səyahət etmək lazımdır. Maşın və mexanizmlərin nəzəriyyəsini bilmədən velisoped yığmaq olar, lakin, elektrik sahəsinin nəzəri əsaslarını bilmədən çətin ki, hər hansı elektrik maşınının işləmə pinsiplini başa düşmək mümkündür.

Bu baxımdan, elektroenergetika sektorunun generasiya mənbələrini, elektrik enerjisinin istehsal və ötürülməsi sistemlərini, enerji resurslardan istifadəni, istehsalat qurğularını, istilik enerjisinin ötürülməsini, elm və texnikanı, iqtisadiyyatın əsaslarındakı göstəriciləri, texniki inkişaf proseslərini, əhalinin həyat tərzini və nəhayət istehsalat mədəniyyətini və məişətini özündə birləşdirən dinamik inkişafda olan yanacaq-enerji

kompleksinin ən vacib sahələrindən biri kimi, bu sahə üzrə yüksək ixtisaslı mütəxəssislərin hazırlanması prioritet hesab olunur.

Yuxarıda qeyd olunanaları nəzərə alaraq, kitabın hazırlanmasında əsas məqsəd kimi, sahənin gənclər arasında cəlbediciliyini yüksəldilməsi, yəni sözügedən sahə üzrə kadr hazırlığını stimillaşdırması qəbul olunmuşdur.

Böyük oxucu kütləsi üçün nəzərdə tutulan **"Enerji: Keçmiş və Gələcək vektorların kəsişməsində"** adlı bu kitab girişdən və altı fəsili özündə birləşdirən iki hissədəm ibarətdir. Kitabda enerjinin təkamülü onun növləri, keçmişi və gələcəyi haqqında yığcam məlumat verilir. Müəllif bəzi sadə elektrik cihazlarının işi haqqında, elektrik enerjisinin alınma üsulları, elektrik kəmiyyətlərinin ölçü vahidlərinin baza prinsipləri və ölçü vahidləri, elektrik sahəsinin inkişafında əsaslı rol oynamış qanunlar, energetikanın gələcək imperativləri və s. haqqında qeyri – mütəxəssislər də daxil olmaqla bütün oxucuların, eləcə orta məktəb şagirdlərinin tələblərinə cavab verən səviyyədə məlumatların təqdim olunmasına cəhd etmişdir. Bu məqsədlə, kitabda elektrik enerjisnin fiziki mahiyyəti və onun "yaxın qohumu" olan maqnetizm haqqında da məlumatlara yer verilir.

Həmçinin, kitabda enerji mühəndisləri və əlaqəli sahələrdəki mütəxəssislər, xüsusilə digər sahələrdə çalışan qeyri – mütəxəssilər üçün vacib olan geniş və faktiki material verilir.

Təqdim olunan kitab oxucu üçün enerji sənayesinin bütün sahələri üzrə inkişafına, mövcud vəziyyətinə və perspektivlərinə həsr olunmuş digər materialların qavranılmasında bazis ola bilər. Kitab "sıfır nöqtəsindən " başlayır, yəni, hesab olunur ki, oxucular sahə üzrə hər hansı bilikılərə malik deyil. Bu baxımdan kitabın strukturunda sadə terminlərədən istifadəyə geniş yer verilımişdir.

Energetika sahəsini özləri üçün profesianal fəaliyyət istiqaməti kimi, qəbul edən oxucular, şübhəsiz, bu məqsədlə ölkəmizdə sahə üzrə aparıcı eim – tədris mərkəzi kimi qəbul

olunan Azərbaycan Dövlət Neft və Sənaye Unversitetində və ya digər sahə üzrə ixtisaslaşmış elm müəsisələrində təhsil almalı və ciddi dərsliklərdən istifadə etməklə sahənin bütün incəliklərini mənimsəməlidir.

Kitabın hazırlanmasında koronovirus pandemiya şəraitində hövsələ nümayiş etdirdikilərinə görə ilk növbədə ailə üzvlərimə dərin minnətdarlığımı bildirirəm. Həmçinin, kitabın daha da zənginləşməsində verdikləri faydalı tövsiyələrinə görə elmi redaktora və rəyçilərə, korrektor və kompüter tərtibatçısına təşəkkürümü bildirirəm. Eyni zamanda cari ilin əvvəllərində kitabın hazırlanmasında ilk təşəbbüslə çıxış etdiyinə və nəşr olunmasında əvəzsiz xidmətlərinə görə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru t.e.d., professor Mustafa Babanlıya öz ehtiramımı və təşəkkürümü bildirirəm.

Kitabda qüsurlara da rast gəlinə bilər. Müəllif əvvəlcədən minnnətdarlıqlarını bildirməklə kitab haqqında qeydlərin növbəti ünvana göndərilməsini xahiş edir:

Bakı ş, Azadlıq prospekti 16/21, ADNSU, “Enerji İstehsalı Texnolojiyaları” kafedrası.

N. Yusifbəyli

GİRİŞ

Enerji Kainatda və Yer kürəsində həyatın əsasını təşkil edir. O, bütün hərəkət formalarının və materiyanın tarnformasiyasının mənbəyidir. Enerji faktoru sivilizasiyanın inkişafını, həyat səviyyəsini və ölkə iqtisadiyyatını müəyyən edən fundamental əsaslardan biridir.

Hesab olunur ki, son 400 ildə yaşadığımız Yer planetində, hazırki dünya sivilizasiyasına verdiyi töhfələrlə görə ən əhəmiyyətli və orijinal kəşflərdən biri elektrik enerjisinin kəşfi olmuşdur. Eyni zamanda, praktik istifadə üçün "elektrik" ([2] -ə görə, bu anlayış "elektrik yüklərinin mövcudluğu, qarşılıqlı əlaqəsi və hərəkəti nəticəsində yaranan hadisələrin məcmusu" kimi başa düşülür) yalnız XIX əsrin ortalarından başlayaraq insanların ixtiyarına verilmişdi.

Enerji, yeganə unversal valyutadır ki, onun hər hansı formada transformasiyası olmadan yaratmaq mümkünsüzdür. Bu tarnsformasiyalar qalaktikanın fırlanmasından ulduzların təkində baş verən termonüvə reaksiyasına qədər dəyişir. Yer üzərindəki həyat günəş enerjisinin fitokütləyə fotosintez keçidi olmadan mümkün deyil. İnsanların həyatının davam etdirməsi bu və digər enerji axınlarının tarnsformasiyası olmadan təsəvvür oluna bilməz.

Hans Xristian Ersted (1777 - 1851

Bununla bağlı ingilis yazıçısı Richard Adams (1920-2016) demişdi: “Ən ağılsız ideyaları ortaya çıxara bilərik, lakin bu ideyaları həyata keçirmək imkanımız yoxdursa bunlar ideya

olaraq qalacaqlar. Tarix gözlənilməz bir şəkildə hərəkət edir. Lakin, buna baxmayaraq, tarixin hadisələri onların enerji komponentləri ilə harmoniyada olan ahəngdar bir quruluşa və ya təşkilata güvənir".

Qeyd etmək yerinə düşər ki, Hans Xristian Ersted, elektrik cərəyanının maqnit əqrəbinə təsirinin tədqiq etmək arzusunda olduğunu elan etdikdən 13 il sonra, 1820-ci ildə o, elektrik cərəyanının maqnit xassələrini ixtira etdi. Bu hadisədən 11 il sonra Maykl Faradey ilk dəfə elektromaqnit induksiya hadisəsini ixtira etdi. Bu ixtira bütün generatorların əsasını təşkil etdi və nəticədə M. Faradey tərəfindən ilk elektrik generatoru yaradıldı. Faradeyin elektromaqnit sahə nəzəriyyəsinin yeni ifadələrini Gorg Maksvell yalnız 1873-cü ildə təqdim etdi.

Maykl Faradey (rəssam T. Fillips (1791 - 1867

Beləliklə, XVIII əsrin əvvəllərindən elektriklə bağlı bəşəriyyətə təqdim olunan ixtiralar əsasında 200 ildən artıq bir müddətdə Yer kürəsi müxtəlif növ, o cümlədən, mədən yanacaqları ilə ilə işləyən istilik və nüvə enerjisi əsaında atom elektrik stansiyaları ilə əhatə olundu, energetiklər su, külək, günəş, okean axınları, yeraltı isti sulardan enerji məqsədləri üçün istifadə olunması istiqamətində naliyyətlər əldə etdilər.

Orta hesabla 150 il əvvəl elektrik lampaları mürəkkəb fiziki cihaz, elm və texnikanın tapıntısı hesab olunsa da, bir neçə tədqiqatçı və mühəndislər nəsli elektrik sahəsini öyrəndiklərinə görə, bu gün elə səviyyəyə çatdırıblar ki, elektrik cihazlarından istifadə sadə və rahat olmuşdur, onlardan istifadə üçün hər hansı xüsusi biliklər tələb olunmur. Sadəcə düyməyə toxunmaqla,

otaq işqlanır və ya televizor qoşulur. Bununla yanaşı, həyatımızın mühüm ayrılmaz hissəsi olan elektrik cərəyanı necə hasil olunur və hansı metodlarla tələbatçılara çatdırılır və ya elektrik cihazlarında necə faliyyət göstərir bu haqda düşünmürük. Bizim işimiz sadəcə hansı düyməyə toxunmaqdan ibarətdir.

Həqiqətən, əldə olunması mümükün olmayanları əldə etməyə çalışmağa ehtiyac yoxdur. Bizim istifadəmizdə çoxsaylı elektrik cihazları mövcuddur və onaların hər birinin işləmə prisipini və quruluşunu bilmək vacib deyil. Bu məqəsdlə, xüsusi təhsil almış mütəxəssislər mövcuddur. Təyarəyə daxil olarkən kəməri bağla və uşuşdan həzz al, bələdçidən reaktiv mühhərikin dizel qurğularından fərqini soruşma. Digər cihazlarda olduğu kimi, kompyüterin klaviaturasına toxunarkən onun hansı mürəkkəb çevirmələr nəticəsində funksiyasını bilmədən kompyüterdə rahat işləmək olar.

Elektrik enerjinin ən çevik formasıdır və bununla əlaqəli ümidlər bir çox ixtiraçı (Edison, Westinghouse, Steinmets, Ford) və siyasətçilərə ilham vermişdi. Vətəndaş müharibəsi dövründə, Vladimir İliç Lenin (1920) belə qənaətə gəlmişdi ki, “iqtisadi uğur, həqiqətən, Rusiya proletar dövləti müasir texnologiyanın təməlləri üzərində qurulmuş, elektrikləşdirmə mənasını verən böyük bir sənaye maşınının bütün iplərini cəmləşdirəcəyi halda mümkündür”.

1954-cü ildə ABŞ-ın Atom Enerjisi Komissiyasının (1953 ilə 1958 arasında keçirilmiş) sədri Lyuis Strauss (1896-1974) Nyu Yorkdakı Elmi Yazıçılar Birliyinə demişdi: “Uşaqlarımız evlərində o qədər ucuz elektrik enerjisindən istifadə edəcəklər ki, onun hesabını aparmayacaqlar. Övladlarımızın zaman-zaman fərqli bölgələrdə baş verən böyük aclıq barədə biləcəyi yalnız bir tarixi problem olaraq görünəcəkdir. Onlar dənizlərin üstündən və altından və havadan minimum təhlükə və yüksək sürətlə səyahət edə biləcək və bizdən daha uzun ömür yaşayacaqlar...”.

1971-ci ildə Straussun əvvəlcədən proqnozlaşdırdığı kimi, eyni kresloya sahib olan Glen Siborg, “2000-ci ilə qədər ABŞ-da elektrik enerjisi mənbələrinin yarısı ekoloji cəhətdən təmiz və təhlükəsiz nüvə reaktorları təşkil edəcək və nüvə ilə işləyən kosmik gəmi insanları Marsa aparacaq” (Seaborg 1972) fikirini söyləmişdi.

Əslində, 1980-ci illərdə Qərbdə yeni atom elektrik stansiyalarının tikintisi demək olar ki, tamamilə dayandırıldı və 1986-cı ildə “Çernobıl”dakı fəlakətdən və 2011-ci ildə “Fukusima”da baş verən partlayışlardan sonra bu sənayenin perspektivləri daha da pisləşdi. Əvəzində bütün ümidlər külək turbinlərinə və günəş panellərinə istiqamətləndi.

Elm və texnologiyanın dünya tarixinə ekskursiyası göstərir ki, elektrik enerjisinin sənaye və məişət istifadəsi üçün əvvəlcə elektrik enerjisi istehlakçılarına yerüstü (kabel) elektrik xətləri ilə ötürülən dəyişən gərginlik və sonra dəyişən elektrik cərəyanı yaradan güclü elektrik generatorları yaradılmışdır.

Ötən əsrlər boyu sivilizasiyamızın inkişaf tarixi onu göstərir ki, elektrik enerjisinin kəşf edildiyi ilk günlərdən bəşəriyyət bu böyük elmi və texniki ixtiradan çox asılı vəziyyətə düşmüşdür. Sonradan, bəşəriyyət tarixində demək olar ki, heç bir böyük texnoloji nailiyyət elektriksiz və onun elementar daşıyıcıları – sərbəst elektron olmadan əldə edilməmişdir [3,4].

Məlumdur ki, elektroenergetika potensialı, elektrik enerjisinin istehlak strukturu və miqyası, ondan istifadənin effektivlik səviyyəsi istənilən dövlətin iqtisadi potensialının vacib xarakteristikası olmaqla yanaşı, eyni zamanda cəmiyyətdə aparılan iqtisadi islahatların dinamikliyinin və həyat səviyyəsinin göstəricisidir. Bu baxımdan elektroenergetika sektorunun inkişafı ötən dövrlərdə olduğu kimi, gələcəkdə də dövlətlərin iqtisadi siyasətinin mühüm tərkib hissəsi olaraq qalacaqdır.

HİSSƏ I

FƏSİL I

1.1. TƏBİƏT HADİSƏLƏRİNİN ENERJİ MAHİYYƏTİ. TƏBİİ ENERJİ EHTİYATLARINDAN İSTİFADƏ TARİXİ

Enerji tarixi, onun müasir və gələcək dövrlərə qədər inkişaf yolu, sivilizasiyanın inkişafındakı əhəmiyyətini başa düşmək üçün son dərəcə maraqlı və vacibdir.

Fransız filosofu Oqyust Kont (1798 – 1857) yazırdı ki, "inkişaf tarixini bilmədən heç bir elmi intizamı həqiqətən mənimsəyə bilmərzsiniz."

Qədim dövrlərdən bəri enerji insan həyatını və sivilizasiyanın inkişafını təyin edən ən vacib amil olmuşdur. İnsanın od əldə etməsindən başlayaraq əsrlərdən bəri davam edən enerji tarixi, çayların, küləyin enerjisi və bu günə qədər davam edən axtarış, böyük kəşflər, biliklərin toplanaraq nəsildən-nəslə ötürülməsi, təbiət qanunlarının öyrənilməsi sahəsində ən vacib nailiyyətləri əks etdirir.

Sivilizasiyanın bütün inkişafı, texniki nailiyyətləri, qədim metallurgiyadan tutmuş keramika istehsalına, buxar mühərriklərindən yüksək və ifratyüksək temperaturdan istifadə edərək elektrik, istilik və nüvə energetikasına qədər - odun kompleks istifadəsi ilə əlaqədardır.

Tarixən istilik mənbəyi kimi, oddan istifadə insanın ətraf mühitdən asılılığını azltdı, onu daha güclü etdi, gücünü artırmağa və fikrini inkişaf etdirməyə imkan yaratmışdı.

Qədim Yunan filosofu Herakli (e.ə. VI əsrin əvvəlləri - V əsrlər) dünyanın əsasını od təşkil etdiyini deyir və cəsarətlə bəyan edirdi ki, “bu kosmosdur, mövcud olan hər şey üçün

eynidir, onu heç bir tanrı və heç bir insan yaratmamışdır, lakin həmişə canlı bir od var və bundan sonra da olacaq, o alovlanan və ya sönən olacaqdır".

İnsan geniş bir enerji okeanına daim yiyələnmişdir. Lakin, enerjinin əldə olunması, sivilizasiyanın inkişafı ilə yanaşı, tədricən və böyük çətinliklə davam etmişdi. İnsan mövcud olduğu müddətdə enerji uğrunda mübarizəsi davam edir və bundan sonra da davam edəcəkdir.

Günəş insanın istifadə etdiyi enerji növlərinin böyük əksəriyyətinin mənbəyidir: su (hidro) və külək enerjisi, təbii ehtiyatlarda yığılan enerji, ağac, biokütlə və s. Günəş insan tərəfindən qədim zamanlardan bəri hər şeyə həyat və güc verən bir tanrı kimi qəbul edilmişdir.

XX əsrin elmi nailiyyətləri Yerin quruluşu və onun təkində və kosmosda baş verən qlobal proseslər haqqında müəyyən fikirlərin formalaşmasına imkan vermişdi.

Yüz milyonlarla ildir ki, Yer kürəsində enerji mübadiləsi, müxtəlif enerji formalarının çevrilməsi və formalaşması prosesi baş verir. Məlumdur ki, mədən enerji ehtiyatları kömür, torf, neft, təbii qaz və s. orqanizmlərin həyat fəaliyyətinin nəticəsidir. Bütün biosfera və həyat yer səthində baş verən biokimyəvi proseslərdə çox vacib olan günəş enerjisi sayəsində mövcud olmuşdur.

Günəş, külək və su enerjisi sayəsində Yer üzünü dəyişdirən, insan tərəfindən qədim zamanlardan bəri istifadə edilən bərpaolunan enerji mənbələridir (BEM) və hazırda, şübhəsiz ki, yaxın gələcəkdə (növbəti on illiklərdə) daha çox tətbiq ediləcəkdir.

Odu mənimsəyərək ətrafındakı yeni enerji mənbələrini axtarmağa davam edən insan, axan su və küləyin enerjisinə müraciət etmişdi.

Təbiətdəki günəş enerjisinin təsiri altında su dövranı fasiləsiz olaraq davam edir. Səthdən buxarlanaraq, su buxarı hava axınları ilə aparılır, sonra kondensasiya olunaraq yer

səthinə tökülərək çayları formalaşdırır. Yerin səthində atmosferin səth qatlarında qeyri-bərabər günəş radiasiyasının təsiri altında hava fərqinin - küləyin hərəkətinə səbəb olan temperatur fərqi və atmosfer təzyiqinin qradiyentləri yaranır.

Bütün dövrlərdə su insanların həyatını müəyyənləşdirən vacib amil olmuşdur. Misir, Mesopotamiya, Hindistan, Çin və digər ölkələrdə suvarma, su təchizatı üçün anbarlar eramızdan əvvəl 4000-3500-cü illərdə qurulmuşdur.

Suvarma kanallarına su vurmaq üçün suyun enerjisini mexaniki enerjiyə çevirən su çarxları (ilk sadə hidravlik mühərriklər) istifadə olunurdu. Artıq Qədim Yunanıstanda və Romada su çarxları su dəyirmanlarında, su təchizatı üçün və s. İstifadə olunurdu.

Avropada su dəyirmanları artıq III - IV əsrlərdə geniş yayılmışdır. Zaman keçdikcə su çarxları və ötürücü mexanizmlərin dizaynlarının təkmilləşdirilməsi, suyun enerjisindən müxtəlif işlərin icrası üçün istifadə etməyə imkan verdi: fırlanan maşınlar, filizlərin şaxtalardan çıxarılması, suyu hündür sahələrə vurulması və s.

Su çarxları kimi, külək enerjisindən istifadə edən külək çarxları b.e.ə. min illər əvvəl, məsələn Persiyada, Misirdə, Çində suyu yüksəkliyə qaldırmaq və taxıl biçmək üçün istifadə olunurdu.

XII əsrdə külək dəyirmanları Avropada yayılmağa başladı. Külək qurğuları su qurğularından daha sadə olsa da, onların əsas çatışmazlığı küləyin sürətindən asılı olaraq iş rejiminin dəyişməsi idi.

XIV əsrdə külək dəyirmanları Hollandiyada geniş yayılmağa başlamış, burada əsas enerji mənbəyinə çevrilmiş və dəniz səviyyəsindən aşağı ərazilərin qurudulmasında həlledici rol oynamışdı. Daha sonra onlar da müxtəlif mexanizmlərin intiqalı qismində istifadə edilmişdi. Bu, ölkə iqtisadiyyatının inkişafında mühüm amilə çevrilən külək enerjisinin inkişafıdır.

Orta əsrlərdə əsas enerji mənbəyi su enerjisi olmuşdur. XVII - XIX əsrlərdə əl sənətindən sənaye istehsalına keçid dövründə mexaniki enerjiyə sürətlə artan ehtiyaclar əsasən su çaxları ilə təmin edilirdi [5]. Qərbi Avropanın, Rusiyanın, ABŞ-ın sənaye bölgələrində çox sayda su anbarı tikilir, su çarxları daha güclü və qabaqcıl hala gəlir və fabrik və mədənlərdə müxtəlif növ istehsal sahələrində istifadə olunurdu.

XVIII-XIX əsrlərdə bir çox ölkələrdə, xüsusən də Avropa, Rusiya və ABŞ-da külək dəyirmanları da geniş yayılmışdır.

Buxar mühərrikinin XVIII əsrin sonunda ixtirası istehsalda su çarxlarından istifadənin azalmasını şərtləndirdi. Buxar mühərrikləri ilə təhciz olunan sənaye müəssisələrinin üstünlüyü ondan ibarət idi ki, onlar yalnız çayların yaxınlığında deyil, hər yerdə yerləşdirilmə imkanına malik idilər. Bununla insanlar ağacda, kömürdə, torfda saxlanan istiliyi mexaniki enerjiyə çevirərək sonsuz enerji mənbəyi əldə etdilər.

Sadə su çarxından, yığcam, sürət, yüksək məhsuldarlıq və yüksək güc də daxil olmaqla əhəmiyyətli üstünlüklərə malik hidravlik turbinə qədər olan yol uzun və çətin bir yol oldu.

Hidravlika və bir çox insanların hidravlik mühərrikləri nəzəriyyəsi sahəsində elmi tədqiqat işləri, su mühərriklərinin təkmilləşdirilməsində və hidravlik turbinlərin yaradılmasında mühüm rol oynadı. Bunlardan qədim yunan mütəfəkkiri Aristotel (e.ə. 384-322), İntibah dövrünün ən görkəmli nümayəndələrindən biri Leonardo da Vinci (1452–4) 1519), İsveçrə alimləri Sankt-Peterburq Elmlər Akademiyasının üzvləri D. Bernoulli (1700-1822) və L. Euler (1707–1783) və başqalarını göstərmək olar.

Macar alimi J. Segner tərəfindən 1750-ci ildə inşa edilmiş ilk hidravlik turbindən başlayaraq, müxtəlif növ turbinlər yaradılır və tətbiq olunurdu: 1827-ci ildə fransız mühəndisi B. Furneron – reaktiv radial mərkəzdənqaçma, 1837–1841-ci illərdə fransız mühəndis Zhonval və Alman mühəndisi Hentel -

reaktiv aksial, 1849-cu ildə amerika mühəndisi J. Francis – Francis tipli reaktiv radial-aksial (2 – 300 metr su basqısı üçün – *şəkil 1.1*), 1880-ci ildə A. Pelton – Pelton aktiv (impulsiv) (100 – 1000 metr su basqısı – *şəkil 1.2*), 1912-ci ildə V. Kaplan - fırlanan reaktiv tipli turbinləri (2 – 30 metr su basqısı üçün – *şəkil 1.3*) yaratdılar [6].



Şək 1.1. Françis turbini

Külək enerjisi problemlərinin həllində və külək turbinlərinin təkmilləşdirilməsində M.V. Lomonosov (1711-1765), N.E. Jukovski (1847–1921), S.A. Çapliqin (1869–1942), L. Prandl (1875-1953), Teodor fon Karman (1881-1963), Yu.V. Kondratyuk (1897-1942) və bir çox digər alimlərin elmi tədqiqatlarının böyük rolu olmuşdur.

Nəticədə, XIX əsrin sonuna elektrik enerjisi sənayesinin inkişafı üçün lazımi şərait təmin edildi: səmərəli buxar və hidravlik turbinlər yaradıldı; təkmil dəyişən cərəyanlı elektrik generatorları işlənildi; praktikada elektrik enerjisinin uzaq məsafəyə ötrülməsinə nail olundu.



Şək 1.2. Pelton turbini



Şək 1.3. Kaplan turbini

1891-ci ildə Almaniyada (Laufendə) rus mühəndisi M.O. Dolivo-Dobrovolskiy rəhbərliyi altında inşa edilən, gücü 220 kVt olan dünyanın ilk sənaye tipli su elektrik stansiyası, XX əsrdə suyun enerji ehtiyatlarından geniş istifadə üçün əsaslar yaratdı. Bunun nəticəsində, XXI əsrin əvvəllərində dünya üzrə bütün su elektrik stansiyalarının ümumi gücü 670 milyon kVt-a

çatdırıldı. Külək enerjisindən istifadə XXI əsrin əvvəllərində tədricən artaraq Dünya üzrə külək elektrik stansiyalarının gücü 18 QVt-ı keçmişdir.

Qeyd etmək yerinə düşər ki, Azərbaycan ərazisində Simens qardaşları tərfindən 1880-ci illərin əvvəlində Gədəbəyin Qalakənd çayı üzərində mis istehsalını elektrik enerjisilə təmin etmək məqsədilə tikilən su elektrik stansiyası Dünyanın ilk sənaye tipli su elektrik stansiyalarından biri hesab olunur (stansiyanın gücü 77,28 kVt olmuşdur) [7]. Azərbaycanda su elektrik stansiyalarının (SES) növbəti inkişaf mərhələsi ötən əsrin 30-cu illərinə təsadüf edir.

1928-ci ildə gücü 2760 kVt olan Çiçəkli (Zurnabad) SES, 1936-cı ildə gücü 1660 kVt olan Şəki SES, həmin ildə gücü 1152 kVt olan Quba SES istismara verilmişdir.

Müharibədən sonrakı illərdə kənd təsərrüfatının elektrikləşdirilməsilə əlaqədar kiçik SES-lərin tikintisi daha böyük vüsət almışdır.

1951-ci ildə respublikada ümumilikdə 45 kənd su elektrik stansiyası, o cümlədən 50 kVt-a qədər 22 ədəd, 50 kVt-dan çox olan 23 ədəd stansiya fəaliyyət göstərirdi. Bundan əlavə 13 SES-in tikintisinə başlanmış, daha 3-nün tikilməsi nəzərdə tutulurdu.

Beləliklə, ölkəmizdə 1928-1973-cü illərdə tikilmiş və ümumi gücü 36,7 MVt olan kiçik SES-lərin istehsal etdiyi elektrik enerjisi təxminən 167 mln.kVt saat təşkil etmişdir.

Növbəti illərdə böyük SES-lərin və İES-lərin tikilib istismara verilməsi, mərkəzləşdirilmiş enerji təchizatına keçidlə əlaqədar olaraq, kiçik SES-lərin tikintisi iqtisadi cəhətdən səmərəli hesab olunmadığına görə dayandırılmışdır. Hidroenerji avadanlıqlarının köhnəlməsi və rentabelliyin aşağı düşməsilə əlaqədar olaraq 1950-1960-cı illərdə 22 kiçik SES, 1964-1973-cü illər ərzində isə 17 kiçik SES ləğv edilmişdir.

Beynəlxalq Energetika Agentliyinin (İEA) məlumatına əsəsən 2019-cu də enerji istehlakında elektrik enerjisi

istehsalında təbii qazın payı 37%, kömürün 24%, nüvə 19% və bərpaolunan enerjinin payı isə 19% təşkil etmişdir [8]. Yəni, enerjinin böyük hissəsi hələ də karbon dioksid əsaslı orqanik yanacaqdan istifadə etməklə istehsal olunur. Məlumdur ki, onların əsas çatışmazlığı, təbiətdə yenilənmə imkanının olmaması, istifadəsi zamanı ətraf mühiti çirkləndirməsi və biosferin formalaşan tarazlığına əhəmiyyətli dərəcədə mənfi təsir göstərməsindən ibarətdir.

Buna görə ən çox yayılmış mədən ehtiyatları olan kömür, neft, təbii qaz, neft şisti, torfun təbiətini, xassələrini, tərkibini, yaranma şərtlərini, istifadə imkanlarını, müəyyən edilmiş ehtiyatları və xərclərini bilmək son dərəcə vacibdir.

Kömür, neft və qaz insanlara qədim zamanlardan bəri məlumdur. Kömür sənaye inqilabı dövründə geniş tətbiq olunmağa başlamışdır. XX əsr və XXI əsrin əvvəllərinə onun istehlakı kəskin şəkildə artaraq təqribən 4,7 milyard tona çatmışdır. Dünyada kəşf edilmiş sənaye kömür ehtiyatları 2019-ci ilin əvvəlinə 749 milyard ton qiymətləndirilir (2018-ci ilin istehlak həcmi ilə təqribən 130 ilə kifayət edir) [9]. 2019-cu ilin əvvəlinə BP şirkətinin məlumatına əsasən dünyada kəşf edilmiş neft ehtiyatları 244,1 milyard ton (1,7297 trillion barrel) (2019-cu ilin istehlak səviyyəsi ilə orta hesabla 53 ilə kifayyət edir), təbii qaz 7,124 trilyon fit kubmetr (ft^3) ($1m^3$ = 35,315 ft^3) [8] səviyyəsində qiymətləndirilir - 2019-ci il səviyəsində istehlak səviyyəsinə davam edəcəyi təqdirdə 54 ilə kifayyət edir. Qeyd edək ki, Standford unversitetinin araşdırmalarına görə, yuxarıda qeyd olunan müddətlər daha pessimistdir [10]. Azərbaycan gəldikdə, ölkəmiz 2,1 trillyon təbi qaz ehtiyyatlarına (ABŞ-nin Mərkəzi Kəşviyyat İdarəsinin (MKİ) məlumatına əsasən 991 milyard kub metr) görə Dünya ölkələri arasında 16-ci (ABŞ-nin MKİ-nin məlumatına əsasən 26-cı yerdə), neft ehtiyyatlarına görə isə 954,8 miliyon (7 milyard barrel) ton təşkil etməklə 20-ci (ABŞ-nin MKİ-nin məlumatına əsasən 18-ci) sırada qərarlaşmışdır.

XX əsr yanacaq-enerji kompleksi və ümumiyyətlə əksər ölkələrin iqtisadiyyatında əhəmiyyətinə görə neft və təbii qaz əsri adlandırıla bilər və XXI əsrin birinci yarısında da qlobal iqtisadiyyatın inkişafında mühüm rol oynayacaqlar. Eyni zamanda, neft və təbii qazın enerji balansında payı bərpaolunan enerji mənbələrinin geniş tətbiqi hesabına azalsa da, onun enerji istehsalında istifadəsi öz üstünlüyünü davam etdirməkdədir.

Sivilizasiyamızın XX əsrdə sürətli, demək olar ki,sıçrayışlı texnoloji inkişafı enerji istehsalında kəskin artım və bərpa olunmayan mineral ehtiyatların istifadəsini tələb etmişdi. Təsadüfi deyilki, bu səbədən son yüz il ərzində yanacaq və enerji ehtiyatlarının istehlakı 30 dəfə artmışdır.

Yaşadığımız əsrin əvvəllərinə Dünyada 8 milyard NET (neft ekvivalenti tonu) olan ümumi enerji istehsalının 85 % -i mineral ehtiyatlara (kömür, neft, təbii qaz və s.) əsaslanır.

İqtisadiyyatın inkişafında və insanların həyat səviyyəsinin yaxşılaşdırılmasında əsas hərəkətverici amil olan elektrik enerjisi ən yüksək artım templəri ilə xarakterizə olunur və XX əsrdə enerjidən istifadə strukturunda elektrik enerjisinin payı daim artaraq inkişaf etmiş ölkələrdə 40% -ə çatmışdır.

Belə ki, 1900-ci ildən 2018-ci ilə qədər dünyada ilkin enerji istehlakı 13 dəfə artaraq, o cümlədən BEM-dən istifadə hesabına (2650 milyard kilovat-saat - ümumi elektrik istehsalında 19%) 12 triliyon kilovat-saatdan 157 triliyon kilovat-saata qədər yüksəlmişdir [11].

İnsan o qədər "güclü" olmuşdur ki, onun ətraf mühitə təsiri fəlakətlə nəticələnə bilər. İnsanın təbii mühit ilə əlaqəsi yarandığı gündən onun təbii mühitin özünə rahat göründüyü kimi dəyişdirmək hüququna sahib olmasından irəli gələn sivilizasiyanın belə bir inkişafı, mineral ehtiyatlarının israfçı istifadəsinə, ətraf mühitin çirklənməsinə və təhlükə yaradan tarazlığının pozulmasına və bəşəriyyətin özünün varlığına təhlükədir.

Minilliklər boyu insanlar təbiətlə harmoniyada yaşamağa cəhdlər etmişdir, məhz XX əsrdə təbiət üzərindəki antropogen yükün kəskin artması və ağır ekoloji fəsadlarla əlaqədar olaraq, ətraf mühitin qorunması, cəmiyyətin iqtisadi və sosial ehtiyacları ilə ətraf mühitin istifadəsi arasında tarazlığın tapılması ən aktual məsələ olaraq gündəmə gəlmişdir. İnsan həyatının şərtləri və ətraf mühitin vəziyyəti bir zəncirin bağlantısı olduğu şüurlara nüfuz etmişdir.

Milyardlarla il Yerin biosferasında formalaşmış incə və mürəkkəb bir tarazlıq bu gün biosferin bir hissəsi olan bəşəriyyət, onu enerji istehsalı ilə əlaqəli olan atmosferi, hidrosferi, torpağı çirkləndirərək məhv etməkdədir.

Məşhur alim-kimyaçı I.V. Petryanov Sokolov yazırdı: "Dünyamızın hər iki hissəsinin - əvvəllər mövcud olan biosferinin və insanın yaratdığı texnosferanın - bir-birini tamamlayaraq birləşməsini təmin etməyə çalışacağıq. Bunlar birləşdirilməlidir və birlikdə yaşamaq vacibdir, çünki bir fəlakət baş verərsə, hər iki tərəfin itkisi o qədər dəhşətli olacaqdır ki, hər hansı bir şeyin sağ qala biləcəyi məlum deyil". Etiraf etmək lazımdır ki, enerji - iqtisadiyyat - təbii mühit - insanlar bir-birinə bağlıdır və ayrılmazdır.

Bəşəriyyət üçün davranış strategiyasını dəyişdirmək, ağlabatan inkişaf idarəçiliyini, mövcud dəyərlər sistemini yenidən qiymətlndirmək üçün seçim etmək məqamı, "həqiqət anı" gəlmişdir.

XXI əsrdə enerji istehsalı texnologiyalarının təkmilləşdirilməsi ətraf mühit meyarlarına, bərpa olunan enerji mənbələrindən maksimum istifadəyə əsaslanmalıdır. Mineral yanacaqların yandırılması ilə əlaqəli olmayan yeni texnologiyaların yaranmasını və geniş yayılmasını təşviq etmək vacibdir. Dünya birliyinin enerji və ətraf mühitin qorunması sahəsində əlaqələndirilmiş siyasəti lazımdır.

Böhranı aradan qaldırmaq üçün Yer kürəsinin əhalisi üçün hər bir insanın cəmiyyət qarşısında məsuliyyətini dərk etməsi və yaxınlaşan təhlükəni başa düşməsi son dərəcə vacibdir.

1.2. GÜNƏŞ. YER VƏ ONUN TƏKAMÜLÜ. SU VƏ KÜLƏK

Müasir dünyanı əvvəllər necə olduğunu bilmədən başa düşmək çətindir.

Günəşi olduğu kimi, qəbul edirik. Bəs günəş nədir? Niyə qədim xalqlar üçün bir tanrı idi? Yer nə vaxt və necə yarandı? Təkamülünün ilk mərhələlərində necə inkişaf etdi? Su nə vaxt və necə meydana çıxdı?

Külək nədir və necə yaranır? Yerin tarixini hansı fiziki qüvvələr müəyyənləşdirdir?

Bu proseslərdə günəş, su və külək hansı rol oynayır? Günəş, su və külək enerjisindən bəşəriyyət nə fayda götürdü? "Ağıllı insan" təbii dünyaya necə sahib oldu və nə vaxt "güclü insan" oldu? "Canlı enerjidən" yeni enerji mənbələri - su və külək enerjisinə keçid nə vaxt baş verdi? İlk hidro və külək turbinləri nə vaxt və harada yaranıb? Dünyaya necə yayıldı və necə inkişaf etdilər?

Oxucular uzaq və yaxın keçmişə qısa bir ekskursiya etməklə bu və digər suallara cavab ala biləcəkdir.

1.2.1. Günəş bəşəriyyətin ibadət obyektidir

Günəşin ömrünü bəşəriyyətin yaşı ilə müqayisə etsək, günəşin yer üzünə həyat gücü verərək, əbədi yaşadığını güman edə bilərik.

Günəş - günəş sisteminin mərkəzi cismi - isti plazma topudur. Günəş Yerə ən yaxın ulduzdur. Ondan gələn işıq 8,314 dəq. ərzində bizə çatır (*şəkil 1.4*). Günəş sisteminin bütün cismlərinin meydana gəlməsinə Günəş həlledici təsir göstərmiş

və Yer kürəsində həyatın yaranmasına və inkişafına səbəb olan şərait yaratmışdır.

Şək. 1.4. Şüanın Günəşdən Yerə düşməsi. (mənbə: spacegid.com)

Günəş, ehtimal ki, təqribən 5 milyard il əvvəl qaz və toz dumanından günəş sisteminin digər cismləri ilə birlikdə yaranmışdı. Əvvəlcə onun maddəsi cazibə sıxma qüvvəsi səbəbindən həddən artıq qızmış, lakin qısa müddətdə onun təkində temperatur və təzyiq o qədər artmışdır ki, nüvə reaksiyaları öz-özünə baş verməyə başlamışdır. Belə şəraitdə Günəşin mərkəzindəki temperatur və təkində təzyiq o qədər artmışdı ki, o cazibə sıxma qüvvəsini tarazlaya və cazibə nəticəsində Günəşin sıxılmasını dayandıra bilmişdi. Beləliklə, təkində hidrogenin heliuma yavaş çevrilməsi ilə dəstəklənən Günəşin müasir quruluşu formlaşmışdı. Günəşin 5 milyard il ərzində mövcud olduğu mərkəzi oblastında hidrogenin yarısı

artıq heliuma çevrilmişdir. Bu proses nəticəsində Günəş radiasiyasının çox hissəsi atmosfer, xüsusən buludlar tərəfindən səpələnir və udulur və bunun yalnız üçdə biri yer səthinə çatır. Günəşin yaydığı bütün enerji Yerin qəbul etdiyi hissədən 5 milyard qat daha böyükdür. Hətta belə bir "kiçik" miqdar digər bütün mənbələrin verdiyi enerjidən 1600 qat daha çoxdur.

Günəşin diametri 1.392.000 km təşkil edir, bu da Yerin diametrindən 109 dəfə böyükdür. Yerdən Günəşə olan məsafə onun diametrindən 107 dəfə böyükdür.

Qədim xalqlar üçün Günəş bir tanrı idi. Mədəniyyəti eramızdan əvvəl dördüncü minilliyə aid olan Yuxarı Misirdə fironların ailəsinin Ra günəş tanrısından əmələ gəldiyinə inanılırdı. Piramidalardan birindəki "Yerə yaşıllıq gətirən Günəş kimi, çıxdıqda bizi öz nəvazişi ilə müalicə edir. Hər baxış onu üfüqdən yuxarı qalxan Ra obrazında görəndə qorxur" yazı, fironun yer üzündəki Günəşin təmsilçisi kimi təmsil edir

Həyat verən gücə sahib olan Günəş həmişə insanlar arasında ibadət və qorxu hisslərini oyadırdı. Təbiətlə yaxından əlaqəli xalqlar ondan mərhəmətli hədiyyələr - məhsul və bolluq, yaxşı hava və təzə yağış və ya cəza - isti hava, fırtına, dolu gözləyirdi.

Hər zaman bəşəriyyət üçün ibadət obyekti olan Günəş sonsuz sayda adət, mədəniyyət, fəlsəfi cərəyan və sənət əsərləri meydana gətirdi.

Planetimizdəki həyatın günəş şüalarından asılı olduğunu nəzərə alsaq, bəşər tarixi boyunca bir çox mədəniyyətin bu mənəvi həqiqəti yüksək qiymətləndirərək, onu müxtəlif mənəvi ibadət formaları ilə ifadə etmələri təəccüblü deyil.

Günəşə və günəş tanrılarına ibadət qədim zamanlardan bəri dünyanın hər yerində aşkar edilmişdir (*şəkil 1.5*).

Demək olar ki, bütün enerji mənbələri günəşə borcludur. Bunu insanlar da çoxdan anlamışlar və bu 1492-ci ildə Lübekdə nəşr olunmuş bir risalənin baş səhifəsindəki oyma ilə təsdiq edilmişdir.

Bir il ərzində Yer kürəsi Günəşdən $1330x10^{27}$ kkal istilik alır. Bu istiliyin çox hissəsi atmosferdə qaılır, bunun yalnız 2,5 % -i külək enerjisinə çevrilir.

Atmosferdən keçən günəş şüalarının 25,5% -i planetimizin su məkanına düşür, yalnız 0,0 4% -i hidroenerjiyə çevrilir.

Günəş şüalarının 14,5 % -i qitələrin və adaların sərt səthinə düşür, yalnız onun 0,1 2% -i kimyəvi enerjiyə çevrilir.

Bir il ərzində Yer kürəsi kosmosa Günəşdən aldığı enerji ilə eyni miqdarda enerji şüalandırır.



a *b*

Şek. 1.5. Günəşə (a) və günəş tanrısına (b) ibadət

1.2.2. Yerin təkamülü. günəşin, suyun və küləyin yer kürəsində həyatın inkişafında rolu

1.2.2.1. Yer Planeti və Yer haqqında biliklərin inkişafı

Müasir kosmogonik fərziyyələrə görə, Yer, Günəş sisteminin digər planetləri kimi, yaxın günəş məkanında səpələnmiş qaz-toz maddələrinin qravitasiya kondensasiyası nəticəsində əmələ gəlmişdir. Onun yaşı 4.5-4.6 milyard il olduğu təxmin edilir.

Yer, fokuslarından biri olan Günəş ətrafında elliptik orbitdə hərəkət edir. Günəşin cazibəsi Yer kürəsini öz orbitində saxlayır, bununla birlikdə Ay və Günəşin cazibəsi Yerin hidrosferində, atmosferində və bərk örtüyündə qabarma və çəkilmələrə səbəb olur. Günəşin, planetlərin və Ayın cazibə qüvvəsi, orbitin eksantrikliyində və Yer kürəsindəki iqlim dəyişikliyinin səbəblərindən biri olan Yer oxunun əyilməsində uzun müddətli dövri dəyişikliklərə səbəb olur.

Yerdəki proseslərə ən güclü təsir bu proseslərin əsas enerji mənbəyi olan Günəşin şüalanması ilə təmin edilir.

Günəşdən Yerə olan məsafə, təqribən 150 milyon km, Yerdə həyatın yaranması üçün optimal hesab olunur.

Yer çox mürəkkəb sferik formaya malikdir, qütblərdə bir qədər düzləşmiş və bir geoid adlandırılmışdır (*şəkil 1.6*). Yerin sferikliyi haqqında ilk dəfə qədim yunanlar Pifaqor, (e.ə. VI əsr). Aristotel (e.ə. 384-322) demişdir. Onlar Ay tutulmalarını müşahidə edərək, Yerin Ay üzərində yaratdığı kölgənin həmişə yuvarlaq bir formada olduğunu qeyd etmişdilər. Buna əsaslanaraq alimlər Yer kürəsinin sferik forması ilə bağlı nəticəyə gəlmişdilər.

Samosun qədim yunan astronomu Aristarx Samosskiy artıq e.ə. III əsrdə Yerin və planetlərin Günəş ətrafında fırlandığını, lakin sonradan e.ə. II əsrdə Ptolemey Klavdiy

dünyanın geosentrik sistemini inkişaf etdirmiş və bu yanaşma 1,5 min il davam etmişdir.

Elmin inkişafı, coğrafi kəşflər, Yer kürəsinin dünya məkanında mövqeyi, mənşəyi haqqında fikirlərdə ciddi irəliləyişə səbəb olmuşdu. Yerin quruluş və inkişafı ilə bağlı bir çox böyük təxminlər Leonardo da Vinci (1452-1519) tərəfindən ifadə edilmişdir.

Şek. 1.6. Yerin kosmosdan görüntüsü: (mənbə Google sites)

1543-cü ildə N. Kopernikin (1474–1543) "Səma sferalarının fırlanmasına dair" dünyanın elminin inkişaf etdirilmiş heliosentrik sistemini özündə cəmləşdirmiş kitabı nəşr olundu və Günəş sistemində Yerin həqiqi yeri müəyyən edildi.

Yerin, xüsusən də yer qabığının tərkibini, quruluşunu və tarixini araşdıran geologiya XVII - XVIII əsrlərdə meydana

gəlmiş, lakin onun kökləri insanlar yer kürəsindən minerallar çıxarmağa başladığı qədim dövrlərdə itirilmişdir.

M.V. Lomonosov (1711-1655) geologiyanın inkişafına böyük töhfə verərək və Yer kürəsinin inkişafı ilə bağlı bir sıra vacib qanunauyğuluqlar yaratmışdı. Sonralar XIX əsrdə geologiya, Yerin quruluşunu öyrənməkdə əhəmiyyətli bir uğur əldə etmişdi. XX əsrin elmi nailiyyətləri nəticəsində Yerin quruluşu və onun təkində və kosmosda baş verən qlobal proseslər haqqında fikir formalaşdırılmış və müəyyən edilmişdi ki, Yerin daxili nüvəsini və qabığını təşkil edən qatı, maye və qaz maddələrindən ibarətdir. Yerin kütləsinin əsas hissəsi (99 % -dən çox) bərk torpaq səthinin altında yerləşir, xaricində isə geosferlər - hidrosfer və atmosfer yerləşir.

Yer cazibə, maqnit, elektrik və geotermal sahələrə malikdir.

Dəniz və okean suları, quru suları, buzlaqlar da daxil olmaqla Yer kürəsinin su örtüyü hidrosfer adlanır.

Xarici qaz örtüyü - yer səthindən uzaqlaşdıqca sürətlə azalan sıxlığı və dəqiq müəyyən edilmiş yuxarı sərhədi olmayan atmosfer Yerin forma və ölçüsünü təyin edərkən nəzərə alınmır. Atmosfer kütləsinin 19 % -i 7-12 km qalınlığında olan troposferin alt qatında cəmləşmişdir.

Yerin əsas parametrləri: orta radius - 6371 km, ekvator radiusu - 6378 km, qütb radiusu - 6357 km; yerüstü sahəsi - 510 milyon km ^{2}, kütləsi - $5.976 \cdot 10^{24}$ kq təşkil edir.

Torpaq Yer səthinin 29,2 % -ni, qalan 70,8 % -i dəniz və okeanların su səthidir.

1.2.2.2. Yerin daxili quruluşu

Yerin daxili quruluşu fiziki xassələri, tərkibi və qruluşuna görə fərqləndirlir.

Yer planeti sərt örtük (qabıq), mantiya və nüvədən ibarətdir.

Yerin yuxarı hissəsi litosfer (yunan dilində “daşlaşmış şar”) adlandırılır. Bura Yer kürəsinin bərk ötrüyü və mantiyanın yuxarı hissəsi daxildir. Yer qabığı dəyişkən qalınlığa malikdir, kontinental oblastda orta hesabla 75 km və okean bölgəsində 15 km qədər təşkil edir [12,13].

Aralıq örtük – mantiya (“örtük”) – 33-dən 2900 km dərinlikdə yerləşir. Bu qatda temperatur 2000^0C-dən çox təşkil edir. Orta hesabla 50-dən 200 km dərinlikdə hərəkət edən, astensfera (“gücsüz kürə”) adlandırılan maqniya qatı təşkil edir (*şəkil 1.7*).



Şek. 1.7. Yerin quruluşu (mənbə: geography.com)

Nüvəsi - Yerin ən sıx mərkəzi hissəsi 2900 km-dən çox dərinlikdə yerləşir. Hesab olunur ki, nüvə bərk daxili (radiusu təqribən 1300 km) və maye xarici (təqribən 2200 km) nüvədən ibarətdir. Bu hissədə ehtimal olunan temperatur 6000^0 C, yəni Günəş səthində mövcud olan temperaturla eynilik təşkil edir.

Yerin daxili istiliyinin mənbələrinə radioaktiv parçalanma zamanı ayrılan istilik, kimyəvi reaksiyalar zamanı ayrılan istilik və s. daxildir. Lakin, bu mənbələrdən ən etibarlısı radioaktiv elementlərin parçalanma enerjisidir. Yerin təkindən ətrafa davamlı istilik enerjisi axını daxil olur ki, bu da Yer səthinin Günəşdən aldığı enerjidən bir neçə min dəfə azdır.

Yer planetinin quruluşu bəşəriyyət tərəfindən həll edilməyən bir çox sirlərdən biridir. Planet barədə bir sıra məlumatlar dolayı yollarla əldə olunmuş, hələ heç bir alim yerin nüvəsindən nümunələr əldə edə bilməmişdir [12]. Yerin quruluşunu və tərkibini öyrənmək istiqamətində səylər ötən dövrlədə olduğu kimi, hələ də həll olunmaz çətinliklərlə üzləşir, eyni zamanda, sahə üzrə tədqiqatçılar tərəfindən Yer planeti haqqında etibarlı məlumat əldə etməyin yeni yollarını axtarırlar.

1.2.2.3. Yerin təkamül mərhələləri

Kosmosun bir parçası olan bir səma cismi kimi, Yer bütün tarixi boyu bir çox dəyişikliklərə məruz qalmışdır.

Təqribən 4 milyard il əvvəl ağır bombardumandan sonra Yer qabığının dağıdılması və formlaşması prosesində kosmik faktor öz aparıcı rolunu yekunlaşdırdı. Geolojo proseseslər özünü tənzimləmə mexanizmləri ilə planetin təkini təşkil etməyə və planet tədricən soyumağa başladı. Yer planetinin 3 milyard il əvvəl qarşılaşdığı prosesləri daha "gənc" Vnera planetinin nümunəsində izləmək olar [13,14,15].

Yer kürəsinin tarixinin eralara və dövrlərə bölünməsinin əsas iki amili dağların yaranma prosesləri, daha doğrusu terroformalaşma və bunun üzərindəki həyatın inkişaf proseslərdir. Yerin bütün tarixi planetdəki ümumi geoloji və bioloji şərtlərlə xarakterizə olunan eralara bölünmüşdür. Hər era daha kiçik zamana - dövrlərə bölünür, proseslər arasındakı fərq onsuz da azdır. Yəni, həyatın olmaması, həyatın görünüşü, həyatın mürəkkəbliyi, yosunların, balıqların, heyvanların,

insanların yaranması - bunların hamısı bioloji inkişaf mərhələləridir. Planetin fiziki görünüşünün dəyişməsi, atmosferin yaranması, buz dövrü, qitələrin parçalanması və birləşməsi, vulkanik aktivlik, okeanların yaranması planetin geoloji inkişafının təzahürləridir. Bu mərhələlərin birləşməsi Yerin tarixini bir neçə əsas dövr və altdövrlərə bölməyə imkan verir.

Yüz milyonlarla ildir ki, Yer kürəsində enerji mübadiləsi, müxtəlif enerji formalarının çevrilməsi və yığılması prosesləri baş verir. Bütün ötrükləri olan Yer ayrı-ayrı hissələr arasında, o cümlədən canlı və cansız maddə arasında müəyyən bir dinamik tarazlığın qorunduğu vahid bir orqanizmdir.

Şəkil 1.8-da eyni zaman şkalsında Yerin təkamülünün əsas hadisələrini sxematik olaraq təqdim edilir. Mövcud fikirlərə görə, alimlər ibtidai Yerin struktur dəyişikliklərinin üç əsas mərhələsini nəzərdən keçirirlər. Birinci, Yerin nüvəsinin yaranmasından əvvəl, ilkin isti vulkanlar, ikinci - hava tipli vulkanların post-nüvə mərhələsi, üçüncüsü - sonuncusu bioloji adlanır [16,17].

Birinci mərhələdə planetin daxili hissəsi sürətli və əhəmiyyətli struktur dəyişikliklərinə məruz qalmışdı. Vulkanik aktivlik, tufan, meteorit düşməsi, Günəşdən yüksək enerjili ultrabənövşəyi radiasiya çox intensiv olmuşdu. Bu radiasiya ilk 2,5 milyard il ərzində həyatın yaranması və təkamülü üçün son dərəcə mühüm rol oynamışdı. Digər enerji mənbələri elektrik boşalamları, istilik və radioaktivlik olmuşdur.

Atmosferdə əsasən azot, karbonmonoksit, hidrogen, su buxarı və hidrogen sulfid mövcud olmuşdu.

Məhz bu dövrdə Yerdə su yaranmışdı. İlkin hidrosferin, asanlıqla hərəkət edən məhlulların və qazların Yer mantiyasından çıxması nəticəsində əmələ gəldiyi güman edilir. Buxar şəklində ayrılan su, kondesatlaşaraq və dəhşətli və demək olar ki, davamlı leysanlara Yerə tökülürdü. Yer səthində şirin

yağış suyunun vulkanik külllər təşkil edən kiçik gölləri formalaşmağa başlamışdı.



Şək. 1.8. Zaman şkalasında yerin təkamülü – geoloji zaman (mənbə: Geologic_Clock_with_events_and_periods.svg: Woudloperderivative work: Hardwiggderivative work)*

Hazırda yerin su örtüyü - hidrosfer - maye, bərk (buz) və qazşəkilli (su buxarı) halında planetin bütün suyunu təşkil edir.

Planetdə suyun ümumi həcmi demək olar ki, dəyişməz olaraq qalır və təxminən 1,5 milyard kub km. təşkil edir. Okeanlar hidrosferin əsas tərkib hissəsidir. Bu suyun həcminin

təxminən 94% -ni təşkil edir. Bunun ardınca növbəti sırlarda yeraltı sular, buzlaqlar, yerüstü sular (göllər, çaylar, bataqlıqlar, torpaq suları) qərarlaşır.

Günəş radiasiyasının təsiri altında təbiətdəki su davamlı dövr edir. Çayların, göllərin və dənizlərin səthindən, nəm torpaqdan, otlardan, ağac və kol yarpaqlarından buxarlanır, su buxarı şəklində qalxır, sıxlaşır və buludlara çevrilərək, onlar tərəfindən daşınır, sonra yerin səthinə düşür, çaylara və dənizlərə axır, torpaq tərəfindən udulur, bitkilər tərəfindən sorulur və yenidən buxarlanır. Dünya su dövriyyəsi sistemi, okeanların fəza fasiləsizliyi, suların ümumi mənşəyi hidrosferin vahid olduğunu göstərir.

İkinci mərhələ Yerin nüvəsinin meydana gəlməsi ilə xarakterizə olunur. Təxminən 4000 milyon il əvvəl, qısa müddətli radioaktiv elementlərin parçalanması və cazibə qüvvəsinin təsirindən sıxılma nəticəsində Yerin daxili temperaturu artdı və planetin yarıərimiş daxili hissəsi kəskin şəkildə yenidən quruluşunu dəyişdi. Əksər tədqiqatçıların fikrincə, əsasən dəmir-nikeldən ibarət olan nüvənin meydana gəlməsi dərin daxili oblastların davamlı əriməsi ilə əlaqədar idi. Yarandıqdan sonra planetimizin daxili quruluşu mahiyyətcə dəyişməz qaldı və mantiyanın və yer qabığının mineral tərkibi bu günə qədər eyni qalır.

Bu uzun müddət ərzində fiziki vəziyyət tədricən dəyişdi: vulkanik aktivlik və meteoritin düşmə tezliyi azaldı, okeanların duzluluğu artdı. Lakin günəşdən yüksək enerjili ultrabənövşəyi radiasiya almağa davam etdi. Belə şəraitdə həyat yarandı.

Hazlrda tapılan ən qədim çökmə süxurları daimi okeanların əmələ gəlməsini göstərir. Isuada (Grenlandiya) aşkar edilmiş ilk məlum çöküntü süxurlarının təxminən 3800 milyon il yaşı var. Daha qədim süxurlar yalnız kristal süxurlarla təqdim olunur.

Bioloji adlanan planetar təkamülün üçüncü mərhələsi, təxminən 2000 milyon il əvvəl, fotosintez prosesi xas olan

orqanizmlərin görünən işığın enerji mənbəyi və sudan elektron donor kimi istifadə etmək qabiliyyətinin inkişaf etdiyi şəraitdə atmosferdə sərbəst oksigenin meydana gəlməsi ilə xarakterizə olunur.

Sərbəst oksigenin atmosferdə yığılması 600 milyon il əvvəl, mürəkkəb çoxhüceyrəli həyat formaları yaranana qədər baş verdi. Atmosferdə yığılan fotosintez mənşəli sərbəst oksigen Günəşin ultrabənövşəyi radiasiyasını udaraq ozon təbəqəsinin yaranmasını şərtləndirdi. Nəticədə günəşin ultrabənövşəyi radiasiyasının Yer səthinə çatması məhdudlaşdırıldı. Ozon ekranının meydana gəlməsi, yerüstü bioloji sistemlərin inkişafına imkan verdiyi üçün təbii mühit tarixində ən əlamətdar hadisələrdən birinə çevrilmişdi.

Yer atmosferində 21 % təşkil edən oksigenin, bitkilərin həyati fəaliyyəti ilə əlaqədar daim artırılması, yəni Yer kürəsində həyatın olması səbəbindən dinamik tarazlıq vəziyyətindədir. Bu fenomen Yer kürəsindəki həyatın inkişafının kosmosda baş verən proseslərin necə səbəb olduğunu açıq şəkildə nümayiş etdirir.

Yerin təkamülü, onun atmosferi və biosferasının meydana gəlməsi daim əlaqəli və birgə proseslər nəticəsində reallaşdı.

Bu fəsildə kitaba yalnız sizə kömək edən bir neçə ev elektrik cihazını xatırlatmaq üçün daxil edilmişdir. Təəssüf ki, onlardan ikisi - elektrik soyuducu və elektrik kondisioneri barədə də qeydlər yoxdur. Bu cihazlarda, elektrik enerjisindən istifadə edərək bu kitab üçün çox mürəkkəb olan istilik prosesləri baş verir. Eyni zamanda, istilik çeviricilərinin köməyi ilə xüsusi maye maddə (adətən freon) soyudulur və soyuducuda və dondurucuda temperaturu (-18 ° C-ə) endirir. Təqribən eyni formada mənzilə daxil olan temperatur və rütubət kondisioner vasitəsilə azaldılır. Elektrik köməkçilərinizin demək olar ki, hamısı, xüsusən elektrik qızdırıcıları, lampaları və kiçik induksiyalı mühərrikləri bizə artıq tanış olan komponentləri özündə ehtiva edir.

HİSSƏ II

ENERJİ ISTEHSALI TEXNOLOJİYALARI

GİRİŞ

Bəşəriyyətin hazırki inkişaf mərhələsində çoxsaylı enerji istehsalı mənbələri mövcuddur. Onların fəaliyyət prinsipi, gücü və texniki xarakteristikası mənbənin praktiki təyinatından, yəni, istehsal gücündən, həcmindən və istehlakçıların fərdi xüsusiyyətlərindən asılı olaraq dəyişir. Məsələn, radioqəbuledicinin elektrik qidalanması üçün 2-3 Vt kifayət etdiyi halda, milyonlarla insanın yaşadığı şəhərin yalnız işıqlandırılması yüz minlərlə kilovatt elektrik gücü tələb edir. Bu mənada, mövcud şəraitdən çıxış edərək enerji istehsalı üçün bu və ya digər növ mənbələrdən istifadə olunur.

Enerji istehsalı mənbələrini şərti olaraq üç böyük qrupda sistemləşdirmək olar:

- sistem mənbələri
- avtonom mənbələr
- texnoloji mənbələr

Sistem əhəmiyyətli mənbələr - **ü**mumi təyinatlı stasionar elektrik stansiyaları bütün müasir elektroenergetikanın əsasını təşkil edir. Belə elektrik stansiyaların istehsal etdiyi elektrik enerjisinin standart parametrlərinin (əsasən,tezlik və gərginliyinin) təmin olunması məqsədilə vahid şəbəkədə birləşdirilməsi *elektroenergetik sistemi* formlaşdırır. Ümumi istifadəyə malik belə elektrik şəbəkəsində, yəni enerji sistemində fəaliyyət göstərən elektrik stansiyaları sistem elektrik

stansiyaları adlanır. Bu stansiyalarda enerji istehsal edən aqreqtın vahid gücü orta hesabla 3 - 1200 MVt həddində dəyişir. Elektrik enejisini uzaq məsafələrə ötrülməsi məqsədilə, 100 – 1200 kilovolt gərginlikli elektrk verilişi hava (bəzi hallarda kabel) xətlərindən istifadə olunur. Bununla yanaşı, elektrik enerjisinin uzaq məsafələrə ötrülməsi zamanı, xüsusilə müxtəlif ölkələrin elektroenergetika sistemləri arasında elektrik enerjisi mübadiləsini həyata keçirmək üçün, son illərdə yüksək gərginlikli sabit cərəyan qurğularından da geniş istifadə olunur.

Enerji istehsalı texnolojiyalarına, istifadə etdikləri ilkin enerji resurlarına və onların isitifadə sxemlərinə görə növbəti tip stansiyalar fərləndirilə bilər:

Ənənəvi (bərpaolunmayan) enerji istehsalı texnolojiyaları:

- Qazan - turbin elektrik stansiyaları (QTES);
  - ✓ kondensasiya tipli və ya dövlət rayon elektrik stansiyaları (KES və ya DRES);
  - ✓ istilik elektrik mərkəzləri (İEM);
- Qaz-turbin qurğulu elektrik stansiyaları (QTQES);
- Buxar-qaz qurğulu (həmdövrəli) elektrik stansiyaları (BQQES);
- Porşenli mühərrik əsaslı (dizel) elektrik stansiyaları (DES);
- atom elektrik stansiyaları (AES);

Qeyr-ənənəvi (bərpaolunan) enerji istehsalı texnolojiyaları:

- hidroelektrik (su elektrik) stansiyalar (HES);
- günəş elektrik stansiyalrı (GES);
- külək elektrik stansiyaları (KES);
- geotermal istilik elektrik stansiyaları (GtİES) və s.

Bunlarla yanaşı, digər növ elektrik stansiyalarnı da qeyd etmək olar: daxili yanma mühərrikli elektrik stansiyalar (DYMES); bioenerji elektrik stansiyaları (BioES); qabarma

elektrik stansiyaları (QES); hidroakkumulyasiya elektrik stansiyaları (HAES) və s.

Qeyd edək ki, bərpaolunan enerji mənbələrindən istifadə edərək enerji istehsal edən stansiyaların elektrik enerjisinin istehsalındakı payı hələ ki, arzu olunan səviyyədə deyil - Beynəlxalq Bərpaolunan Enerji Agentliyinin (İRENA) məlumatına əsasən, BEM-nin elektrik enerjisi istehsalında payı 2020-cu ilin əvvəlinə orta hesabla 27% təşkil etmişdir.

Avtonom enerji mənbələri - **b**u qrupa az enerji tələb edən kiçik mühərrikli kommunikasiya, nəqliyyat, məişət, təsərrüfat, tədqiqat və laboratoriya profilli qurğuların qidalanması üçün nəzərdə tutulan enerji mənbələri daxildir. Bu cür enerji istehlakçılarına aşağıdakıları aid etmək olar: radio-televiziya aparatları, kompüterlər, əlaqə vasistələri, meteoroloji və seysmoloji stansiyalar, nəzarət-ölçü qurğuları, tibbi texnika, mürəkkəb oyuncaqlar və s.

Avtonom enerji mənbələrinə aşağıdakılar daxildir:

- dizel və ya benzinlə işləyən elektrik stansiyaları;
- məişətdə "batareya" və ya "daş" adlandırılan quru qalvonik elementlər;
- elektroakkumulyatorlar;
- günəş elektrik stansiyaları;
- külək elektrik stansiyaları;
- termoelektrik generatorlar (TEG);
- istilik elementləri və s.

Bu mənbələrin müxtəlif formaları və onların hər birinin praktiki əhəmiyyəti dayanmadan inkişaf etməkdədir. Beynəlxalq Energetika Agentliyinin (İEA) məlumatına əsasən, müasir dövrdə elektrik istehlakı balansında avtonom mənbələrdən istifadə olunma 5 % təşkil edir [8].

Bu cür elektrik mənbələrinin sayı milyard vahidlərlə ölçülür və onların ümüumi gücü yüz milyon kilovatdan artıqdır. Avtonom elektrik mənbələri o qədər intensiv şəkildə inkişaf edir ki, yaxın onillikdə bu mənbələrin enerji sistemindəki payının bir

neçə dəfə artması proqnozlaşla bilər. Bu, həm avtonom elektrik mənbələrinə tələbatın artması, həm də bu sistemlə bağlı yeni konsepsiyanın meydana çıxması nəticəsində baş verəcək. Belə mənbələr texniki baxımdan sürətlə təkmilləşir. Onların vahid gücü və enerji tutumu artır, əldə edilən enerjinin qiyməti isə sürətlə azalır. Bəzi hallarda avtonom enerji mənbələrindən istifadə olunması ümumi enerji şəbəkəsindən alınan elektrik enerjisindən istifadə etməkdən daha səmərəli və təhlükəsiz olur.

Elektrik enerjisinin texnoloji mənbələri - **b**ura maşın aqreqatının və texnoloji prosesin ayrılmaz hissəsi olan elektrik mənbələri daxildir. Məsələn, nəqliyyat vasitələrinin (təyyarənin, dizel qatarının, avtomobilin, gəmilərin və s.) elektrik generatorları, kosmik aparatların elektrik generatorları, hərəkət edən elektromexanizmlərin mənbələri (qaldırıcı kranlar, su nasosları, qaynaq aqreqatları, elektrokarlar və s.), hərbi texnikanın enerji mənbəyi və s. Belə elektrik mənbələrinin sayı milyadlarla ölçülür. Bu növ elektrik mənbələrinin funksiyaları texnoloji aqreqatların çərçivəsindən kənara çıxmır. Lakin, fövqəladə hallarda (təbii fəlakətlət, müharibə, pandemiya və s.) mülki ehtiyacların ödənilməsi – xəstəxanaların, yaşayış yerlərinin, çörəkxanaların, yeməkxanaların, sənaye tipli soyuducuların, radiostansiyaların, su təhcizatı stansiyalarının, su təmizləyici və s. qurğuların fasiləsiz işinin təmin edilməsi üçün texnoloji elektrik mənbələrindən geniş şəkildə istifadə olunur. Təsadüfi deyil ki, mülki müdafiə və fövqəladə hallar normalarına əsasən bu mənbələr müvafiq ərazinin ehtiyat elektrik mənbələri siyahısına daxil edilir.

Kitabın praktiki təyinatına uyğun olaraq, enerji istehsalı texnologiyalarının sadələşdirilmiş şəkildə təqdim olunduğunu nəzərə alaraq, daha geniş məlumatlar əldə etmək üçün digər texniki ədəbiyyatlara müraciət olunması zəruridir.

FƏSİL IV

ƏNƏNƏVİ (BƏRPA OLUNMAYAN) ENERJİ İSTEHSALI TEXNOLOJİYALARI

4.1. ƏNƏNƏVİ (BƏRPA OLUNMAYAN) ENERJİ MƏNBƏLƏRİ TARİXİNƏ QISA SƏYAHƏT

Buxar maşınlarının tarixi İngilis dəmirçisi Thomas Nyukomen və dostu kanalizasiya ustası Jon Koulinin 1705-ci ildə mədənlərdən suyu çəkmək üçün hazırladığı buxar nasosunun icad olunmasından başalayır. Sonradan, 1781-ci ildə İngilis ixtiraçısı və tədqiqatçısı Jeyms Uatt tərəfindən ixtira edilən və onun şərəfinnə Uatt buxar maşını adlandırılan qurğu *birinci sənaye inqilabını* şərtləndirmişdir. Bunun əsasında İngiltərə sənayenin inkişaf tempinə görə dünyada növbəti 200 il ərzində birinci yerdə olmuşdur. Doğrudur, daha dəqiq baxsaq, ilk dəfə buxarın gücündən istifadə edərək mexaniki işlərin görülməsi ilə bağlı məlumatlar 150 il b.e.ə məşhur Aleksandriyada (Misir) fəaliyət göstərən dini, tədqiqat, təhsil və mədəniyyət müzeyində (yunan dilində "museyon" adlandırılırdı) çalışan Ktezibiem və Filamonun əsərlərində rast gəlinir. Buxar maşını orta hesabla 2 min il əvvəl Aleksandriyada doğulmuş yunan əsilli riyaziyyatçı - ixtiraçı Heron Aleksandrinus eolipilin (qədim yunanlara məlum olan buxar maşının ilk növü – Heron maşını – yunan dilindən "külək Allahı Eola şarı" kimi tərcümə olunur) icad etdiyi zaman başladığı məlum olur (*şəkil. 4.1*) [37].

Bəs ən qədim buxar maşını olan bu eolipil nə idi? Bu, öz oxu ətrafında dönə bilən bir kürə idi. Kürə, təzyiq altında

soplodan daxil olan buxarın təsirindən hərəkət edirdi. Soplolar biri-birindən əks istiqamətlərdə yerləşdirildiyinə görə firlanma momenti yaradırdılar. Məhz bu fırlanma momenti kürəni öz oxu ətrafında fırlanmağa məcbur edirdi.

Buxar, şəkildən göründüyü kimi yarımkürənin içərisində onun altındakı yanacağın istiliyi ilə yaradılırdı. Heron buxar maşınının müasir prototipi dəqiqədə 1500 dövrə qədər sürətlənməyə qadirdir.

Şək. 4.1. Heron Eolipili – Ən qədim buxar maşını [37].

Qeyd edək ki, bu ixtira filosof, astronom və ixtiraçı Taki Al-Din tərəfindən buxar maşını yenidən ixtira olunan tarixə, 1577-ci ilə qədər tamamilə unudulmuşdur.

İxtiraçılar buxar maşınını israrla inkişaf etdirərək tezliklə ən geniş tətbiq olunan universal bir buxar maşınına çevirdilər. Təbii ki, elektrik generatorları üçün bir hərəkətverici intiqal zəruriyyəti yarandıqda, Uatt buxar mühərriyi dərhal tətbiq olundu. 1857-ci ildə mayaklarda güclü lampaları işıqlandırmaq

üçün 10 at gücü (7.36 kVt) olan kiçik bir buxar mühərriki ilə birlikdə işləyən ilk real "Alliance" elektrik generatoru fəaliyyət göstərməyə başladı. Bir neçə il ərzində yüzdən çox belə stansiya tikildi və ümumilikdə müştərək buxar mühərriyi olan elektrik generatorları (onların gücü yüz kilovatta çatdı) elektrik enerjisinin əsas istehsalçısına çevirildi.

Lakin, 1763-cü ildən başlayaraq Uatt Nyukomen buxar nasosunu təkmilləşdirərək 1776-cı ildə effektivliyi iki dəfə yüksək olan buxar maşınının patentini aldı (*şəkil 4.2*) [38]. Eyni zamanda, Uatt 6 il sonra iki təsirli buxar mühərriyinin başqa bir



Şək. 4.2.Jeyms Uatt və onun buxar maşını. mənbə [38].

növünü - buxar turbininin (Latınca "turbo" - "sürətli dönmə, vorteks") (artıq atmosfer təzyiqindən istifadə olunmayan – yalnız buxar silindirdəki porşeni hərəkətə gətirirdi) yeni növünü ixtira etdi. Hazırda, əksər hallarda turbin və generator güclü bir vahid kompleks hesab olunur, bunlara bir sözlə turbogenerator deyilir və qurğunun layihələndirilməsi eyni zamanda işlənilir.

Təqribən 100 il əvvəl buxar turbini öz əhəmiyyətini sübut etdi və o vaxtdan bəri elektrik stansiyalarında güclü elektrik generatorları üçün əsas hərəktətverici intiqal rolunu oynadı. Və

bir neçə onillikdən sonra elektrik stansiyalarında digər güclü qaz turbinlərinin tətbiqinə başlanıldı. Yeri gəlmişkən qeyd edək ki, hazırda Dünya üzrə istehsal olunan elektrik enerjisninin təqribən 70 %-i istilik elektrik stansiyalarında istehsal olunur [8].

Ənənəvi enerji istehsalı texnologiyalarının əsas istifadə olunan növləri növbəti paraqraflarda nəzərdən keçirilir.

4.2. İSTİLİK ELEKTRİK STANSİYALARI

Elektrik stansiyası – təbii enerjinin elektrik enerjisinə çevrilməsinə xidmət edən energetik qurğudur. Elektrik stansiyasının tipi hər şeydən əvvəl istifadə olunan təbii enerjinin növü ilə təyin olunur. Hazırda, istilik elektrik stansiyaları dünya ölkələrinin çoxunda istifadə olunan elektrik enerjisinin əsas mənbəyini təşkil etməkdədir. Dünyada istehsal olunan elektrik enerjisinin yarısından çoxu bu stansiyaların payına düşür. Eyni zamanda, "Enerdata" informasiya agentliyinin məlumatına əsasən, yalnız 10 ölkə istisna təşkil edir. O cümlədən, Fransada enerji istehsalının əsas hissəsi nüvə energetikasının payına düşür və ya Norveg və Yeni Zelendiyada elektrik enerjisinə olan ehtiyacın 80%-dən çox hissəsi BEM-in payına düşür [39].

İstilik elektrik stansiyalarının bir-neçə növü mövcuddur. Onları müxtəlif əlamətlərinə görə qruplaşdırmaq olar: ilkin istilik daşıyıcılarının növünə görə (buxar-turbin, qaz-turbin, buxar-qaz), əsas korpusun quraşdırılmasına görə (qapalı, yarımqapalı və açıq), işçi cisimlərin parametrlərinə görə (aşağı, orta, yüksək və kritik həddən yüksək ifrat təzyiqli), yandırılan yanacağın növünə görə və s. Buna baxmayaraq, çox hallarda bu stansiyaları ötürücü maşının növünə görə (qurğuya) fərqləndirirlər. Hal hazirda əsasən, aşağıdakı İES-lər fəaliyyət göstərir:

- buxar-turbin qurğulu – BTQ;
- buxar-qaz qurğulu – BQT;
- qaz-turbin qurğulu – QTQ;

- dizel – DES;
- qaz-porşen aqreqatlı – QPA;
- daxili yanma mühərrikli - DYM;
- Geotermal itilik elektrik stansiyaları – GtİES.

Hər bir İES-ın layihəsi həyata keçirilməsindən əvvəl layihə ilə əlaqədar və tənzimləyici təşkilatlarla – administrativ, təbiəti mühafizə, sanitar, yanğından mühafizə təşkilatı və s. ilə razılaşdırılmalıdır. Burada istilik elektrik stansiyanın baş planı vacib sənədlərdən biri hesab olunur. Bu sənəd elektrik stansiyasının ümumi xarakteristikasını göstərir və bu sahədə müvafiq təşkilatların suallara cavabı verilirr ki, bunlar da aşağıdakılardan ibarətdir:

- əsas avadanlığın seçimi;
- küləklərin əsas istiqamətləri;
- İES-ə yanacağın, yüklərin və heyətin daşınması ilə bağlı nəqliyyat sxemləri;
- İES qəsəbəsini və obyektlərinin daşqınlardan qorunması, stansiya obyektlərinin yerləşdirilməsi və s.

Şəkil 4.3-də İES-in enerji blokunun sadələşdirilmiş texnoloji sxemi göstərilib.

Bu sxemə əsasən İES-nın əsas və köməkçi avadanlıqları haqqında təsəvvür əldə etmək mümükündür.

Mərkəzi hissədə buxar generatoru (qazan qurğusu) yerləşir – bura yanacaq və hava qızdırıcıda (13) qızdırılmış hava verilir. Havanın verilməsi üçün (6) hava vurucudan istifadə edilir. İti buxar (12) buxar qızdırıcısından keçdikdən sonra əsas buxar xətti ilə (1) buxar turbininə daxil olur. (3) kondensatorunda yaranan kondensat (5) bəsləyici nasos vasitəsilə (10) su ekonomayzerindən keçərək qazan qurğusunun (8) barabanına verilir. Oradan endirici borular vasitəsilə soyuq su kollektoruna, sonradan qazan quğusunun ekran borularına daxil olaraq ocaqdakı yanma məhsullarının istiliyi hesabına qızdırılır və barabanda buxara çevrilir.Yanma nəticəsində

yaranan məhsullar (7) tüstüsoranın köməkliyi ilə tüstü qazlarının kənarlaşdırılması məqsədilə qurulan (11) tüstü borusuna atılır.



Şək. 4.3. İES-in prinsipial texnoloji sxemi. 1 –buxar turbini; 2 – generator; 3 – kondensator; 4 – kondesatorun soyutma su nasosu; 5 – bəsləyici nasos; 6 – hava vurucu; 7 – tüstüsoran; 8 – baraban; 9 – enerji blokunun transformatoru; 10 – su ekonomayzeri; 11 – tüstü borusu; 12 – buxar qızdırıcı;13-hava qızdırıcı

İstilik elektrik stansiyasının quruluşuna aşağıdakılar daxildir: yanacaq təsərrüfatı və yanacağın hazırlanması sistemi; qazanxana - qazan və köməkçi avadanlıqları; turbin qurğusu - turbin və köməkçi avadanlıqları; su hazırlığı və kondensat təmizləyici qurğu; texniki su təchizatı sistemi, kül çıxarma sistemi; elektrotexniki təsərrüfat; güc avadanlıqlarının idarəetmə sistemi.

İstilik elektrik stansiyaları arasında daha mürəkkəb və eyni zamanda ən geniş yayılmış olanı buxar turbinli elektrik stansiyalarıdır. Buxar-turbinli elektrik stansiyaları bir qayda

olaraq yüksək gücə malik olur və gücləri 100 - 4000 Meqavat hədlərində dəyişir. Nəhəng İES-lərdə sutkalıq kömür sərfiyyatı 20 min tona, mazut sərfiyyatı isə 10 min tona çatır (və ya bir-neçə yüz dəmiryol vaqonu). Bu qədər böyük müəssisənin bir sahədə fəaliyyət göstərməsi üçün kifayət qədər geniş ərazinin ayrılması tələb olunur (100 - 2000 hektar).

İstilik Elektrik Stansiyasının yaxınlığında (3-10 km) energetiklərin və inşaatçıların tərkibində sosial obyektlər olan kompleksi – məktəb, uşaq bağçası, tibbi müəssisələr, mağazalar, xidmət sahələri və s. olan qəsəbəsi yerləşdirilir. Belə qəsəbələrdə 10 mindən 50 minədək əhali məskunlaşır ki, onlardan yalnız bir hissəsi İES-də çalışır. Buna görə də belə yaşayış məskənlərindəki işçilərin stansiyada işləyən ailə üzvlərinin iş problemi olmur.

İstilik Elektrik Stansiyasının işi enerjinin təbiətdə bir növdən başqa növə keçməsini praktiki olaraq nümayiş etdirir. Üzvi yanacağın tərkibində olan, günəş enerjisinin təsirindən formalaşan enerji qazanın odluq kamerasında qazların istilik və işıq enerjisinə çevrilir, sonra bu enerji buxarın istilik enerjisinə transformasiya olunur, daha sonra buxarın gücü turbini hərəkətə gətirir və mexaniki (fırlanma) enerjiyə çevrilir ki, nəhayət fırlanan generatorda elektrik enerjisinə çevrilir. İstehlakçıya çatdıqdan sonra elektrik enerjisi öz növbəsində işıq, istilik, mexaniki, kimyəvi və başqa növ enerjilərə çevrilir. Beləliklə, enerjinin praktikadakı təbii dövriyəsi zamanı enerjinin itməməsi və bir növdən başqa bir növə keçməsi qanununun, eləcə də termodinamika qanunlarının təzahürü bu şəkildə baş verir.

Enerjinin bir növdən başqa bir növə keçməsi prosesində enerji daşıyıcısına verilən enerjinin hamısı digər enerji növünə çevrilmir. Bu enerjinin bir hissəsi proses zamanı itir. Bu ilkin enerjinin müəyyən bir hissəsinin prosesin özünün həyata keçirilməsinə sərf edilməsi ilə izah edilir. İstilik ekvivalentinin ilkin enerjiyə və əldə edilən yeni növ enirjiyə olan nisbəti hər-hansı elektrik stansiyasının faydalı iş əmsalını (FİƏ) təşkil edir.

Müxtəlif növ elektrik stansiyalarında FİƏ 28-30%-dən 45-60%-ə kimi dəyişir. Kombinə olunmuş istilik elektrik stansiyalarında isə faydalı iş əmsalı 70-80% -ə kimi yüksələ bilir. İstilik Elektrik Stansiyasının FİƏ-sini aşağıdakı formul ilə hesablamaq olar:

$$\eta_{İES} = \frac{E_{bur} \cdot 860}{B \cdot Q} \cdot 100, \% \qquad (4.1)$$

Burada: $\eta_{İES}$ – İES-in FİƏ;
E_{bur} – enerjinin buraxılması, kV·s;
B – yandırılmış yanacağın miqdarı, kq;
Q – yanacağın istiliktörətmə qabiliyyəti (kaloriliyi), kkal/kq;
860 – elektrik enerjisinin ekvivalenti, kkal/kBt·s.

Məsələn, İES-də E_{ist} = 100 mln kVt·s miqdarında elektrik enerjisi istehsal olunmuşdur. Bu enerjinin istehsal olunmasına isə Q = 4 560 kkal/kq kalorili B = 54,3 min ton kömür sərf olunmuşdur və eyni zamanda bundan 8,4 mln kVt·s stansiyanın fərdi ehtiyacları üçün sərf edilmişdir İES – E_{frd}. Bu zaman netto FİƏ- η_E^{nt} (3.2) formuluna əsasən müəyyənləşir:

$$\eta_E^{nt} = \frac{(E_{ist} - E_{feh}) \cdot 860}{B \cdot Q} \cdot 100 = \frac{91{,}6 \cdot 860 \cdot 10^6}{54{,}3 \cdot 4560 \cdot 10^6} \cdot 100 = 31{,}8\% \qquad (4.2)$$

Bununla yanaşı burada ($\mathfrak{e}_e$) yanacağın 1 kVt·s-a düşən xüsusi sərfiyyatı (4.3) formuluna əsasən müəyyənləşir:

$$\mathfrak{e}_e = \frac{54{,}3 \cdot 10^9 \cdot (4560/7000)}{(100 - 8{,}4) \cdot 10^6} = 386{,}2\ q/kVt \cdot s \qquad (4.3)$$

$\mathfrak{e}_e$ həcmini FİƏ vasitəsilə də müəyyənləşdirmək mümkündür (3.4):

$$в_э = \frac{в_n}{в_э^{nt}} = \frac{122{,}8}{0{,}318} = 386{,}2\,\frac{q}{kVt}\cdot s \qquad (4.4)$$

Burada: $в_n$ = 122,8 q/kVt, ideal dövrə (tsikl) üçün şərti yanacağın xüsusi sərfidir, yəni FİƏ 100 % olduqda bu göstəriciyə nail olmaq olar.

4.2.1. Buxar-turbinli İstilik Elektrik Stansiyaları

Buxar-turbin qurğuları müasir dövrdə dünya ölkələrinin çoxunda əsas elektrik stansiyası növünü təşkil etməkdədir. Elektrik enerjisinin sənaye istehsalının təqribən 40%-i bu stansiyaların payına düşür. Buxar-turbin qurğulu İES-lər aşağıdakı növlərə ayrılır:

- yanacaq növünə görə: kömür, qaz-kömür, qaz-mazut, qaz və s.
- texnoloji tsiklinə görə: kondensasiyalı, istiləşdirmə ayrımlı, istehsalat ayrımlı, əkstəzyiqli və xüsusi (alıcının sifarişinə görə):
- iti buxarın parametrlərinə görə: aşağı təzyiqli – 15 at-a kimi, orta təzyiqli – 35 at-a kimi, yüksək təzyiqli – 110 at-a kimi, çox yüksək təzyiqli – 140 at-a kimi, ifrat kritik təzyiqli – 240 at və daha artıq.

Buxar-turbinli İES-in geniş yayılmasını nəzərə alaraq, texnoloji sistemləri və bu tipli elektrik stansiyalardakı avadanlıq növlərini, eləcə də qazan aqreqatlarının işindəki müxtəlif texnoloji prosesləri daha yaxından nəzərdən keçirək.

İstilik Elektrik Stansiyasının prinsipial istilik sxemi elektrik stansiyasının əsas aqreqatları ilə köməkçi qurğuları arasındakı texnoloji əlaqələrin birxətli təsviridir. *Şəkil 4.4*-də turboaqreqatının istiləşdirmə ayrımı olan İEM-in prinsipial istilik sxemi göstərilmişdir.

İstiləşdirmə ayrımlı İEM-nin iş prinsipi istilik sxeminə görə belədir:baş buxar xətti (2) vasitəsilə qazan qurğusundan (1)

gələn iti buxar buxar turbininin yüksək təzyiqli silindirinin (3) işçi pərlərinə daxil olur. Genişləndikdən sonra buxarın kinetik enerjisi elektrik generatoru (5) ilə eyni valda (4) yerləşən turbin rotorunun fırlanma mexaniki enerjisinə çevrilir. Buxarın genişlənmə prosesində orta təzyiqli silindirdən buxarun bir



Şək. 4.4. İstiləşdirmə ayrımlı İEM-nin prinsipial sxemi

hissəsi götürülərək şəbəkə suyunun (7) qızdırıcısına (6) yönəldilir. İşlənmiş buxar turbinin axırıncı pilləsindən kondensatora ötürülür və sonra istilik mübadiləsi nəticəsində kondensatlaşaraq boru kəməri (8) vasitəsi ilə nasosdan (9) istifadə edilməklə yenidən qazan qurğusuna göndərilir. Alınan enerjinin çox hissəsi elektrik generatorunda (9) elektrik cərəyanı yaratmaq üçün istifadə olunur.

İstilik Elektrik Mərkəzi (İEM) adlandırılan belə elektrik stansiyaları məlum olduğu kimi elektrik və istilik enerjisinin kombinə edilmiş istehsalı üçün istifadə edilir ki, bu da nəhəng şəhərlərin sənaye və kommunal-məişət ehtiyacının ödənilməsi üçün nəzərdə tutulmuşdur.

Çoxlu sayda mürəkkəb qarşılıqlı əlaqəli sistemdən ibarət istilik sxeminə malik olan İES-dən fərqli olaraq, sırf kondensasiyalı elektrik stansiyaları (KES) daha sadə sxemə və bir qayda olaraq blok quruluşuna malik olur. Yəni, hər bir turboaqreqat özünün buxar qazanı ilə birbaşa, baş buxar kəməri ilə əlaqələnir. Bu halda istilik sxemi əhəmiyyətli dərəcədə sadələşir və kapital xərcləri azalır. Digər tərəfdən eninə əlaqə sxemin olmaması və qonşu qazan qurğularından buxar təminatının mümkünsüzlüyü qazanlardan birinin zədələnməsi halında enerji blokunun bütünlüklə dayanmasına gətirib çıxarır. Qazan qurğularının etibarlığının turbinlərə nisbətən aşağı olmasını, enerji blokunun isə hər dəfə işə salınma və dayandırılması enerji istehsalında fasilələr yaratması ilə yanaşı daha çox buxar və su itkisinə yol açdığını nəzərə alaraq, böyük güclü enerji blokları paralel işləyən iki buxar generatoru ilə təmin olunur. Bir buxar generatoru ilə təchiz edilən monobloklardan fərqli olaraq belə enerji qurğuları dubl-blok adlandırılır.

4.2.2. Qaz və buxar-qaz turbinli İES

20 ci əsrin 70-ci illərindən başlayaraq (yəni üzvi yanacağın bahalaşması və "parnik effekti"nə qarşı mübarizə ilə başlayan dünya energetik böhranın yaranması ilə) qaz turbin qurğularına olan tələbat daha da artdı. Qaz turbin qurğularının vahid gücü 150 və hətta 200 MVt-dək, iş prosesinin temperaturu isə 1300 ^{0}C və daha çox artırıldı.

Müasir *qaz turbin qurğularının* FİƏ 33-39% təşkil edir. Qaz turbin qurğularının (QTQ) səmərəliliyi ümumiyyətlə qaz

pistonlu güc qurğularından daha aşağıdır. Qaz turbinlərinin tam istilik potensialını reallaşdırarkən yüksək FİƏ-yə nail oluna bilər. Gücü çox olan qaz turbin qurğularında işlənmiş qazların yüksək temperaturu nəzərə alınmaqla, qaz və buxar turbinlərinin birlikdə istifadəsi mümkündür. Belə halda yanacaq enerjisindən istifad səmərəliliyi əhəmiyyətli dərəcədə 60%-ə qədər artıra bilər. Belə yanaşma qurğunun səmərəliyini artırmaqla yanaşı, layihənin qiymətinin və mürəkkəbliyinin artmasına səbəb olur.

Qaz turbin qurğularında istehsal olunan elektrik enerjisinin istilik enerjisinə nisbəti ~ 1:2 nisbətindədir.

Ehtiyaclardan asılı olaraq qaz turbinli qurğular əlavə olaraq buxar və ya isti su qazanları ilə təchiz olunmuşdur ki, bu da istehsal ehtiyacları üçün müxtəlif təzyiqli buxar və ya standart temperaturlu isti su əldə etməyə imkan verir. İki növ enerjinin birlikdə istifadəsi ilə QTİES-ın yanacağın enerjisindən istifadə əmsalı (FİƏ) 90% -ə qədər artır.

İstilik enerjisini istifadə edərək elektrik enerjisi istehsal olunan elektrik stansiyasının işləmə rejimi öz texniki terminə malikdir - *kogenerasiya*.

Qaz turbin qurğularından, əlavə xərc sərf etmədən çox miqdarda istilik enerjisinin alınması imkanı kapital qoyuluşu sərmayəsinin daha sürətli qayıdılmasını nəzərdə tutur.

Qaz turbin qurğularının güclü istilik elektrik stansiyaları və mini istilik elektrik stansiyaları üçün güc avadanlığı kimi istifadəsi iqtisadi cəhətdən əsaslandırılmışdır, çünki bu gün qazla işləyən elektrik stansiyaları tikinti üçün ən cəlbedici xususi xərclərə və sonrakı istismar üçün aşağı qiymətə malikdir.

İlin istənilən vaxtında izafi istilik enerjisi istifadə edilərək, dilerlər vasitəsilə, elektrik enerjisi sərf etmədən, istənilən məqsəd üçün binaları tam sərinləşdirmək imkanı olur. Soyudulmuş soyuq su isə sənaye məqsədləri üçün, müxtəlif istehsal dövrlərində istifadə edilə bilər. Bu texnologiya,yəni elektriklə istilik enerjisinin və soyuqluğun birgə istehsalı-*trigenerasiya* adlandırılır.

Qaz turbinli qurğuların istifadəsinin səmərəliliyi ən az 1-3% -dən maksimum 110-115% -ə qədər olan müxtəlif elektrik yüklərində təmin edilir.

Qaz turbinli qurğuların - insanların birbaşa yaşadığı yerlərdə qaz turbinlərinin istifadəsində müsbət amili zərərli tullantıların aşağı (9-25 ppm) səviyyəsindədir. Bu cür mükəmməl ekoloji göstəricilər qaz turbin qurğularını insanların məskunlaşdıqları yaxın ərazilərdə ekoloji problem yaratmadan yerləşdirməyə imkan verir.

Qaz turbinli qurğular üçün bu meyar – dizel elektrik stansiyalarından daha yaxşıdır.

Qaz turbin qurğularından istifadə edərkən, istehsalçı katalizatorlar və nəhəng tüstü borularından istifadə edilmədiyinə görə tikinti və istismar mərhələlərində əlavə gəlirlər əldə edir.

Qaz turbinli elektrik stansiyasının avtomatlaşdırılmış idarəetmə sistemləri istismar heyətinin azaldılmasına və stansiyanın məsafədən idarə olunmasına imkan verir. Fövqəladə hallarda, kompleks avtomatik mühafizə və yanğınsöndürmə sistemləri təmin olunur.

Şəkil 4.5-də Siemens şirkəti istehsalı olan V94.3 tipli QTQ göstərilib [40]. Atmosfer havası mürəkkəb bir hava təmizləyici qurğudan şaxtaya (4) , oradan da hava kompressorunun axın hissəsinə (16) daxil olur. Kompressorda hava sıxılır. Tipik kompressorlardakı sıxılma nisbəti 13-17 atm təşkil etdiyinə görə, qaz turbin traktındakı təzyiq 1,3-1,7 MPa (13-17 atm) -dən çox deyil. Bu, qaz turbininin və buxar turbininin arasındakı digər ciddi fərqdir, buxar təzyiqinin qaz turbinindəki qaz təzyiqindən 10-15 qat daha çox olmasıdır. İş mühitinin aşağı təzyiqi, korpusun divarlarının kiçik qalınlığını və onların qızmasının asanlığını müəyyənləşdirir. QTQ-nin manevr etmı imkaları bununla təyin edilir, yəni tez işəburaxma və dayanmağa qadirdir. Buxar turbininin işə salınması 1 saatdan bir neçə saata qədər davam edirsə, ilkin temperatur

vəziyyətindən asılı olaraq 10-15 dəqiqə ərzində qaz turbinini işə salmaq olar.

Yanma kamerasından isti qazlar qaz turbininin axın hissəsinə daxil olur. Axın hissəsində qazlar demək olar ki, atmosfer təzyiqinə qədər genişlənir, çünki qaz turbininin arxasındakı sahə ya tüstü borusu ilə, ya da hidravlik müqaviməti az olan bir istilik dəyişdiricisi ilə əlaqəlidir.



Şəkil 4.5. V94.3 qaz turbin qurğusu [40].

Qaz turbinindəki qazların genişlənməsi ilə onun valında güc yaranır. Bu güc qismən hava kompressorunun intiqalında, artıqlığı isə generatorun rotorunda sərf olunur. Qaz turbinlərinin xarakterik xüsusiyyətlərindən biri kompressorun qaz turbininin yardığı gücün təxminən yarısını tələb etməsidir. Məsələn, 180 MVt gücündə qaz turbinində, kompressorun gücü 196 MVt təşkil edir. Bu, qaz turbininin və buxar - qaz turbininin

arasındakı əsas fərqlərdən biridir: ikincisi, bəsləyici suyu hətta 23.5 MPa (240 at) təzyiqə qədər sıxmağa sərf olunan güc buxar turbininin yalnız bir neçə faizini təşkil edir. Bu, suyun əlçatmaz bir maye olması və havanın sıxışdırılması üçün çox enerji tələb etməsi ilə bağlıdır.

Beləliklə, qaz turbininin çıxışında qazların temperaturu olduqca yüksəkdir və yanacaq yandırmaqla əldə edilən xeyli istilik sanki tüstü borusuna ötrülür. Buna görə qaz turbininin avtonom iş şəraitində onun səmərəliliyi aşağıdır: tipik qaz turbinləri üçün bu 35-36% -dir.Bu da uyğun avadanlıqların səmərəliliyindən xeyli azdır. Bununla yanaşı, aşağıda müzakirə ediləcək qaz turbininin "sonluğuna" istilik dəyişdiricisi quraşdırıldıqda məsələ kəskin şəkildə dəyişir.

Buxar-qaz istilik-elektrik stansiyaları XX əsrin əvvəllərində yaranaraq istilik energetikasında qlobal dəyişiklik yaratdı. Qaz sənayesinin sürətlə inkişaf etməsi elektroenergetikada ağır yanacaq növlərindən (kömür, torf, mazut və s.) istifadəni yarıya qədər azaltmağa imkan verdi.

Həmdövrəli buxar-qaz qurğuları (BQQ) iki ayrı qurğudan ibarətdir: buxarla və qazla işləyən turbin. Qaz turbin qurğusunda təbii qaz, yanacaq və digər yanacaqların yanma məhsulları turbini fırladır. Turbinlə eyni valda olan rotorun fırlanması səbəbindən 1-ci generatorda elektrik cərəyanı istehsal edilir. Yanma məhsulları qaz turbinindən keçərək enerjisinin bir hissəsini verir və çıxışda tüstü qazları təxminən 500 ° C temperaturda olur. Qaz turbininin çıxışından sonra tüstü qazları suyun və yaranan buxarın qızdırıldığı utilizasiya qazanına göndərilir. Nəticədə 100 atm təzyiqində çox təzyiqdə qızdırılmış buxar, 2-ci elektrik generatorunu idarə edən buxar turbinində istifadə olunur. Nəticədə 2-ci generatorda da elektrik cərəyanı istehsal edilir Buxar və qaz turbinlərinin eyni valda yerləşdiyi BQQ-lər də mövcuddur və bu halda bir elektrik generatorundan istifadə olunur.

Həmdövrəli BQQ-lər 58 - 64% hədlərində elektrik səmərəliliyi əldə etməyə imkan verir. Buxarla işləyən qurğuların FİƏ 33-45%, qaz turbinli qurğular üçün isə 28-42% təşkil edir, eyni zamanda sonuncunun istismar xərcləri daha azdır və tikinti-quraşdırma işlərinin 9-12 ay ərzində yekunlaşdırılması mümkündür.

Həmdövrəli BQQ-lər nisbətən yeni bir texnologiya hesab olunur.

Həmdövrəli buxar-qaz tsiklinin nümunəsində gələcəkdə kiçik bir buxar turbininin istismarı üçün avtomobilin işlənmiş qazlarından istifadə edilməsi perespektivlərinin BMW mütəxəssisləri tərəfindən qəbul edilməsi maraq doğurur.

Növbəti sxemdə həmdövrəli BQQ-nin prinsipial sxemi təqdim olunur (*şək. 4.6*).

Təqdim olunan həmdövrəli BQQ aşağıdakı kimi fəaliyyət göstərir. Qurğunun işə salınması iki üsulla ola bilər - qazan-utilizatordan (7) buxar turbininə və ya xarici buxar mənbəyindən işəburaxma turbininə buxar verməklə.

Qaz-turbin qurğusunun, temperaturu 500-600 ^{0}C-yə çatan işlənmiş qazları, buxar turbinini hərəkətə gətirən, müvafiq parametrlərə malik olan iti buxarın istehsal olunduğu utilizator qazanının yanma kamerasına verilir. Qaz-turbin qurğusunun buxar turbininin valı ilə qurğunun fərdi generatorları hərəkətə gətirilir. Zərurət olduğu halda, buxar istehsalının artırılması və ya parametrlərinin artırılması məqsədi ilə utilizator qazanının funksiyası dəyişdirilərək yanma qurğusuna çevrilə bilər.

Bu halda yanacağı sonadək yandıran buxar-qaz qurğusu əldə olunur.

Yuxarıda qeyd olunan sxemdə gücü 150 MVt olan bir qaz-turbin qurğusu və gücü 200 MVt olan ikinci bir kondensasiyalı buxar turbini nəzərdə tutulmuşdur. Yanacaq (qaz, dizel yanacağı) kompressordan təzyiq altında (13-15 ata) çıxan hava ilə birlikdə qaz-turbin qurğusunun yanma kamerasına verilir. Yanacağın yüksək hava artıqlığı şəraitində yanmasından sonra

($_{ged}$ = 2,0-3,0) temperaturu 1000–1300^{0}C olan yanma kamerasından şıxan qazlar qaz turbinin axın hissəsinə verilir. Qaz turbininin pillələrində öz potensialının böyük hissəsini sərf etdikdən sonra o hələ də kifayət qədər yüksək temperatur ilə (500-600 ^{0}C) utilizator qazanının kamerasına verilir. Bununla da



Şək. 4.6. Həmdövrəli BQQ-nin prinsipial sxemi:
1 – QTQ-nin hava kompressoru; 2 – yanma kamerası; 3 yanacaq; 4 – qaz turbini; 5 - elektrik generatoru; 6 – buxar turbini;7 – qazan-utilizator; 8 – BT-nin kondensatoru; 9 – kondensat nasosu; 10 - regenerasiya sistemi; 11 – qazan-utilizatorun bəsləyici nasosu; 12 - tüstü borusu.

qaz-turbin qurğusunun tsikli (dövrəsi) başa çatır. Bu tsiklin ilkin prosesidir: yanacağın verilməsi – yanma – qaz turbininin

generator ilə fırlanması – qazların buraxılması əlbəttə ki, fasiləsiz olaraq həyata keçirilir.

Daha sonra tsiklin ikinci (buxar-turbin) prosesesi işə başlayır: işlənmiş qazların qaz-turbin qurğusunun utilizator qazanına verilməsi – qızışmış buxar istehsalı – buxar turbinin generatorla birlikdə fırladılması – işlənmiş buxarın kondensatora verilməsi – buxarın kondensatlaşdırılması – onun yenidən qızıdırılması və qazana ötürülməsi.

Qaz-turbin qurğusu bəzən ikinci prosesdən istifadə olunmadan da istismar olunur. Bu halda qurğu istiliyi utilizasiya etmədən, yəni yüksək (450-550 ^{0}C) temperaturda olan işlənmiş qazları tüstü borusuna buraxaraq tam elektrik rejimində işləyə bilər. Belə rejimdə adətən, ümumi istifadədə olan vahid elektrik şəbəkəsinin sutkada 3-4 saat səhər və axşam maksimum ehtiyacının qarşılanmasında iştirak edən pik QTQ-ləri işləyir. Lakin bu qurğuları istifadədə olan İES-ın və istiləşdirmə buxar turbinləri vasitəsilə isitmə üçün istifadə olunacaq işlənmiş qazları utilizator qazanlarında utilizasiya edən qazanxanaların əlavəsi olaraq quraşdırılması daha məqsədəuyğundur.

4.2.3. Dizel ektrik stansiyaları

İstilik Elektrik Stansiyaların bu kateqoriyasında daxili yanma mühərriklərindən (DYM) istifadə olunur. Dizel elektrik stansiyaları bu tip elektrik stansiyaların ən geniş yayılmış növlərindən biridir. Bu stansiyalardan səhra və dağlıq zonalarda, eləcə də meşə təsərrüfatı və faydalı qazıntıların işlənməsi rayonlarında (şaxta və digər mədənlərdə), kənd təsərrüfatında və s. istifadə olunur.

Dizel Elektrik Stansiyaları elektrik şəbəkəsində elektrik enerjisi kəsintiləri olan və elektrik enerjisinin fasiləsiz verilməsi üçün xüsusi təminat tələb olunan istehlakçılarda quraşdırılır. Bu stansiyalar çay və dəniz gəmiçiliyində, hərbi-səhra bazalarında, fövqəladə vəziyyət şəraitində əvəzsiz rola malikdir.

Dizel Elektrik Stansiyaları, əsasən ümumi elektrik şəbəkəsi inkişaf etdirilməyən ərazilərdə daha çox yayılmışdır. Bu stansiyaların əsasında müxtəlif gücə malik olan dizel maşınları dayanır. Şəraitdən, yanacaq təminatından və digər faktorlardan asılı olaraq DES-lər həm stasionar (buxar-turbin və qaz-turbinli İstilik Elektrik Stansiyaları tərzində), həm də avtoqoşquların, dəmiryol vaqonlarının, çay və dəniz barjalarının üzərinə quraşdırılmaqla daşınan olur. Dizel aqreqatları maye yanacaqla yanaşı qazla da işləyə bilir. Son illər alternativ yanacaq növlərindən də istifadə olunur: qamış spirtindən, palma yağından və digər sintetik yanan maddələrdən. Daşınan DES-lər 10 MVt gücə malik ola bilər.

DES-in istilik balansı aşağıdakı tənliklə təyin edilir (4.5):

$$Q_n^r = Q_e + Q_{soy} + Q_{işl} + Q_{k.n.} + Q_{dig} \qquad (4.5)$$

Burada, Q_n^r - yanacağın yanma istiliyi;

Q_e – (0,3-0,4) Q_n^r bərabər olan işə çevrilmiş istilik;

Q_{soy} – (0,2-0,3) Q_n^r bərabər olan və soyuducu su vasitəsilə aparılan istilik;

$Q_{işl}$ – (0,2-0,3) Q_n^r bərabər olan və işlənmiş qazlarla aparılan istilik;

$Q_{x.n.}$ –(0-0,1) Q_n^r bərabər olan kimyəvi natamam yanma ilə itən istilik;

Q_{dig} – (0,05-0,15) Q_n^r təşkil edən digər itkilər.

Dizel Elektrik Stansiyalarının texniki-iqtisadi göstəricilərinin qiymətləndirilməsində aşağıdakı anlayışlardan istifadə olunur:

1. Effektiv FİƏ ,η_e – bu indikator FİƏ, η_i və mexaniki FİƏ, η_m nəzərə alınmaqla mühərriyin faydalı iş əmsalıdır (4.6):

$$\eta_e = \eta_i \cdot \eta_m . \qquad (4.6)$$

2. İndikator FİƏ, η_i – indikator işinə çevrilmiş istiliyin Q_i sərf edilmiş bütün istiliyə Q_{ist} olan nisbətidir, yəni:

$$\eta_i = \frac{Q_i}{Q_{ist}} = \frac{Q_i}{B \cdot Q}, \qquad (4.7)$$

burada, B – yanacağın bir saniyəlik sərfiyyatı, kq/san;
Q – yanacağın kalorilıy(İstiliktörətmə qabiliyyəti), kkal/kq və ya kC/kq.

Bu göstərici həqiqi tsikldə istilik itkisinin və silindrdəki sürtünmə ilə yaranan mexaniki itkinin nəzərə alınması ilə istiliyin istifadə olunmasını qiymətləndirir.

3. Mexaniki FİƏ ,η_m mühərriyin yastıqlarının və detal birləşmələrindəki sürtünməyə sərf olunan gücdən ibarətdir.

Bu tip elektrik stansiyaları digər elektrik stansiyaları ilə müqayisədə aşağıdakı üstünlüklərə malikdir:

1. Tez bir zamanda quraşdırılması, belə ki, bu cür stansiyanın quraşdırılması üçün xüsusi tikililərə ehtiyac olmur. Avadanlığın kompakt halda olması onun istənilən binada və ya çardax altında quraşdırılmasını mümkün edir.

2. Bu stansiyalardan həm stasionar, həm də daşınan variantda istifadə oluna bilər.

3. Yüksək səviyyəli etibarlılıq və digər stansiyalarla müqayisədə sadə şəkildə idarə olunması.

4. Stansiya avadanlığının avtomobil, traktor və hətta qoşqulu (dəvə, öküz, at, it qoşqusu) nəqliyyatın keçə biləcəyi istənilən yerə çatdırılması imkanı. Bu stansiyalardan istifadə oluna biləcək insan yaşayışı və fəaliyyəti məntəqələrinə geoloji ekspedisiyalar, faydalı qazıntı mənbələrinin (neft, qaz, kömür, qızıl, almaz və s.) kəşfiyyatı, meşə, balıqçılıq və ovçuluq təsərrüfatları, otlaq sahələri və s. daxildir.

Beləliklə, dizel qurğuları təsərrüfatın istənilən sahəsində istifadə oluna biləcək daha universal elektrik stansiyaları hesab

edilə bilər. Məhz buna görə də bu stansiyalar istehsal olunan digər enerji mənbələri ilə müqayisədə daha çox yayılmışdır.

4.2.4. Qaz-porşen elektrik stansiyaları

Qaz – porşen qurğuları (QPQ), yüksək qənaətli, orta surətli, iki/dördtaktlı məcburi alışmalı daxili yanma aqreqatıdır. Qaz – porşen aqreqatları həm elektrik, həm də istilik enerjinin istehsalına imkan verir. Bu qurğular 50 – 100% güc, uzunmüddətli istismar rejimində isə nominal gücün 70%-ni keçməməlidir.

Cədvəl 4.1

Daxili Yanma Mühərriyinin texniki xarakteristikaları

Mühərriyin növü	Sıxılma dərəcəsi, ζ	Mexaniki FİƏ, ηm	İndikator FİƏ, η_i	Effektiv FİƏ, η_e	Yanacağın xüsusi sərfiyyatı q/kVt·s
Dördtaktlı mühərriklər	*13,0-16,0*	*0,78-0,85*	*0,42-0,48*	*0,32-0,39*	*315-380*
İkitaktlı mühərriklər	*13,0-16,0*	*0,72-0,80*	*0,42-0,46*	*0,31-0,35*	*350-390*
Karbyuratorlu mühərriklər	*4,5-7,0*	*0,80-0,90*	*0,22-0,28*	*0,18-0,24*	*510-680*
Qaz mühərrikləri	*6,0-9,0*	*0,78-0,82*	*0,25-0,32*	*0,20-0,27*	*450-615*

Cədvəl 4.1-də müxtəlif daxili yanma mühərriklərinin texniki-iqtisadi göstəriciləri verilmişdir. Verilən məlumatlardan belə bir nəticəyə gəlmək olar ki, daxili yanma mühərrikli elektrik stansiyaları iqtisadi cəhətdən digər İES ilə tam olaraq rəqabət apara bilər. Eyni zamanda, qeyd etmək lazımdır ki, istilik maşınlarından çıxan tüstü qazlarının istiliyi utilizasiya edilərək yanacağın, eləcə də sənaye və yaşayış binalarının qızıdırılmasında istifadə oluna bilər. Belə olan halda QPQ istilik

– elektrik mərkəzi rejimində işləyə və 80-90% FİƏ-yə malik ola bilər.

Turbokompressor, çıxan qazların enerjisindən istifadə edir və mühhərrikin işi üçün lazımi hava- qaz qarışığı ilə təmin edir. Turbokompressorun köməkliyi ilə hava-qaz qarışığının təzyiq altında daxili-yanma mühərriyinin (DYM) yanma kamerasına verilməsi sayəsində daha yüksək güc əldə edilməklə yanaşı atmosferə atılan zərərli maddələrin azalmasına da nail olunur (*şəkil 4.7*).

Turbokompressor iki turbomaşın, bir valda yerləşən bir radial turbindən və bir mərkəzdənqaçma kompressorundan ibarətdir. Turbinin çarxları kompressor rotorunu hərəkətə gətirmək üçün işlənmiş qaz enerjisindən istifadə edir. Mühərriyin işi üçün lazım olan qaz-hava qarışığı kompressorun rotoruna sorucu borudan daxil olur. Kompressorun rotorunun köməkliyi ilə qaz – hava qarışığı əvvəlcədən sıxılmış halda diffuzor və basqı borusundan keçərək kompressorun karterindən qrışdırıcı boru xəttinə vurulur [41].

Qeyd edək ki, əvvvəlki paraqrafda qeyd olunan dizel elektrik stansiyalarının malik olduğu üstünlükləri, həmçinin QPQ-yə də şamil olunur. Yəni, QPQ-lər təsərrüfatın istənilən sahəsində istifadə oluna bilən daha universal elektrik stansiyaları hesab olunur. Bu baxımdan belə stansiyalar istehsal olunan digər enerji mənbələri ilə müqayisədə daha geniş tətbiq olunmuşdur.

Qaz-Porşen Elektrik Stansiyaları (QPES) kiçik və orta energetika kateqoriyasına aiddir. Aqreqatlarının gücü 0,1-dən 10-MVt-dək olan çoxlu miqdarda stasionar və mobil elektrik stansiyaları mövcuddur. Belə qurğular ümumi gücü 300 MVt olan İstilik Elektrik Stansiyaları formalaşdırmağa qadirdir. Bu gücdə stansiya Azərbaycan enerjisisteminin tərkibində fəaliyyət göstərir (dünyada qoyuluş gücünə görə ən böyük QPES hesab olunur).

QPES-in iş prinsipi daxili yanma mühərriyinin təbiqinə əsaslanmışdır – yanacaq qismində təbii qaz, bioqaz və ya digər



Şək. 4.7. Qaz-trubin üfürmə konturunun sxemi:1 - məcburi vurulan hava; 2 - hava filtri; 3 – təmizlənmiş hava; 4 - qaz-hava qarışdırıcı; 5 - qaz; 6 - kompressora qarışıq;7- kompressorun çarxı; 8 - kompressordan qarışıq soyuducuya qədər; 9 - qarışıq soyuducu; 10 - soyudulmuş qarışıq; 11 - giriş qapağı; 12 - çıxış klapan; 13 – işlənmiş çıxan qaz turbininə; 14 - turbin çarxları; 15 – səsboğucu

istənilən yanar qaz ola bilər. Yanacağın kamerada yanması nəticəsində ayrılan istilik enerjisi qaz-porşen mühərriyinə daxil olur. Sonra bu enerji elektrik enerjisi hasil edən geenratora daxil olur.

Beləliklə, iş prosesində qaz – porşen qurğusu iki növ enerji – istilik və elektrik istehsal edir. Bu prinsip kogenerasiya adlanır. Sxematik olaraq *şəkil 4.8*. verilmişdir.

Şək. 4.8. Kogenerasiyanın ənənəvi enerji istehsalşıları ilə müqayisəsi.

Eyni zamanda, qeyd etmək lazımdır ki, istilik enerjisinə olan tələbat bir qayda olaraq mövsümü xarakter daşıdığına görə, bütün fəsillərdə QPQ-nın faydalı iş əmsalının 85 – 90% səfiyyəsində istismarına nail olunması məqsədilə, müasir dövrdə elektrik, istilik enerjisinə əlavə olaraq "soyuq" enerji istehsalı dövrəsi əlavə edilən qurğular geniş tətbiq olunmağa başlamışdır. Belə stansiyalar – *trigenerasiya adlandırılır.*

Hal-hazırda bu tip enerji qurğuları kiçik şəhərlərdə, rayon mərkəzlərində və sənaye müəssisələrində kiçik İES-ın yaradılmasında geniş tətbiq olunur. Bu qurğuların kompakt

olmasını, texnologiyasının kifayət qədər sadə olmasını, personal və ətraf mühit üçün təhlükəsiz olmasını nəzərə alaraq, qaz-porşen və qaz-turbin aqreqatlı istilik elektrik stansiyaları həm böyük, həm də kiçik şəhərlər üçün əsas enerji mənbəyi rolunu oynaya bilər. Zavod istehsalının komplektləşməyə yaxın olması hesabına bu qurğular qısa zamanda (3-5 ay ərzində) quraşdırma və işə salınma imkanına malikdir. Belə ki, bunun üçün nə dəmir yoluna, nə yüksək tüstü borularına, nə mürəkkəb kimyəvi su təmizləyicilərinə, nə soyuduculara, nə su hövzələrinə, nə də ki, buxar-turbinli İES-ın fəaliyyəti üçün zəruri olan digər bahalı qurğulara ehtiyac olmur. Belə stansiyaların tam avtomatlaşdırılması və onların az miqdarda şəxsi heyətlə idarə olunması mümkündür.

Belə istilik elektrik stansiyalarında daha bir vacib müsbət cəhət ondan ibarətdir ki, bu tip stansiyanın güc aqreqatları istənilən maye və ya qaz yanacağında işləməyə qadirdir. Bu xüsusiyyət təbii qazın olmadığı, eləcə də neft yanacaqların çatdırılmasının çətin olduğu lakin digər enerji daşıyıcıların – bioloji resursların (heyvandarlıq və quşçuluq tullantıları), meşə təsərrüfatı və ağac emalı tullantıları, odun, kol, qamış və s. bol olduğu bölgələr üçün əvəzolunmazdır. Belə olan hallarda stansiyanın əsas avadanlığına əlavə olaraq süni yanacağın alınması üçün texnoloji prosesin yaradılması zərurəti meydana gəlir. Bunlara aşağıdakılar daxildir: bitki yağları (günəbaxan, raps, gənəgərçək, kətan və s.), texniki spirtlər (metil və etil), metan, karbon turşusu, hidrogen və s. Texnologiyanın tərkibinə aşağıdakı aqreqatlar daxil ola bilər:

- Bioreaktorlar- bu aqreqatlarda parçalanmış biokütlədən qıcqırdılma yolu ilə sutka ərzində kaloriliyi (istilik törətmə qabiliyyəti) 4-4,5 min kkal/m^3 olan metan qazı əldə olunur;
- Quru odun emalı üçün qaz generatoru - burada odunun havasız şəraitdə 450 ^{0}C-dək qızdırılaraq parçalanmasına nail olunur;

- Biokütlə və odun emalı yolu ilə yandırılmaq üçün yararlı olan texniki spirtlərin alınması üzrə hidroliz qurğuları.

Növbəti onilliklərdə energetikada istiafdə olunan təbii qaz və neft məhsullarının həcmi kəskin şəkildə azalma şəraitində bioreaktorlar, hidroliz qurğuları və qaz generatorları energetik və məişət yanacağının alınması üçün əsas mənbə rolunun oynamsı proqnozlaşdırılır.

Şək. 4.9-də fərdi yanacaq bazası olan mikroturbin qurğusunun prinsipial sxemi verilmişdir. Mikroturbinli kogenerasiya qurğusunun TA-100 RCHP numunəsində iş prinsipini nəzərdən keşirək.

Təmizlənmiş atmosfer havası kompressor girişinə (3) hava qəbuledici (4) vasitəsilə daxil olur. Kompressorda hava sıxılma nəticəsində qızdırılır, sonradan hava əlavə olaraq xüsusi bir qaz-hava istilik çevricisində (10) – rekuperatorda da qızdırılır. Belə yanaşma qurğunun elektrik səmərəliliyini təqribən iki dəfə artırmağa imkan verir. Sonra, yanma kamerasına (6) daxil olmadan əvvəl qızdırılmış və sıxılmış hava, təbi qaz yanacağı (9) ilə qarışdırılır, buradan homogen qaz-hava qarışığı yanma kamerasına daxil olur. Əvvəlcədən hava-qaz qarışığının hazırlanmasını, tullantı qazların emissiyasının səviyyəsini 100% elektrik yükündə, 15 % O_2 səviyyəsində 9 ppm, 50 % -dən aşağı yüklərdə isə demək olar ki, sıfıra endirmək mümkündür. Yanma kamerasını tərk edərək, çıxış qazları turbinin pərlərinə (7) daxil olur, burada genişlənir iş görərək turbini hərəkətə gətirir, eyni valda olan kompressor çarxını (3) və yüksək sürətli generatoru (2) da hərəkətə gətirir. Turbini (7) qaz borusu (8) vasitəsilə tərk edərək, işlənmiş qazlar rekuperatora (10) daxil olur, burada istiliyini kompressordan sonrakı havaya verir. Rekuperatorun çıxışında (10), işlənmiş qazlar keçid borusunu yönəldən bir baypas qaz çıxış xəttinə (14) və ya birbaşa utlizasiya qazanına (12) verilir. Utilizasiya qazanında, işlənmiş qazlar istiliyini bəsləyici suya verir, orada tələb olunan istiliyə qədər qızdırılır.

Turbinin konstruksiyasında sürət qutusu (reduktor) yoxdur. Rotorun sürəti praktik olaraq yükdən asılıdır və təxminən 69.000 ilə 96.000 dovr/dəq arasında dəyişir. İstehsal olunan yüksək tezlikli gərginlik ikiqat çevrilməyə məruz qalır: yüksək tezlikli dəyişən cərəyandan sabitə, sonra isə 50 və ya 60 Hz tezliyi olan 380, 400 və ya 480 V gərginlikli dəyişən cərəyana çevrilir. Çevirmənin prinsipal sxemi, kəsilməz enerji təchizatında (UPS) istifadə edilən sxemlərə anolojidir. Bu, çıxış üçfazlı gərginliyin düzgün sinusiodal formasında olmasını təmin edir.



Şək.4.9. Mikroturbin qurğusunun funksional sxemi (mənbə: TA-100RCHP -Calnetix Power Solutions şirkəti)

Fərdi yanacaq bazası olan stansıyalarda (yəni təbii qaz və neft məhsullarından istifadə olunmadan) enerji qurğusunun qiyməti ənənəvi stansiyalarla rəqabət apara biləcək səviyyədədir. Bundan əlavə tullantılardan alınan məhsulların (odun külü, biokübrə, odun kömürü, məişət qazı və s.) realizə edilməsi də enerji istehsalının maya dəyərini azaldır.

FƏSİL V

QEYRİ - ƏNƏNƏVİ (BƏRPAOLUNAN) ENERJİ MƏNBƏLƏRİ

GİRİŞ

Üzvi yanacaq eytiyatlatlarının getdikcə tükənməsi və dünyada ekoloji vəziyyətin pisləşməsi ilə qeyri-ənənəvi energetika sahəsinin əhəmiyyəti daha da artırmışdır. Aparıcı ekspertlərin qiymətlənləndirilmələrinə görə ənənəvi enerji mənbələrinin yaratdığı ekoloji fəlakətlər, əvvəllər qeyd olunduğu kimi bu 100 illər sonra deyil, artıq 40-50 ildən sonra özünü ciddi şəkildə biruzə verəcəkdir. Hətta demək olar ki, bu, praktiki olaraq dünyanın bir çox yerlərində artıq bu gün də baş verir. Lakin, bu proses özünü fluktasiya və qeyri-müntəzəm şəkildə göstərir. Təəssüf ki, dünya əhalisinin çox hissəsini yaxınlaşmaqda olan energetik problemlər və bu problemlərdən irəli gələn ekoloji fəlakətlər düşündürmür. Doğrudur, son illər keçən XX əsrdə yerin altında yerləşən enerji resurslarının – kömürün, neftin, qazın yarısından çoxunun çıxardılaraq yandırılmasının nəticələri ilə bağlı insanlar arasında müəyyən həyəcan hiss olunur. Yaranmış vəziyyət energetikləri və siyasətçiləri ənənəvi enerjiyə alternativ energetikanın və enerji resurlarının qənaəti yollarının axtarışına vadar etmişdir. Bunun nəticəsidir ki, 2015-ci ildə ekoloji fəlakətin qarşının alınması məqsədilə Parisdə təşkil olunmuş konfransda qəbul olunmuş Saziş 197 ölkə tərəfindən imzalanmışdır. Bir sözlə, son yüz ildə bəşəriyyətin surətli inkişafına təkan verən, elektrik enerjisinin ənənəvi növlərinin inkişafı bərpaolunan enerji mənbələri əsaslı stansiyalara nisbətən geridə qalır.

5.1. HİDROELEKTRİK STANSİYALARI

5.1.1. Sudan istifadənin tarixi

Hər zaman su insanların həyatını və məhsuldar qüvvələrin inkişafını təyin edən ən vacib amil olmuşdur (*şəkil 5.1*).

Sudan istfadə ilə bağlı qədim və müasir insanlar qarşısında duran hədəfi müqayisə etsək, görərik ki, əsrlər keçsə də onlar dəyişməyib. Hədəfləri növbəti ümumi formada ifadə edə bilərik: su obyektlərinin mənimsənilməsi və tənzimlənməsi. Ancaq bu ümumi məqsəd çərçivəsində görülən vəzifələr çox genişlənmişdi. Minilliklər boyu əkinçilik üçün su ehtiyacları, yaşayış məntəqələrinin su təchizatı, daşqından qorunma və su obyektlərinin nəqliyyat məqsədləri üçün istifadəsi ilə yanaşı bir çox başqa vəzifələr ortaya çıxmışdır. Məsələn, sənaye su təchizatı, istilik enerjisi, istirahət, çirkab sularının təmizlənməsi, balıqçılıq, meyvəçilik, sualtı mədən və s.

Sivilizasiyanın inkişafı, yeni fəaliyyət sahələrinin yaranması ilə insanların getdikcə daha çox suya ehtiyacı olmuşdur. Sivilizasiyanın inkişafı adambaşına istehlak edilən suyun həcmi ilə ölçülə bilər. İndi dünyanın ən inkişaf etmiş ölkəsində - ABŞ-da adambaşına gündə təxminən 7000 litr su istehlak olunur, bəzi inkişaf etməkdə olan ölkələrdə isə bu göstərici 30 litrdən çox deyil, yəni 200 dəfə azdır. Daş dövrü adamı, yəqin ki, gündə 10 litrdən az su istehlak edirdi. Lakin, qədim Roma dövlətinin intibah dövründə bir adam gündə 700 litrə qədər su istehlak etmişdir, yəni bir sıra inkişaf etməkdə olan ölkələrin və Roma sakinlərinin Orta əsrlərdə istehlak etdiklərindən çox. İmperator Trayan hakimiyyəti dövründə (98-117 il), 1 milyon Roma əhalisinin hər sakini gündə 1000 litrə qədər su istifadə edirdi (1968-ci ildə cəmi 475 litr olmuşdu). Buna görə, suyun istehlak səviyyəsi ilə, sivilizasiyaların,

ölkələrin və şəhərlərin yüksəlişini və tənəzzülünü qiymətləndirmək olar.

Şək. 5.1. Şəlalələr su enerjisinin gücünü təcəssüm etdirir.

Arxeoloji tapıntılar və qədim yazı mənbələri antik dövrdə suvarma və hidravlik qurğuların geniş yayılması haqqında təsəvvür yaradır. Misirdə, Hidistanda, Mesopotamiyada 7-8 min il əvvəl daşqından yaşayış məntəqələrinin qorunması üçün bəndlər inşa olunmuşdur. Təqribən 6 min il əvvəl Çindəki Sarı çay vadisində süni suvarma sahələri ilə əhatə olunmuş ilk şəhərlər meydana çıxmışdı. 5-6 min il əvvəl Şumer və Akkad dövlətlərində Dəclə və Fərat çaylarının tənzimlənməsi işləri aparılmış, böyük kanallar inşa edilmiş, bunlar təkcə suvarma üçün deyil, həm də yaşayış məntəqələrini su təchizatı və nəqliyyat sistemləri üçün istifadə edilmişdir. Bu işlərə su istifadəsini tənzimləyən qanunların yaranmasını zəruri etmişdir.

3500 il əvvəl tərtib edilmiş Assuriya qanunlar məcəlləsinin maddələrinin birində deyilirdi: "Hər kəs öz sahəsində iş görsün və sahələrini suvarsın" [42,43].

Qeyd etmək yerinə düşər ki, Dünyada ən qədim su tikilisi Misirdə firon Menes (təxminən e.ə. 3000) tərəfindən inşa edilən 15 metr hündürlükdə olan Koşiş bəndidir. Digər, Misirdəki Sad Əl - Kafar bəndi təqribən 4,600 il əvvəl inşa edilmişdir. Maraqlıdır ki, bu anbar suvarma üçün nəzərdə tutulmamışdı. Alimlərin fikrincə, tökmə üsulu ilə yaradılan su anbarı yerli mərmər karxanasına xidmət etmişdir [43].

Eramızın son minilliyi hidrotexnika sahəsinin çiçəklənmə dövrü hesab olunur. Bu dövrdə bir çox hidrotexnikı qurğuların qalıqları müasir dövrümüzə qədər gəlib çıxmışdır. Su ilə əlaqəli bir sıra ixtiralar,su dəyirmanlarının istifadə olunmağa başlanması bu dövrə aid edilir.İlk belə dəyirmanlar Urartu əyalətində olmuşdur. Urartu dəyirmanının daşlarından biri Tiflis muzeyində saxlanılır. Böyük bir suvarma sistemlərinin mövcud olduğu qədim Yunanıstanda istifadə olunan bir qollu su qaldırma çarxı və Arximed vintindən istifadə edilərək, kran tipli su qaldıran bir quruluş həmin dövrdə meydana çıxmışdır.

Süni suvarma və yaşayış məntəqələrinin su təchizatı ümumiyyətlə vahid sistem olaraq baxılırdı. Lakin, şəhərlərin və şəhər əhalisinin artması ilə yaşayış məntəqələri üçün ayrıca su təchizatı sistemlərinin qurulmasına ehtiyac yaranmışdır. Bu, adambaşına su istehlakı artımında ikinci sıçrayış olmuşdu. Su təchizatı sistemləri daxili ehtiyacları, habelə əl işləri istehsalı kimi digər məişət ehtiyaclarını ödəmək üçün istifadə edilmişdir. Məşhur əfsanəvi Babil Kraliçasının sifarişi ilə qurulan Assuryadakı Ekbağan su kəməri çox yaxşı məlumdur. Əhalisi 200 min nəfərə çatan Afina, 8 su borusuna sahib idi. Romada ilk su təchizatı miladdan əvvəl 313-cü ildə qurulmuşdur. Eramızın əvvəlində 9 su borusu bir sakinə 88 vedrəyə qədər su verirdi, bu gündə təxminən 700 litr edirdi. XIX əsrin sonlarında gündə adam başına 12,5 vedrə su istehlakı ideal hesab olunurdu, bir

nəfərin orta hesabla istehlakı gündə 5.5-6.75 vedrə, yəni təqribən 40-50 litr olduğu güman edilirdi. Romalıların hidravlik qurğuların tikintisində böyük uğurları, onlar tərəfindən betonun və keramik su borularının kəşfindən sonra mümkün oldu.

Praktiki problemlərin yaranması və onları həll etmək cəhdləri ilə bərabər hidrologiya elmi ortaya çıxdı - Amerikalı hidroloq Raymond Neissin fikrincə, bu elmin yaşı 5000-dir. Əvvəlcə bu, sadəcə suvarma işlərinin toplanmış təcrübəsi idi. Məhz 5000 il əvvəl, Misirlilər hər il daşqının maksimum hündürlüyünü Nil üzərindəki daşlara, quruluş divarlarına, sahil pilləkənlərinə qeyd etməyə, sonra isə çayla birbaşa əlaqəli xüsusi quyular yaratmağa başladılar. Gələcək məhsul sel sularının hündürlüyü ilə qiymətləndirilməyə başlanıldı.

Eyni zamanda, hidravlikanın əsasları yarandı - tarazlıq və suyun hərəkəti qanunları. Arximed qanununu xatırlayaq? Su, vaxtı ölçmək üçün istifadə edilməyə başladı - su saatı olan klepsidra ("klepsydra" yunan dilində, "su saatı" kimi tərcümə olunur) icad edildi. İsgəndəriyyədən olan məşhur Ctesibiya çox mürəkkəb su mexanizmləri yaratmağı nail oldu (*şəkil 5.2*).

4-cü əsrdə Romanın süqutundan sonra Avropada orta əsr durğunluq və tənəzzül dövrü başlandı, Yunan və Roma mədəniyyətinin bir çox uğurları unuduldu və Vitruviyanın əsəri yalnız 1500 ildən sonra oxundu və şərh edildi. Bir çox Avropa ölkələrindəki suvarma sistemləri çökdü, su təchizatı sistemləri məhv edildi. Çirklənmiş su, çirkli orta əsr şəhərlərində kəndlərə yayıldıqları yerlərdə dağıdıcı epidemiyalara səbəb oldu. Bütün şəhərlər və ərazilər yox oldu. Və o dövrdə hələ kəşf olunmamış Amerika qitəsində Asteklər öz hidrotexniki qurğularını qurdular, şəhərlərin su təminatını məharətlə təşkil etdilər, daşqınlardan qorudular.

Şək. 5.2. Klepsidra – Ktesibiya (mənbə:SiteKid.ru)

5.1.2. Su çarxı və onun təkamülü

İlk hidravlik qurğular insanın onu əhatə edən təbiətlə qarşılıqlı əlaqəsinin ilkin formalarını əks etdirirdi. Suqaldırıcı qurğular ilkin su mühərriklərinin sadə bir forması idi. İlk su çarxları eramızdan əvvəl üçüncü minillikdə istifadə edilməyə başlanılmışdır. Misir, Çin, Hindistan və digər ölkələrdə onların istifadəsi haqqında məlumatlar Strabonun "Coğrafiyası" (e.ə. 63 - e.ə. 24), on yeddi kitabda, Vitruviyanın "Memarlıq mövzusunda on kitab" (e.ə. I əsrin ikinci yarısı) əsərində verilir. Su çarxının ən qədim kostruksiyaslnda su çarxı, onun aşağı hissəsinə təsir etməklə hərəkətə gətrilirdi (*şəkil 5.3*) [42].

Qədim yunanlar başa düşürdülər ki, fırlanan su çarxları yalnız qaldırma funksiyasına malik deyil, o, eyni zamanda oxu hər hansı bir mexanizmə bağlıdırsa, digər faydalı işləri də yerinə yetirə bilər. Qədim Yunanıstanda və Romada dəyirman daşlarını döndərmək üçün su çarxları artıq istifadə olunmağa başlanılımışdı.



Şek. 5.3. Çin su çarxı (mənbə: Sun İnsina ensklopediyası – "Tyan qun kayu")

Qədim Romada artıq II əsrdə su dəyirmanları demək olar ki, hər yerlədə tətbiq olunurdu, onların köməyi ilə daha çox işlər görülürdü. Su çarxları həm yağları çıxarmaq, həm də meyvələri sıxmaq üçün istifadə olunurdu.

Min illik tarixi olan Bende Emirinin (İran) inteqrasiya edilmiş su anbarı hələ də fəaliyyətdədir [44].

Hidrogüc qurğularının sayının artması, toplanan təcürbə, əsası isə çaylarda davamlı böyük su axınlarının olmaması su energetik resurslardan daha səmərəli istifadəni şərtləndirirdi. Su bəndlərinin və derivasiya kanalarının tikintisi hidroresursların daha effektik istifadə olunmasına imkanlar yaratdı. Fransada, III - IV əsrlərdə inşa edilmiş Arles yaxınlığındakı 16 su dəyirmanının kaskad qalıqları qorunub saxlanılmışdır. Su dəyirmanları burada XI -XIV əsrlərdə geniş istifadə olunurdu. İngiltərədə VIII əsrdə bir su dəyirmanı meydana gəldi və 1086-cı ildə Trent və Severndə 5624 dəyirman qeydə alınmışdır.

Su çarxlarını hərəkətə gətirmək üçün həm də suyun qabarma qüvvəsindən də istifadə edildi. Qabarma dəyirmanları XI əsrdə Adriatik sahillərində, eləcə də İngiltərə və Fransada meydana gəldi. Belə ki, İngiltərədə Deben çayının ağzında hələ də dəyirman mövcuddur.Bu barədə ilkin qeydlərə 1170-ci ildə Woodbridge Parishinin yazılarında rast gəlmək olar.

Orta əsrlərdə su enerjisi istehsalın bütün növlərində əsas enerji mənbəyinə çevrilirdi.

Artıq XII əsrin sonlarında Nürnberqdə yun dəyirmanları geniş yayılmışdı, içərisində metal barmaqları olan yun çubuğunu qaldırmaq üçün su çarxı ilə hərəkətə gətirilən vasitədən istifadə edilirdi. 1351-ci ildəki ixtira dəmir məftil istehsalı üçün ilk su dəyirmanına aid idi. 1245-ci ildə Villars de Onnekur'un əlyazmasında su çarxı ilə idarə olunan ilk mişar təsvir edilmişdir.

1553-cü ildə, `su axınının aşağı hissəsində insanlar tamamilə yeni bir "möcüzə" kimi görünən "Svaz maşın"ı qarşılaşdılar (maşının adı quraşdırıldığı yerin adı ilə bağlı idi - Avstriyanın Alp dağlarında, Tiroldakı Schwaz mədəninin adı ilə adlandırılmışdır). Su çarxı iki sıra pərdən ibarət nəhəng bir qurğu idi (*Şəkil 5.4*). Pərlər bir-birinin əksinə yerləşdirilmişdir. Bu isə çarxın həm irəli, həm də geriyə dönməsinə imkan veriridi. O, valın üstündə, qayada kəsilmiş bir girintidə yerləşdirilmişdir. Qaya və qazıntıları yuxarı qaldıran nəhəng taxta çəlləklərin tutumu 1400 litr olan hər biri iki öküz dərisindən tikilmiş iki kəmərlə hərəkətə gətrilirdi. 1610-cu ildə ikinci bir su qaldırma maşını işə salındı. 1650-ci ildə Şvaçda su çarxının eninə diametri 11 metr olan yeni bir su qaldırma maşını quraşdırıldı. 1740-cı ilə qədər məhsuldarlığı gündə 13 min kubmetrə çatdırıldı.

250 ilərzində Londonda su təchizatı 1583-cü ildə Alman mühəndis Piter Moris tərəfindən inşa edilən qabarma dəyirmanı vasitəsilə həyata keçirilmişdir. 1685-ci ildə Fransada Sena çayının üzərində Versal sarayının və kral parkının fəvvarələrinin qidalanması üçün diametri 12 metr olan 14 su

çarxı quruldu. Bu qurğular sutka ərzində 3000 kubmetr suyu 162 metrə qədər qaldırmağa imkan verirdi.



XVIII əsrin birinci yarısında. nəhəng su çarxları quruldu. Şotlandiyada Greenockda çayın ağzında diametri 21 m-dən çox və eni təxminən 4 m olan bir dəmir su çarxı istifadəyə verildi.

Tədricən, su çarxının quruluşu təkmilləşdirilir və suyun enerjisini mexaniki enerjiyə, məsələn, fırlanan hidravlik mühərriyə çevirilərək fabriklərdə əsas istifadə olunan avadanlığa çevrilirdi.

Şək. 5.4. Şvaç maşını [45]

Elm araşdırmalar, əyri bıçaqların düz olanlardan daha effektlii olduğunu göstərdi, çünki səmərəliliyi artıran, suyun zərbəsiz qurğunun girişinə verilməsi; əyri pərləri olan metal su çarxları geniş istifadəsinə başlanıldı.

XVII - XIX əsrlərdə sənaye inqilabı dövründə, Qərbi Avropanın sənaye bölgələrində, eləcə də Rusiyada su təchizatı, su nəqliyyatı üçün çox sayda su anbarı tikilir və su enerjisindən istifadə edilərək mexaniki enerjiyə artan tələbləri ödəyirdilər. Su çarxları fabriklərdə, mədənlərdə, sürücülük nasoslarında,

çəkicdə, üfürücü körüklərdə, arabalarda, filiz qaldırıcıda və digər mexanizmlərdə istehsalın bütün növlərində geniş istifadə olunur, şəhərləri su ilə təmin edirdi.

Su çarxları suyun axınına nəzərən bir neçə vəziyyətdə qurulurdu: aşağıbasqılı – böyük su surətinə malik çaylarda, ortabasqılı və yuxarıbasqılı qurğular daha yüksək FİƏ-nin əldə olunmasına (75%) şərait yaratdı (*Şəkil 5.5*) [46]. Tətbiq olunan çarxlar yavaş sürətli(dəqiqədə 4-10 dövrə qədər) və əsasən kiçik güclü (20 at gücünə qədər) idi.



Şək. 5.5. Su çarxları: a - aşağıbsqılı; b – ortabasqılı; v – yuxarıbasqılı, q – topa tipli [46].

Tədricən, yuxarıbasqılı daha məhsuldar çarxlara keçirildi, vallar və digər hissələr üçün metal istifadə olunmağa başlandı, hidravlik mühərriyin gücünü artırmaq üçün çarxın diametri artırıldı.

Rusiyada XVI əsrdə şaquli vallı və daha yüksək sürətlə fırlanan çarxlar (aktiv hidravlik turbinin prototipi) - "topa dəyirman"ı (*Şəkil 5.5.q*) geniş yayılmışdı.

İngiltərədə Maine adlı yerdə daha böyük diametrli bir təkər quruldu. 18-ci əsrin ortalarında su çarxları hər yerə yayılmışdır.

Estoniyada, çayda Krengol istehsal edən bir su elektrik stansiyası tikildi. 1890-cı ildə ümumi gücü 6 MVt olan Narova su elektrik stansiyası dünyada ən böyük idi.

XVII - XVIII əsrlərdə yalnız su çarxı inkişaf etməkdə olan sənayenin daim artan enerji tələbatını təmin edə bilərdi. Su mühərrikləri daha güclü və təkmil oldu, səmərəliliyi 60-70% -ə çatdı. Bununla birlikdə, bütün istehsal sahələrini çayın yaxınlığında yerləşdirmək mümkün deyildi, su çarxları işləyərkən il ərzində çay axınının dəyişkənliyi səbəbindən çətinliklər yaradırdı. Aşağı surətlə hərəkət edən su çarxları qurğuların fırlanma sürətini artırmaq üçün kifayət qədər mürəkkəb dişlər tələb edirdi.

Buxar mühərriyinin ixtirası və XVIII əsrin sonlarından etibarən zəfər çalması XIX əsrin su çarxlarının istifadəsini əhəmiyyətli dərəcədə məhddulaşdırdı. Su çarxlarının hidravlik turbin şəklində yeni bir əsasda qayıdışı XX əsrdə, elektroenergetika dövrünün başladığı və su dəyirmanını su elektrik stansiyasının əvəz etdiyi dövrdə baş verdi.

5.1.3. Hidroturbinlərin inkişaf mərhələsi

Qədim yunan mütəfəkkiri Aristotelin (e.ə. 384-322), böyük riyaziyyatçı və mexanik Arximedin (e.ə. 287-212) əsərlərində əks olunan su enerjisindən istifadə qanunları elm adamları və filosoflar üçün maraqlı idi.

Arximed bütün dövrlərin ən parlaq elm adamlarından biri olmuşdur. Gözəl riyaziyyatçı, görkəmli mühəndis və riyazi fizikanın atası idi. Arximed dövrünün elmindən o qədər irəlidə idi ki, həqiqətən onun bəzi əsərləri Avropada yalnız 18 əsrdən sonra başa düşüldü, burada yeni riyaziyyatın yaradıcıları, sonsuz kiçik təhlili onun riyazi əsərləri üzərində tədqiq edirdi. Təəssüf ki, onun yazılarından, ixtiralarından və cihazlarından yalnız bir qismi bizə çatmışdır. Onlardan “Top və silindr haqqında”, “İki müstəvinin tarazlığı haqqında”, “Dairənin ölçülməsi haqqında”,

“spirallar haqqında”, “Parabolanın kvadratı haqqında” və s. qeyd etmək olar. Arximed qüvvənin mexaniki momenti anlayışının tərifini verdi. Arximedin cazibə mərkəzi haqqındakı təlimləri bu gün də aktualdır və texnologiyanın müxtəlif sahələrində - mühəndislik, gəmiqayırma, aeronavtika, memarlıqda istifadə olunur.

Arximed statika və hidrostatikanın əsaslarını inkişaf etdirdi, xüsusi çəki anlayışınının tərifini verdi. Onun mayenin itələyici qüvvəsinə dair məşhur qanunu “Üzən cisimlər haqqında” xüsusi bir yazıda izah edilmişdir.

Arximed qanununun özü belə bir şəkildə tərtib edilmişdir: "Sudan yüngül cism maye içərisinə batırıldıqda, o suya o qədər batır ki, cismin suya batan hissəsinə uyğun olan mayenin həcmi bütün cismin çəkisinə bərabər çəkiyə malik olsun." Bu qanunun ixtirası, hazırlanan gəminin daşıma qabiliyyətini təyin etməyə imkan verdi. Bunun üçün yalnız müəyyən dərinliyə batırılan gəminin sıxışdırıb çıxartdığı suyun həcmini hesablamaq lazımdır. Gəminin özünün çəkisini sıxışdırılıb çıxarılan suyun çəkisindən çıxmaqla,daşına bilən yükün çəkisini təyin etmək olar. Lakin bunun dayanıqlığını hələ təyin etməlisiniz. Bunu dərk edən Arximed, üzən cisimlərin tarazlığının dayanıqlığından asılı olan şərtləri nəzərdən keçirdi. Bu qanun gəmilərin elmi layihəsinin əsasını təşkil etdi.

Arximed sözün geniş mənasında ilk mühəndislərdən biri kimi, suyun qaldırılması üçün "Arximed vinti" adlandırılan maşın icad etdi (*şəkil 5.6*). Ağırlıqları qaldırmaq üçün ilk dəfə Arximed qolları və blokları istifadə etməyə başladı.

Arximed bir neçə praktik ixtiraların müəllifi idi. Onlardan bəziləri bizə yaxşı məlumdur. Məsələn, onun bir vint ideyası indi nasoslarda, vintlərdə və sadə ət dəyirmanlarında istifadə olunur. Arximed vintindən antik dövrdə istifadə edilmişdir? Bu sualın cavabı qədim yunan səyyahı, tarixçi və coğrafiyaşünas Strabonun əsərlərindən birində tapılır (e.ə. 63 - e.ə. 24).

O, 25-ci ildə Hindistana yol axtaran bir ekspedisiya tərkibində Misirə səfər etdi. Onun yazılarında suyun Nildən hərbi istehkama necə verildiyi təsvir olunur. Bu qurğuda 50 qul tərəfindən əl ilə fırlanan Arximed taxta vintləri quraşdırılmışdır və su yüksəklikdə qazılmış başqa bir kanala verilirdi.



Şek. 5.6. Arximed və "Arximed vinti"

Sənaye inkişafı, XV - XVI əsrlərdə yeni praktik biliklərin toplanması intibah dövründə insan düşüncəsinin yüksəliş və enişlərinə səbəb oldu. Bu dövrdə müasir elmin əsasları qoyuldu. Su mühərriklərinin təkmilləşdirilməsində və hidravlik turbinlərin yaradılmasında ən vacib rolu hidravlika və hidravlik mühərriklər nəzəriyyəsi sahəsində elmi tədqiqatlar oynadı.

Hidravlika, hidravlik mühəndislik və hidravlik mühərriklərin inkişafına misilsiz töhfə, parlaq italyan rəssamı, alimi və mühəndisi, intibah dövrünün sənət və elmin ən görkəmli nümayəndələrindən biri olan Leonardo da Vinçi (1452–1519) olmuşdur. O kəsilməzliyin hidrodinamik prinsipini ifadə etdi, birləşmiş qablarda mayenin tarazlığını təsvir etdi və hidrostatikanın əsas qanununun - Paskal qanununun kəşfinə

yaxınlaşdı. Leonardo da Vinçi hidravlika və hidravlik maşınlar üzərində tədqiqatlarını su boruları, kanallar, suyun özü və su ilə idarə olunan maşınlar da daxil olmaqla bir sıra kitablardan ibarət su haqqında bir risalədə ümumiləşdirmək niyyətində idi. Onun əlyazmalarında bir çox qeyd, eskiz (*şəkil 5.7*) və bu işin tamamlanmadığı mücərrəd bölmələri var. Leonardo da Vinci, nəzəriyyə olmadan təcrübənin mümkün olmadığına inanırdı:



Şəkil 5.7. Hidravlik maşınların təsvirləri (Leonardo da Vinçi. Milan)

"Elm olmadan təcrübəyə aşiq olmaq - bir rul və ya kompas olmadan gəmiyə addımlayan adam kimi; o, hara getdiyini heç bilmir ".

XVI əsrdə "Pirotexnika" kitabı Siena metallurgiya zavodunun rəhbəri Vannoccio Biringuccio tərəfindən nəşr

olundu və bu kitabda olduqca böyük su çarxı təsvir edildi: "Bəziləri suyun yerləşdiyi yerdən və miqdarından asılı olaraq diametri 6, 7, 8 m^3 olan çəlləkli çarxlardan istifadə edir."

Məhz bu illərdə su çarxları, havavuran və müxtəlif dəyirmanları təsvir edən texnologiya üzərində işlərin nəşrinə başlanıldı. 1556-cı ildə ən böyük alman alimi Georg Aqrikolının (1494-1555) 12 kitabdan ibarət "Mədən və metallurgiya haqqında" adlı monoqrafiyası ortaya çıxdı.

Əsərlər xüsusi olaraq su çarxlarına həsr olunurdu. 1737-ci ildə Fransız mühəndisləri çarxların istifadəsini yox, həm də nəzəriyyələrinin, hesablama metodlarının və layihəsinin elementlərini araşdırırdı. İngilis mühəndis Smiton su təkərlərinin modelləri ilə təcrübələr aparır və bir sıra yeni həllər təklif edirdi.

Daniel Bernulli (1700 - 1782)

leonard Eyler (1707 – 1783)

1738-ci ildə "Hidrodinamika" adlı klassik əsərini nəşr etdirən İsveçrə alimləri D. Bernulli və 18-ci əsrin ortalarında çıxış edən L. Eyler hidravlik turbinlər nəzəriyyəsi ilə əlaqədar

vacib tədqiqatlar, maye hərəkətinin əsas tənliklərini çıxartdı, istiqamətləndirici aparat ideyasını dilə gətirdi və əsaslandırdı.İlk reaktiv hidravlik turbinin istiqamətləndirici aparatı ilə layihəsini təklif edərək, hidravlik turbinlərin yaradılması üçün nəzəri əsasların inkişafına böyük töhfələr verdilər.

İlk hidravlik turbin 1750-ci ildə macar alimi J. Segner tərəfindən inşa edilmişdir. XIX əsrin birinci yarısında artıq praktik hidravlik turbinlər istehsalı gündəlikdə idi. Belə ki, 1827-ci ildə fransız mühəndisi B. Furneyron 1834-cü ildə istehsalatda istifadə olunan radial mərkəzdənqaçma reaktiv turbin quraşdırdı. Bir çox ölkələrin mühəndis və alimlərinin birgə səylərinin nəticəsi ilk praktik hidravlik turbinin yaradılması oldu.

1837–1841-ci illərdə Fransız mühəndis Jonval və Alman mühəndis Hentel demək olar ki, eyni vaxtda aksial reaktiv turbin hazırladılar, 1849-cu ildə Amerika mühəndisi D. Frensisin radial-aksial reaktiv turbini meydana çıxdı, 1880-ci ildə Peltonun çəlləkli aktiv turbini, 1912-ci ildə isə V. Kaplanın dönər – pərli reaktiv turbini yaradıldı. Bu turbin layihələri müasir hidravlik turbinlərin əsasını təşkil etmişdir.

Almaniyada Laufen şəhərində Nekkar çayı üzərində gücü 220 kVt olan dünyanın ilk sənaye tipli su elektrik stansiyası tikildi. Bu stansiya 1891-ci ildə rus mühəndis M.O Dolivo-Dobrovolskinin rəhbərliyi altında inşa edilmişdir. Azərbaycanda Gədəbəyin mədənlərinin elektrik enerjisi ilə təmin etmək məqsədilə 1892-ci ildə Qalaçıq su elektrik stansiyası istifadəyə verildi [7]. Eyni ildə Rusiyada (Altayda) 1892-ci ildə Berezovka çayında mühəndis Koksharovun rəhbərliyi ilə 150 kVt gücündə su elektrik stnasiyası istismara daxil edildi.1898-ci ildə Almaniyanın Reinfeld şəhərində 3,2 m su sütunu basqılı 16,8 MVt gücündə böyük bir su elektrik stansiyası inşa edildi. 1900-cü ildə ABŞ-da 41,2 m su sütunu basqılı 500 min at gücünə malik Adams Niagara su elektrik stansiyası istifadəyə verildi.

XX əsrin əvvəllərində su elektrik stansiyaları Qərbi Avropa, Rusiya, Azərbaycan, ABŞ, Braziliya, Yaponiya və digər ölkələrdə tikilirdi. Dünyanın bir çox ölkəsində bərpa olunan su enerjisi ehtiyatlarından istifadə edilərək geniş su elektrik stansiyalarının inşası davam etdirilirdi. XX əsrin əvvəllərində dünyada su elektrik stansiyalarının ümumi gücü təxminən 1 milyon kVt, XXI əsrin əvvəllərinə isə 2650 milyard kVt / saat elektrik enerjisi istehsalı ilə 670 milyon kilovatt təşkil edirdi. Böyük hidravlik turbinlərin gücü 0,8 milyon kVt-a çatır, işçi çarxının diametri isə 10 m təşkil etmişdi.

Su çarxı - min illər boyu insanlara sədaqətlə xidmət edən ən köhnə mühərrik hidravlik turbinlə əvəz edildi.

Görünüş olaraq, hidravlik turbin su çarxından onunla fərqlənir ki, su onun çarxlarından (bıçaqlar arasında) keçir və su çarxını daxil olduğu yerdə eyni hissədə buraxır. Eyni zamanda, hidravlik turbin, kompaktlıq, yüksək sürət, yüksək məhsuldarlıq və yüksək güc də daxil olmaqla su çarxı ilə müqayisədə əhəmiyyətli üstünlüklərə malikdir.

Su elektrik ehtiyatlarından istifadənin əsaslı yeni mərhələsi sivilizasiyanın inkişafında, insanların yaşayış şəraitinin yaxşılaşdırılmasında kəskin irəliləyişlər təmin edən elektrik enerjisi istehsalı sənayesinin inkişafı ilə əlaqədardır.

Su elektrik stansiyası su enerjisinin əsasən su elektrik stansiyalarında elektrik enerjisi istehsalı üçün istifadəsi ilə əlaqəli bir elektrik enerjisi sənayesidir.

XIX əsrin sonunda hidroenergetikanın inkişafı üçün lazımi şərait təmin edildi: yüksək səmərəliliyi və nisbətən yüksək gücü ilə xarakterizə olunan səmərəli hidravlik turbinlər yaradıldı; təkmilləşdirilmiş dəyişən elektrik generatorları yaradıldı; praktikiada elektrik enerjisinin uzaq məsafəyə ötürülməsi tətbiq olundu.

Qədim Roma filosofu Seneka (e.ə. 4 - 65 e.ə.) yazırdı: "Bəzi işlərin böyüklüyü, vaxtında olduğu qədər ölçüdə deyil".

5.2. GÜNƏŞ ELEKTRİK STANSİYALARI

Günəş enerjisi utilizasiya baxımından bərpaolunan enerji mənbələrinə aiddir. Günəş enerjisini hasil etmək və daşımaq lazım deyil, o, çəkisiz, səssizdir və bir qayda olaraq utilizasiyası zərərli tullantılar yaratmır və planetin istilik balansını pozmur. Günəş enerjisinin qeyd olunan bu və digər xüsusiyyətləri onu XXI əsrin enerji strategiyasında əsas mənbələrdən biri olduğuna işarə edir.

Bu strategiya yerüstü və kosmos əsaslı sənaye tipli günəş elektrik stansiyalarının yaradılmasına, həmçinin avtonom istilik enerji istehsalını təmin edən paylanmış strukturlu kiçik günəş modullarının tikintisinə əsaslanmışdır. Əksər ölkələrdə günəş enerjisi əsaslı enerji mənbələrinin yaradılması ilə bağlı atılan uğurlu praktiki addımlar bu strategiyanın optimallığını təsdiqləyir.Dünyanın müasir inkişaf tendensiyası hər onilliklərin sonunda günəş enerjisindən istifadənin orta hesabla on qat artdığını göstərir.

XXI əsrin insanı günəş enerjisi haqqında biliyə nail olmaq üçün minimum nəyi öyrənməlidir? Dörd prioritet istiqaməti qeyd etmək olar: (i) bəşəriyyətin Günəş sistemi haqqında tarixi bilikləri, (ii) günəş enerjisinin insanların ehtiyacları üçün istifadəsinin ilkin dövri ilə tanışlıq, (iii) günəş radiasiyasının qlobal yanacaq enerji balansına töhfəsini artırmaq üçün lazım olan şərtlərin öyrənilməsi və (iv) günəş enerjisi qurğularının köməyi ilə günəş enerjisindən istifadənin ən vacib metod və prinsipləri haqqında biliklər.

5.2.1. Günəş enerjisindən istifadənin təkamülü

Yüz illər boyu insanlar kainatın həyatını və qanunlarını öyrənməyə və anlamağa səylər göstəmişdilər. Elmi düşüncənin inkişafı ilə Günəş sistemi haqqında biliklər də inkişaf etdi.

Kainatın ilk modelinin - dünyanın geosentrik sisteminin (b.e.ə. IV - II əsr) meydana çıxması qədim yunan alimləri Platon,

Evdoks (b.e.ə. 408-355), Aristotel və Hipparxın (b.e.ə. 190 - 125) adları ilə əlaqəlidir. II əsrdə kainatın geosentrik nəzəriyyəsinin son forması Ptolemey Klavdiy tərəfindən verildi [47]. Kainatın geosentrik sistemində Yer (yunanca "geo" - yer) onun hərəkətsiz mərkəzi hesab olunurdu. Ptolemeyin nəzəriyyəsinə görə, Yer kürəsinin ətrafında bütün göy cisimləri bərabər və fasiləsiz fırlanır (*Şəkil 5.8*) [48].



Şek. 5.8. Ptolemeyə görə kainatın qeosentrik sistemi [48].

Ptolemey planetlərin mürəkkəb hərəkətlərini epitsikl nəzəriyyəsinə əsaslanaraq izah edirdi. Planetlərin hər biri, Ptolemeyə görə, hər - hansı nöqtə ətrafında fırlanır. Bu nöqtə, öz növbəsində, mərkəzində Yer olan çevrə üzrə hərəkət edir.

Ptolemeyin geosentrik sistemi Yerin Kainatda mərkəzi yeri haqqında dini qurumlarla razılaşdırıldı və buna görə kilsə uzun müddət dünyanın quruluşu ilə bağlı fərqli elmi fikirlərin inkişafına mane olurdu. Uzun müddət əsrlər boyu Ptolemeyin əsas prinsipi dəyişməz qaldı.

Yalnız 1500 il sonra, Nikolay Kopernik (1473-1543) dünyanın geosentrik sisteminin Kainatın həqiqi quruluşunu əks etdirmədiyini göstərdi. Düzdür, bu sistemin doğruluğuna dair şübhələr əvvəllər də mövcud idi. Beləliklə, eramızdan əvvəl III əsrdə qədim yunan alimi Samosskiy Aristarx (b.e.ə. təqribən 250 il əvvəl) Yerin Günəş ətrafında hərəkət etməsi fikrini irəli sürmüşdü. Lakin, Aristarxın müasirləri onun fərziyyəsini qəbul etməmişdilər. Və yalnız böyük Polşa alimi N. Kopernik Samosskiy Aristarxın ideyasından istifadə edərək,onun ümumi fəlsəfi fərziyyələrini ciddi bir riyazi nəzəriyyəyə çevirdi. "Göy cisimlərinin fırlanması haqqında" məşhur əsərində (1543-cü il) N. Kopernik dünyanın geosentrik sisteminin əsaslarını açıqladı (*Şəkil 5.9*). Yer 24 saat ərzində öz oxu ətrafında fırlanır. Bu fırlanma ilə ulduzların və bütün digər göy cisimlərinin gündəlik hərəkəti izah edilir. Yer Günəş ətrafında fırlanır və il ərzində tam bir dövrünü tamamlayır. Bütün planetlər də Günəş ətrafında fırlanır və müxtəlif planetlərin tam dövrləri fərqli olur. Beləliklə, planetlərin görünən döngəvari hərəkətləri sadə və təbii izahını aldı.

Yer kainatın mərkəzi yox, yalnız adi planetlər kimi, günəş sistemininplaneti kimi tanınırdı. Bu, təbiət elminin inkişafı üçün dünyanın Kopernik sisteminin mühüm inqilabi əhəmiyyəti idi.

Hazırda, Kopernikin heliosentrik sistemi günəş sisteminin təsvir edilməsi üçün istifadə olunur. Samosskiy Aristarxı isə "Qədim dünyanın Kopernikü" adlandırırlar.

Kopernikin təlimi təbiət elminin sonrakı inkişafında böyük rol oynadı. Onun nəzəriyyəsinə əsaslanaraq, I. Kepler (1571-1630) planetar hərəkət qanunlarını, İ.Nyuton (1643-11727) ümumdünya cazibə qanununu kəşf etdilər. Heliosentrik

sistem, Kainatın özünün sonsuzluğu ideyasının inkişafına xidmət etdi, Dünyanın nəzəri və təcrübi biliklərinin mümkünlüyünü göstərdi. Buna görə Kopernikin heliosentrik sistemi təbiətşünaslıq tarixinə böyük elmi inqilab kimi daxil oldu [49].



Şək. 5.9. Kopernikə görə kainatın heliosentrik sistemi [49].

XIX əsrin əvvəllərində böyük Alman filosofu I. Kant (1724-1804) və məşhur fransız fiziki və riyaziyyatçısı P. Laplas (1749-11827) günəş ətrafı qaz-toz buludunun kondensasiyası nəticəsində günəş sisteminin cisimlərinin yaranması haqqında kosmoqonik fərziyyə irəli sürdü. O.Y. Şmidt (1891-1956), F. Hoyle, A. Cameron, E. Şaçman və başqa alimlər tərəfindən

bu fərziyyə inkişaf etdirildi və XX əsrin ikinci yarısında öz təsdiqini tapdı.

Bəşəriyyətə günəş şüasının həyat verən faydası vardır. Buna görə təəccüblü deyil ki, bəşəriyyət tarixi boyunca bütün sivilizasiyanın ətraf mühitimizin bu amilinə münasibəti həmişə müsbət olmuşdu. Günəşə və onun tanrılarına ibadətin sübutları qədim zamanlardan bəri bütün dünyada tapılmışdır.

Günəş radiasiyası yalnız insan həyatı üçün əlverişli bir mühit yaratmır, insanlar onun enerjisini özlərinə xidmət etməyə yönəltməyə başladılar: paltar tikilməsi, mebel və gəmilər hazırlanmasl, heyvanların dərisinin qurudulması; yeməklərin uzun müddət saxlanılması məqsədi ilə qurudulması; buxarlanma yolu ilə sudan duzun əldə olunması və s.

Çox keçmədən Torundakı (Polşa) rəsədxananın direktoru, professor Vilhelmina İvanovska, heliosentrik sistem ideyasının 1491-ci ildə Kopernikdən hələ Krakov universitetində oxuduğu zaman irəli sürüldüyünü sübut edən bir məqalə yazdı. Sonradan həkim, hüquqşünas, mühəndis və kartoqraf olmaq məcburiyyətində qaldıqda, planetin fırlanması ideyası həmişə Kopernik üçün təkcə ciddi düşüncə obyekti deyil, həm də riyazi hesablamalar idi. Kopernik astronomik müşahidələr və qırx il ərzində hesablamalar apardı. Və yalnız bundan sonra o, öz nəzəriyyəsinin prinsiplərini açıqladı və əlyazmanı dərc elətdirdi. Lakin "Göy cisimlərinin hərəkəti haqqında" əsəri əsas ideyanı təhrif edən ön sözlə yayımlandı. Adı da dəyişdirildi. İndi Kopernikin özünün möhtəşəm kitabına hansı adı verdiyi bilinmir, çünki originalın baş səhifəsi iz qalmadan itirildi.

Bir müddət Kopernikin əməyi alimlər arasında sərbəst şəkildə yayıldı. Yalnız böyük Polşa astronomunun davamçıları ortaya çıxdıqda, inkivizasiya meydana çıxdı. Onun tədrisi qadağan edildi və kitab qadağan olunmuş kitablar indeksinə daxil edildi. Bu qadağa yalnız 1823-cü ildə, 207 il sonra aradan qaldırıldı.

İnsanlar əmək alətlərini inkişaf etdirdikcə günəş radiasiyasını digər faydalı məqsədlər üçün istifadə etməyin yeni yollarını icad etdilər. Beləliklə, eramızdan əvvəl VI əsrdə, Babildə bir günəş saatı icad edildi. Bir az sonra belə saatlar Yunanıstanda, daha sonra Romada istifadə olunmağa başlanıldı. Günəşin səmada hərəkət etməsi səbəbindən çubuqdan gələn kölgə vaxtı göstərirdi.

Qədim dövrlərdə günəş şüalarının köməyi ilə məbədlərdə müqəddəs alovun yandırıldığı məlumdur. Eyni şəkildə, əfsanəyə görə, görkəmli qədim yunan alimi Arximed, Sirakuse ailəsini qoruyarkən, Roma donanmasının gəmilərinin yelkənlərini yandırmışdı.

Qışda günəş istiliyini saxlayan və yayda istidən sığınacaq rolunu oynayan örtüklər ixtira edildi. Evdəki qızdırılan sahəni artırmaq və əkinçilik işlərinin müddətini uzatmaq üçün min illər boyu günəş otaqları və istixanalar evlərdə quraşdırılmışdır. VI əsrə qədər evlərdə günəş vannaları o qədər geniş yayıldı ki, bu bir Qayda kimi Yustian məcəlləsində təsbit edildi.

Təqribən 3500 il b.e.ə. Günəş şüalarından (sundial) sutka ərzində vaxtı təyin etmək üçün istifadə olunmağa başladılar (*şəkil 5.10*) [50].

Ən qədim günəş saatlarının maraqlı bir şərhini İspan səyyahı, rahib Benjamin vermişdi. XII əsrdə o zaman Türk vilayətinin paytaxtı Dəməşq şəhərində 365 dəlikli yüksək divarı olan Qoman Dammesek adlı böyük bir məscid mövcud idi. Səma boyunca hərəkət edən günəşin şüaları hər saatdan bir dəliklərin birinə düşürdü ki, hamı həmin divarın yanında döşəməyə çəkilən 12 üfüqi xətdən dəqiq vaxtı öyrənirdi. Səyyahın sözlərinə görə, bu cür saatlar Kiçik Asiyaya səfərindən təxminən 400 il əvvəl ərəb alimləri tərəfindən icad edilmişdir.

Böyük italyan ixtiraçısı və rəssamı Leonardo da Vinci 1515-ci ildə günəş enerjisinin sənayedə tətbiqi ilə bağlı ilk planlardan birini tərtib etdi (*Şəkil 5.11*). Onun yazı kitabında "fabrikdəki istənilən qazanxananı istiliklə təmin etmək üçün"

nəhəng bir parabolik güzgünün bir neçə layihələrinin təsvirləri vardır.

Qızdırılmış hava ilə işləyən və suyun ötürülməsi üçün istifadə olunan ilk günəş mühərriyi 1600-cü ildə Fransada yaradıldı.



şək. 5.10. Ilik günəş saatının konsepsiyası [50].

XVIII əsrin sonlarında görkəmli fransız kimyaçısı A. Lavuazye (1743-1794) ilk günəş sobasını yaratdı. Sobada temperatur 1650 °S-yə çatdırıldı, karbonun və platinin xüsusiyyətləri öyrənildi.

İsveçrəli alim Horace de Saussure 1767-ci ildə icad etdiyi dünyada ilk günəş kollektoru ilə tanınmışdır. Məşhur astronom Con Herşel bundan 1830-cu illərdə Cənubi Afrikaya ekspedisiya zamanı yemək hazırlamaq üçün istifadə etdi.

ABŞ-da günəş enerjisinin inkişafı Vətəndaş müharibəsindən sonra başladı. Günəş enerjisi sahəsində ilk amerkalı alim mühəndis Con Eriksondur. 1833-cü ildə ABŞ-da

o, ölçüsü 4,8 × 3,3 m olan parabolosilindrik konsentratorlu günəş hava mühərriyi qurdu (*Şəkil 5.12*).

1860-cı ildə Fransada günəş enerjisindən istifdə edərək mühərriklərin işi üçün lazım olan buxar istehsalı məqsədilə ilk sistem işlənildi.



Şek. 5.11. Leonardo da Vinci və onun yazı kitablarından fraqment.

1866-cı ildə fransız ixtiraçısı A. Mouşo günəş enrjisinin sənayedə istifdəsi üçün qurğu icad etdi (*şəkil 5.13*).

İlk genişmiqyaslı su distillə qurğusu 1871-ci ildə amerikalı mühəndis C. Uilson tərəfindən Çilidə inşa edilmiş və 30 il mədəni içməli su ilə təmin etmişdir.

1878-ci ildə Parisdə keçirilən dünya sərgisində A. Mouşo, 20 dəqiqə ərzində 0,5 kq ət bişirə bilən günəş sobası nümayiş etdirdi. Fransız A. Piff mətbəədə çap dəzgahlarını işə salan, təxminən 10 m^2 sahəsi olan konsentratorlu 500 Vt gücündə buxar mühərriyi qurdu.



Şek. 5.12. Günəş buxar qazanı

İlk düz günəş enerjisi kollektoru fransız S.A. Teler tərəfindən qurulmuşdur. Bu kollektorun sahəsi 20 m^2 təşkil edirdi. 1885-ci ildə su təchizatı üçün düz kollektorlu günəş qurğusunun sxemi təklif edildi və evlərin damına quraşdırıldı.

İngilis ixtiraçısı A.G. İneas, Arizonada (ABŞ) böyük bir günəş konsentratoru qurdu, Təzyiqi 10 bar olan su buxarı istehsal edən qurğuya 320 m^3/saata qədər suyu ötürmək üçün istifadə edildi. Parabolik konsentratorun yuxarı hissəsinin diametri 10,2 m, dib dərinliyi isə 4.5 m təşkil edirdi.

1890-cı ildə professor B.K. Çeraskiy (1849-1925) Moskvada parabolik güzgü ilə günəş enerjisini fokuslaşdırmaqla alınan 3000 ° S-dən çox temperaturla metalların əriməsi prosesini həyata keçirdi.

Raket - kosmik texnikası üzrə konstruktor M.K. Tixonravov (1900 – 19740), "Kosmos uçuşu üçün şüa enerjisinin istifadəsi yolları" adlı əsərində (1936), fotosellərdən istifadə edərək kosmosun şüa enerjisini elektrik enerjisinə

çevirməyi təklif etdi. Sonra bu enerji reketin yanma kamerasında qazı qızdırmaqla istilik enerjisinə çevrilir və təzyiq altında olan qaz reketi hərəkətə gətirmək üçün zəruri olan itələmə qüvvəsi yaradır.



Şek. 5.13. A. Mouşotun günəş konsentratoru

Hazırda yuxarıda qeyd olunan prinsipə əsaslanan günəş batareyaları müasir kosmik cihazların ayrılmaz enerji mənbəyinə çevrilmişdir. İlk dəfə günəş batareyaları Yerin üçüncü süni peykində quraşdırıldı.

Günəş enerjisi ilə bağlı qeyd etmək yerinə düşər ki, bir kq silikon əsasında hazırlanan günəş panelərinin 30 il ərzində

istehsal etdiyi elektrik enejisinin, İES-də istehsalına 75 t neft yanacağı tələb olunardı. Buna görə də silikonu XXI əsrin enerjisi adlandırırlar.

5.2.2. Günəş enerjisinin potensialından səmərəli istifadə

Məlumdur ki, Yer kürəsində həyat günəş enerjisinin hesabına yaranmış və bu gün də məhz bu səbəbdən davam edir. XVII əsrə kimi insanların əsas enerji mənbəyi günəş enerjisi və fotosintez prosesi nəticəsində akkumulyasiya olunan ağacların yandırılmasından yaranan enerji olmuşdur.

Günəş, diametri 1390 000 km olan, əsasən hidrogendən təşkil olunmuş qaz buludundan ibarət, xüsusi hidrodinamik bir cisimdir. Onun daxilində temperatur o qədər yüksəkdir ki, hidrogenin heliuma sintezini təmin edir. Günəş, daxilində baş verən bu sintez nəticəsində, yenidən şüalanan, tədricən səthinə çatan yüksək tezlikli elektromaqnit şüaları şəklində enerji ifarz edir. Son nəticədə şüalanma Günəşin fotosfer adlanan nazik səth təbəqəsindən keçərək Yerə çatır.

Bu enerji təqribən $1{,}2x10^{14}$ neft evivalenti tonu yanacaq (NET təşkil edir ki, bu da Dünya üzrə üzvü yanacaq ehtiyatından ($6x10^{12}$ NET) xeyli yüksəkdir.

Hər gün yer kürəsinə $4{,}2x10^{14}$ kVts ekvivalent enerji daxil olur ki, 2015-ci ildə isə il ərzində $1{,}2\ x10^{9}$ kVts sərf olunmuşdur.

BMT-nin qəbul etdiyi terminalogiyaya görə əsasını günəş enerjisi təşkil edən bütün növ enerji BEM adlanır.

Günəşin fotosferinin elektromaqnit şüaları kosmik mühitə işıq sürəti ilə (300.000 km / s) dalğa şəklində yayılır. Yerin orta illik qlobal enerji balansı *şəkil 5.14*-də təqdim olunur.

Əgər Günəş tərəfindən şüalandırılan enerjinin miqdarını 100% qəbul etsək, bu enerjinin yalnız 50% hissəsi (27% birbaşa, 23% isə atmosferdə səpələnərək) Yerin üst qatına çatır.

Baxmayaraq ki, Günəşin atmosfer qatına düşən 178 000 TVt enerjinin az bir hissəsi Yerin səthinə daxil olur, bununla yanaşı onun illik həcmi Dünya üzrə nüvə enerjisi də daxil olmaqla üzvü yanacaq əsaslı enerji sərfini 15000 dəfə üstələyir.

Sonsuz enerjinin planetimizə daim axması barədə təbiət fenomenini bəlkə də biz tam anlaya bilmirik.



Şek. 5.14. Günəş işığının atmosferdən keçməsi

Günəş enerjisi demək olar ki, qeyri məhdud miqdardadır, ekoloji cəhətdən təmizdir, heç nəyi pozmur, heç bir fəlakətli məhfetmə yaratmır . Yer üzündəki hər şeyə həyat verir. Bundan əlavə, bu enerjinin maya dəyəri demək olar ki, sıfıra bərabərdir, Yer kürəsinin hər yerində mövcuddur və istənilən qədər maneəsiz əldə etmək olar. İstifadəsindən asılı olmayaraq, axını sabitdir.

Günəşin bir saniyədə verdiyi enerji $4{,}2 \cdot 10^6$ ton kütlənin yandırılmasına və ya enerjiyə çevrilməsinə bərabərdir.

Günəş enerjisindən istifadənin əsas problemlərindən biri ondan ibarətdir ki,Yer kürəsinə günəş şüalarının çox səpələnmiş,

sızan bir axınla gəlməsidir. Onların sıxlaşdırılmasının, konsentrasiyanın mütərəqqi yollarını axtarmalıyıq.

Günəş orbital elektrik stansiyaları yaratmaq üçün nəhəng və yüngül konstruksiyanı kosmosda necə yığmağı öyrənməliyik. 100 km^2 sahəsi olan paneldən təxminən 10 milyon kilovatt güc əldə edə bilərik. Bu enerjinin Yerə ötürülməsini təmin etmək üçün, orbitə yükün çatdırılması məqsədi ilə müxtəlif cür nəqliyyat vasitələrinə sahib olmaq lazımdır.

Effektiv şəkildə işığı qəbul edən və məqbul effektivliyə sahib fotoelektrokimyəvi günəş sellərini əldə etmək üçün elmi inkişafdan sənaye inkişafına və nanostruktur texnologiyaların kommersiya tətbiqinə keçmək lazımdır.

Günəş enerjisinin istifadəsi üçün vacib şərt, oksigen və hidrogen almaq məqsədli elektroliz prosesi ilə fotoqalvanik elementlərin bir strukturda birləşdirilməsidir.

Günəş enerjisi ən çox maddi-intensiv enerji istehsalı formalarına aid edilir. Onun geniş miqyaslı istifadəsi yeni materialların işlənməsini, xammal hasilatının və əmək ehtiyatlarının artırılmasını tələb edəcəkdir (*şəkil 5.15*) [51].

Günəş enerjisinin potensialını səciyyələndirərkən "Examiner" jurnalının sensasiyalı məlumatı barədə danışmamaq olmaz: insanlar Günəş enerjisindən qidalana bilərlər. Kalkutta sakini 66 yaşlı mühəndis mexanik Ratan Maneq belə təsdiq edir. O,1995-ci ildən başlayaraq uzun müddət yemək qəbul etmir. Gözlərə düşən günəş enerjisi aclıq hissini yatırır. Maneg, insanların bədənlərinin ehtiyaclarını çox sadə bir şəkildə dəyişdirə biləcəyinə əmindir – işıqlı günün ilk hissəsində, çılpaq ayaqlar ilə yer üstündə dayanıb, Günəşə baxmaq lazımdır. Bir neçə günlük məşqlərdən sonra günəş şüalarının gözlər vasitəsilə bədənə necə nüfuz etdiyi hiss olunur. Beyin bədəni qidalandırmaq üşün boş ehtiyatlarından istifadə etməyə başlayır. Günəş enerjisi insanı təkcə fiziki deyil, həm də müxtəlif ruhi xəstəliklərdən azad edir. Artıq bu fenomen aparıcı alimlər tərəfindən araşdırılır.

Yaxınlaşan fəlakətin əlamətləri ekoloji vəziyyətin pisləşməsində, əhalinin sürətlə artmasında, siyasi gərginliyin artmasında və digər istiqamətlərdə hiss olunmaqdadır. Sivilizasiyanın belə nizamsız inkişafı davam edə bilməyəcəyi aydındır.

Şek. 5.15. Niderlandın Vestland bələdiyyəsində günəş panelləri ilə qızdırılan istilikxana [51].

Müasir əsrimizin ən vacib vəzifələrindən biri də Yerin iqliminə texnogen təsirləri azaltmaqdır. Buna yalnız Günəş enerjisindən istifadə ilə nail oluna builər.

Bu yol uzun, çətin və tikanlıdır. Ancaq bəşəriyyətin başqa altrnativi yoxdur. Ətraf mühit baxımından günəş enerjisi həqiqətən idealdır, çünki ekoloji tarazlığı pozmur. Buna görə dünya birliyinin səyləri, beynəlxalq əməkdaşlığın öhdəlikləri enerji bolluğu dövrünə gedən bu yolu qısaltmaq üçün, birləşdirilməlidir.

Hazırda energetika sistemlərinin davamlı inkişafı üzrə qəbul olunmuş hədəflərə əsaslanaraq deyə bilərik ki, 2050-ci ilə enerji balansında payı 30% (konsentarsiya olunan günəş enerjisi daxil olmaqla) keçəcəkdir [52].

5.3. KÜLƏK ELEKTRİK STANSİYALARI

GİRİŞ

Insanlar külək enerjisindən, hələ b.e.ə. 5000 ildən 200-ci ilə qədər Misirdə Nil çayında gəmilərin hərəkət etdirilməsi üçün istifadə etməyə başlamışlar. Çində sadə külək qurğularından su nasoslarında, qamışdan toxunulmuş pərləri olan külək qurğularından buğdanın təmizlənməsi üçün Yaxın şərq və İranda istifadə olunurdu.

Nəhayət külək enerjisinin müxtəlif məqsədlər üçün istifadəsi bütün dünyada yaıldı. XI əsrin əvvələrinə Yaxın şərqdə insanlar tərəfindən külək qurğularından əkin sahələrinin su ilə təmin olunmasında geniş istifadə olunurdu. Tacirlər və syahətçilər külək texnolojiyasını Avropa qitəsinə gətirdilər. Çox keçmədi ki, Avropalı miqrantlar külək enerjisi texnologiyasını Amerika qitəsinə, daşıdılar.

Külək nədir? Bu bəlkə də ən qeyri-sabit və az proqnozlaşdırıla bilən bir təbii hadisədirsə, enerjisini istifadə edib köməyinə arxalanmaq mümkündürmü? Bu nədən qaynaqlanır, hara yönəldilmişdir, "ona güvənmək" mümkündürmü? Axı, hər hansı bir külək elektrik qurğusunun səmərəliliyi onun təbiətinin nə qədər davamlı olmasından asılıdır.

Yerin qızdırılan səthindən Günəşin şüaları altında hava da qızdırılır. Onun istiliyinin intensivliyi əsasən yer səthinin vəziyyətindən və xüsusiyyətlərindən asılıdır.Məsələn, səhra havası eyni enlikdə dəniz səthinə nisbətən isti qumdan 130 qat daha çox istilik alır. Qızdırılan hava öz sıxlığını azaldır - atmosfer təzyiqi dəyişir, istiliyin artması ilə azalır, əksinə - artır. Yüksək təzyiqli hava kütlələri təzyiqin aşağı olduğu yerə hərəkət edərək külək yaradır. Ekvator enliyində, Yer səthinin güclü istiləşməsi səbəbindən sabit aşağı təzyiqli zona yaranır. Bura hava kütlələri şimaldan və cənubdan axır - əsasən bir

istiqamətdə daimi küləklər yaranır (passatlar). Yer kürəsinin fırlanmasının təsiri altında, hava kütlələri Şimal yarımkürəsində- sağa, Cənub yarımkürəsində - sola meyl edir.

5-7 km yüksəklikdə tərs istiqamətdə küləklər (antipassatlar) əsir. Ekvatorun şimal və cənubunda sabit sakit bölgə mövcuddur. Təqribən 30 dərəcə en dairəsi genişlikdə, ekvatorun hər iki tərəfində bir neçə kilometr yüksəklikdən keçən, ekvatordan soyuq hava axını istqamətində ikinci sakit zonalar mövcuddur - antipassatlar.Orada yüksək təzyiq zonası yaranır və burada passatlar formalaşır. Bu zonadan, qərb adlanan qütblərə doğru küləklər əsir. Passat külәkləri ilə müqayisədə, onlar daha dəyişkəndirlər. Şimaldan və cənubdan 30 ilə 60 ° arasındakı bu zolaq uzun müddət dənizçilər arasında pis münasibətə səbəb olmuşdur. Sakit zonadan 30 dərəcə endə yerləşən Bermud adaları rayonu bəzən at enlikləri adlanır. Bu qəribə ad yelkənli donanma dövründən bəri qorunub saxlanılır. O dövrdə bir çox gəmiləri atları Avropadan Qərbi Hindistana nəql edirdi. Sakit küləksiz zonaya daxil olaraq gəmilər hərəkət etmək imkanından məhrum olurdu, yelkənlər işləmirdi, təmiz su və qida ehtiyyatları tükənirdi. Hər şeydən əvvəl atlar ölürdü. Gəmidən atılan at cəsədləri uzun müddət sü səthində qalırdı. Güclü soyuma səbəbindən qütblərdə ekvatora sabit qütblü şərq külәkləri istiqamətləndirən daha iki yüksək təzyiqli bölgə mövcuddur.

Günəş işığının təsiri altında quru ərazi suya nəzərən daha sürətli qızdırılır və soyudulur, bunun nəticəsində ilin müxtəlif vaxtlarında dəniz və okeanların sahillərində mövsümi sahilə və ya sahildən əsən küləklər - mussonlar yaranır.

Beləliklə, küləklərin - fenomenin ilk baxışdan görünə biləcəyi qədər kortəbii olmadığına aydınlıq gətirildi. Onların davamlılığına arxalanmaq olar, külək enerjisinin heç bir zaman anında tamamilə yox olacağından narahat olmağa əsaslar yoxdur.

Dünyada küləklərin davamlı istiqamətli və təxminən eyni güclə əsən nəhəng məkanları mövcuddur. Bu baxımdan coğrafi mövqeyinə görə ölkəmiz əlverişli vəziyyətdədir. Tükənməz külək enerjisi ehtiyatlarına malikdir. Azərbaycan külək enerjisindən maksimum səmərəliliyi ilə istifadə edilə bilən böyük ərazilərə malikdir. Küləyin geniş yayılmasına maneələr nələrdir? Əsasən bunlardan ikisi: istiqamətinin və gücünün qeyri sabitliyi və külək olmaması və ya aşağı güc olması halında enerjinin akummlyasiya olunaraq saxlanmasına ehtiyac. Hər şeydən əvvəl, görünür, külək elektrik stansiyalarını əlavə enerji əldə etməyin yollarından biri hesab etmək lazımdır ki, bu da yanacaq istehlakını azaltmağa imkan verir.

Beləliklə, külək enerjisi, günəş şüalanmasının çevrilən enerjisidir və nə qədər ki, günəş işıq saçacaq, o qədər də küləklər əsəcək. Azərbaycanının külək enerjisinin texniki potensialı 15 000 MVt-dən, iqtisadi cəhətdən səmərəli potensialı isə 3 000 MVt-dən çox qiymətləndirilir. Yəni, külək texnologiyalarının hazırkı inkişaf mərhələsində Azərbaycanın bütün elektrik stansiyalarının gücünün orta hesabla 50 %-ni təşkil edir.

Müxtəlif növ külək stansiyaları mövcuddur.

21-ci əsrin enerji sektorunda əhəmiyyətli yer tutan külək elektrik stansiyaları (KES) nədən ibarətdir? Hazırda dünyada iki növ külək turbinləri geniş yayılmışdır: qanad və karusel. Barabanlı və digər bir neçə orijinal layihə edilmiş qurğular da mövcuddur.

Qanadlı KES - bunlar ənənəvi sxemli külək turbinləri də adlandırılır - üfüqi fırlanma oxu olan pər mexanizmləridir. Onların ən böyük səmərəliliyi, külək axını pərlərin fırlanma müstəvisinə perpendikulyar olaraq hərəkət edərkən əldə edilir.

Külək energetikasının cəlbediciliyi, yalnız təbiətə zərər verməsi ilə məhdudlaşmır, KES müxtəlif ərazilərdə, enerji mənbəyi olmayan yerdə kifayət qədər tez quraşdırıla bilər. Lakin, etiraf etməliyik ki, külək turbinlərinin istismarı bəzi xoşagəlməz hadisələrlə müşayiət olunur. Əsas olan səs-küydür.

Gücü 100 kVt-dan çox olan külək turbininin yaxınlığında külək pərlərinin ox səviyyəsində səs-küy səviyyəsi 50 dB-dən çoxdur. Hücum bucağına nəzarət sistemi onu qismən azaldır. İnsan qulağının qəbul etdiyi səs-küyə əlavə olaraq, külək qurğusu ətrafında titrəməyə səbəb olan 6-7 Hz tezlikli təhlükəli bir infrasəs mövcud olur.

Bununla yanaşı, KES-ın istismarı ilə bağlı problemlər uğurla həll olunur. Layihəçilər külək pərlərinin fırlanma sürətini seçərək pərlərin profillərini yaxşılaşdıraraq səs-küy və vibrasiya səviyyəsinin azaldılmasına nail olmuşdurlar.

Müasir KES elm və texnologiyanın son nailiyyətlərinə cavab verən bir çox texniki yenilikləri özündə etiva edir. KES-in səmərəli və təhlükəsiz işini təmin edən bəzi həlləri qeyd etmək olar:

- hücum bucağının dinamik olaraq dəyişdirməsi;
- yük və küləyin sürətindən asılı olaraq külək pərinin fırlanma sürətinin dinamik idarə olunması;
- küləyin dominant istiqaməti və turbulensiyasını nəzərə alaraq xüsusi bir qanuna uyğun olaraq külək turbinin idarəetmə sistemi.

5.3.1. Külək enerjisindən istifadənin təkamülü

Külək enerjisindən istifadənin tarixi və külək qurğularının dəyirmanlardan böyük güclü mürəkkəb qurğulara qədər təkamülü və sənayedə tətbiqi dövrü ümumi və ixtisaslaşdırılmış bir çox ədəbiyyatlarda, Freese (1957), Needham (1965), Minchinton (1980), Dighter (2008) və Denny (2007) və digərlərində, ətraflı təsvir olunmuşdur [53-58].

Hələ Qədim Misirdə, b.e.ə. 3500 il əvvəl buğdanın təmizlənməsi və suyun yüksəkliyə qaldırılması üçün külək mühərriklərindən istifadə olunmağa başlanılmışdır. Əlli əsrdən artıq bir müddət keçməsinə baxmayaraq külək dəyirmanları öz görünüşlərini dəyişməmişdir. Məsələn, İngiltərədə XVII əsrin ortalarında tikilmiş dəyirman, uzun müddət keçməsinə baxmayaraq, bu günə qədər mütəmadi fəaliyyət göstərir.



Şək. 5.16.
Persiya külək dəyirmanı

Levisin 1993-cü ildə apardığı araşdırmalarına görə ilk külək dəyirmanları Vizantiyanın ərazisində (İranda) tətbiq olunmağa başlanılmışdır (*şəkil 5.16*). Külək dəyirmanının qanadları dəyirman daşları ilə eyni oxda yerləşdirilmişdir. İran dəyirmanı istifadə üçün rahat konstruksiya idi, lakin güclü (zəif) küləklərdə məlumdur ki, tənzimlənmə sistemi olmadığına görə onun istifadəsi qeyri – mümkün olurdu.

Təqribən 600 il əvvəl, nəhəng qanadları olan, üfüqi vəziyyətdə yer səthində yerləşdirilən qüllə tipli dəyirmanların inşasına başlanıldı. İlk belə dəyirmanlardan biri uzun müddət ixtiraçılıqda məşhur olan Hollandiyada meydana gəldi. 1745-ci ildə Edmund Lee adlı ixtiraçı, yeni bir qanad növü - parça ilə örtülmüş taxta çərçivələrin ixtirası ilə dəyirmançıları sevindirdi. İxtira o qədər uğurlu oldu ki, indi də külək dəyirmalarında istifadə olunmaqdadır (*şəkil 5.17*).

Külək dəyirmanları əla pulsuz enerji mənbəyi olduğunu sübut etdi. Vaxt keçdikcə onlardan yalnız taxıl üyütmək üçün istifadə edilməməsi təəccüb doğurmur. Külək dəyirmanları iri fırlanan dairəvi mişarları fırlatdı, ağır yükləri böyük yüksəkliklərə və suyu hündürlüklərə qaldırmaq üçün istifadə olunmağa başladı və su dəyirmanları ilə yanaşı, demək olar ki, keçmişin ən güclü maşınları olaraq tarixdə qaldılar. Hollandiyada, məsələn, külək dəyirmanlarının çox olduğu yerlərdə, əsrimizin ortalarına qədər uğurla fəaliyyət götərmişdilər. Onlardan bəziləri hətda bu gün də fəaliyyətdədir.



Şək. 5.17. Edmund Li külək dəyirmanı

Maraqlıdır ki, külək dəyirmanlarını orta əsrlərdə bəzi insanlar qeyri – təmiz qüvvələrlə əlaqələndirməyə çalışırdılar.

Zaman keçdikcə insanlar ucuz enerji mənbəyi kimi, bərpaolunan mənbələrdən biri olan küləkdən istifadəyə üstünlük verdilər. Texnologiyanın inkişafındakı belə bir mərhələ elektrik generatorlarının quraşdırılması ilə başlandı.

Amerika qitəsində, o cümlədən, ABŞ-da külək dəyirmanları 1800-cü illərin sonlarında Amerika Qərbinin inkişafı və inkişafa verdiyi töhfələrinə görə daha yaxşı tanınır. Külək dəyirmanları Böyük Düzənlikdə ilk məskunlaşanlar üçün həyati əhəmiyyət daşıyırdı. Külək dəyirmanları dəmir yolunun su təchizatında (*şəkil 5.18*) və su mənbələrindən uzaq yerlərdə fermer təsərrüfatları üçün su mənbələrinin yaradılmasında istifadə olunmuşdur [61].

Şek. 5.18. Amerika Dəmir Yolu su təchizatı üçün Külək Turbini

1890-cı ildə Danimarkada elektrik enerjisi istehsal etmək üçün ilk sənaye tipli külək generatoru istifadəyə verilmişdi. Bu cür külək generatorları adi elektrik stansiyalarından cərəyanın ötürülməsi üçün əlverişsiz və ya sərfəli olmayan yerlərdə quraşdırılmışdır. Sonda külək turbinləri Danimarka sənayesi üçün lazım olan bütün enerjinin dörddə birini təmin etməyə başladı. 1920-1930 illər arasında Avstraliyada külək generatorlarının tətbiqinə başlanılmışdır.

1931-ci ildə, dünyada ən böyük külək elektrik stansiyası Krımda inşa edilmişdi. [62].

Beləliklə, külək dəyirmanları dünya iqtisadiyyatının inkişafına töhfə versə də su dəyirmanları qədər əhəmiyyətli olmamışdır. Belə ki, son nəticədə onlar geniş tətbiqini Avropanının atlantik hissəsində tapmışdır. Avropada külək dəyitmanları ilə bağlı ilk qeydlər XII əsrə təsadüf edilir. Bu ərazidə əsasən qüllə tipli külək dəyirmanları geniş yayılmışdr (*şəkil 5.19*) -qüllə palıd ağcından hazırlanır, bütün struktur onun üzərində bərkidilir, dört tərəfdən fiksasiya olunub [62].



Şək. 5.19. Qüllə külək dəyirman [62].

Su dəyirmanlarında olduğu kimi, külək qurğularından enerji məqsədləri üçün istiafadə öz pik nöqtəsinə XIX əsrdə çatmışdır. Böyük Britaniyada onların sayı 1800-cü ildə 10 min, XIX əsrin sonunda Almaniyada 18 minə çatmışdır. ABŞ-də 1860 - 1900-cu illldərdə bir neçə milyon külək

dəyirmanları qurulmuşdur, onların sayı yalnız 1920-ci illərdə azalmağa başlamışdır.

5.3.2. İlk külək qurğuları

XX əsrin əvvəllərində, külək mühəndisliyinin inkişafı üçün elmi əsasları mövcud olan şəraitdə, dünyada külək fermalarının (stansiyalarının) inşaası baş vermişdi.

Külək fermaları, funksional bir-biri ilə əlaqəli və küləyin kinetik enerjisini elektrik enerjisinə çevirərək elektrik enerjisi istehsal edən vahid bir kompleks olmaqla bir və ya bir neçə külək turbinindən ibarət təşkil oluna bilər.

Külək stansiyaları, bir qayda olaraq, ümumi bir enerji sisteminində, eləcə də ayrı bir istehlakçını elektrik enerjisi ilə təmin edərkən həm də avtonom fəaliyyət göstərə bilər.

Külək fermaları inşaatında önə çıxan ölkə Danimarka olmuşdur: hökumət 1890-cı ildə külək turbinlərinin tətbiqi üzrə geniş bir inkişaf proqramı başlatmışdı. 1910-cu ildə bir neçə yüz belə külək turbinləri istifadəyə verilmişdi. Turbinlərin pərlərinin diametri 23 m olan, 24 m yüksəklikdəki bir qülləyə quraşdırılmış və mexaniki ötürücü ilə qüllənin bünövrəsində yerləşən elektrik generatoru ilə birləşdirilmiş dörd barmaqlı külək çarxları mövcud idi. Generatörün layihə gücü 5 - 25 kVt arasında dəyişdirdi. Bu külək turbinləri tərəfindən istehsal olunan elektrik enerjisinin dəyəri bir dizel elektrik qurğusunun istehlak etdiyi yanacağın dəyərinə bərabər idi.

İkinci Dünya Müharibəsindən sonra Danimarkada, enerji sistemi ilə sinxron rejimdə işləmək üçün nəzərdə tutulmuş, 12, 45 və 200 kVt gücündə üç eksperimental külək turbinlərini hazırlamış və sınaqdan keçirilmişdi. Bu turbinlər 1960-cı ilə qədər fəaliyyətlərini davam etdirmişdi. İstehsal olunan elektrik enerjisinin maya dəyəri bir istilik mühərrikindən alınan enerjinin ekvivalent dəyərindən artıq olduğu üçün layihənin fəaliyyəti dayandırılmışdı.

Postosvet məkanında külək enerjisindən istifadə mühüm dövlət problemi hesab olunurdu. 1924-cü ildə N.V. Krasovskinin rəhbərliyi altında 50 at gücünə qədər çarxın sürətinə nəzarət sistemi ilə təchiz olunmuş yüksək sürətli yeni mühərrik hazırlanmışdı.

Məlumdur ki, külək turbinini layihə edərkən ən çətin və həlledici məqam külək çarxının sürətinin idarə olunmasıdır, çünki şəbəkə ilə paralel iş şərtləri küləyin sürətindən asılı olmayaraq sabit bir generator sürətini tələb edir. Bunun üçün pərin sabit bir ox ətrafında fırlanmasından istifadə olunur. Pərin vəziyyətinin küləyin istiqamətinə görə dəyişməsi ilə, tənzimləmə üçün əsas olan aerodinamik qüvvələr də dəyişir. Pərlərin fırlanması, yuxarıda qeyd edildiyi kimi, təklif olunan pərdə yerləşdirilmiş mərkəzdənqaçma tənzimləyicisinə qoşulmuş bir stabilizator sükanından istifadə edərək ya mexaniki ya da servomotorlar vasitəsilə həyata keçirilə bilər.

1931-ci ildə Sevastopol ətrafında qoyuluş gücü 20 MVt istilik elektrik stansiyası ilə birlikdə 6.3 kV elektrik şəbəkə gərginliyində işləyən Balaklava külək ferması istfadəyə verildi (*şəkil 5.20*). Ölçü baxımından (külək çarxının diametri 30 m, küləyin sürəti 10 m / s, gücü 100 kVt , qüllənin hündürlüyü 25 m, külək çarxının sürəti 30 dövr/dəq) stansiyanın nə əski sovetlər birliyində, nə də ondan xaricdə heç bir anoloqu mövcud olmamışdır [62].

Quraşdırılan generatorun gücü 92 kVt, fırlanma sürəti 600 döv/dəq üç fazlı asinxron mühərrik, və mərkəzdənqaçma mexanizmi ilə avtomatik işə salınma sistemi ilə təmin olunmuşdur. Generator yerləşdirilən qurğunun baş hissəsində uzunluğu *13,7 m, eni 25 m və hündürlüyü* 3,8 m olan kabina quraşdırılmışdır. Külək turbininin *3* növ pəri mövcud olmuşdur.

Külək qurğusunun istismar sınaqları iki rejimdə aparılmışdır: 19 və 30 döv/dəq-də. Eyni zamanda, külək təsərrüfatının 30 döv/dəq ilə işləmə rejiminin daha sərfəli olduğu müəyyən edilmişdir. İllik enerji istehsalı orta hesabla 280 min

kilovat-saat, külək enerjisindən istifadə əmsalı isə 0,32 səviyyəsində idi.



Şek. 5.20. 100 kVt gücündə olan Balaklava külək stansiuasının ümumi görünüşü [61]

1935-ci ilin sonunda Moskvada, ümumi şəbəkə ilə paralel işləmək üçün 50 m diametrli külək çarxı və sinxron generator ilə təchiz olunmuş külək ferması layihə olunmuşdu (*şəkil. 5.21*). Fırlanma, külək çarxlarından generator üçün ötürümə əmsalı 1:25 olan iki pilləli ötürücü reduktor vasitəsilə ötürülürdü. Külək çarxının fırlanma surəti 24 dövr/dəq, generatorun isə 600 dövr/dəq təşkil etmişdir. Külək turbininin salonunda generator, hidravlik mufta, qoruyucu qurğular, start və və dayandırma üçün elektrik mühərrikləri ilə təmin olunmuşdur. Elektrik avadanlıqlarının bir hissəsi yarımstansiyada qüllənin bünövrəsində yerləşdirilmişdir.

Külək stansiyasının qoyuluş gücü 1000 kVt olmaqla, üç pərli və əvvəlki aqreqatlardan fərqli olaraq stabil tənzimlənmə sistemi ilə təmin olunmuşdur.

Stansiyda hündürlüyü 50 m qüllə 25X25 ölçülü bünövrənin üzərində quraşdırılmışdır. Qüllənin yuxarı hissəsinə qalxmaq üçün lift və qəza pilləkən quraşdırılmışdır. Qüllənin aşağı hissəsində isə əsas elektrik hissəsinin paylayıcı qurğusu yerləşdirilmişdir.



Şək. 5.21. Moskvada layihələndirilən KES ümumi görünüşü (1000 kVt) [61].

4500 kVt gücə malikm daha da güclü külək ferması Ukrayna Sənaye Enerji İnstitutu (USEİ) tərəfindən tərtib edilmişdir (*Şək. 5.22*) [64]. Hündürlüyü 150 m olan metal üçayaqlı bir qüllədə, bütün ötürücü mexanizmləri olan külək fermasının binasını daşıyan oturacaqlar üzərində fırlanan qaynaq olunmuş körpü quraşdırılmışdır. Külək çarxını küləyə qarşı döndərmək üçün körpünün qüllənin oxu ətrafında fırlanması avtomatik olaraq həyata keçirilrdi. Qurğu diametri 80 m olan külək çarxı metal konstruksiyalı dörd qanaddan ibarətdir. Əsas val elastik bir muftanın köməyi ilə dişli ötrücüyə qoşulmuşdur və bu ötrücü dövrlər sayının dəqiqədə 18-dən 612-ə qədər artırmaq imkanına malik olmuşdur. Dişli ötürmə hər biri

2250 kVt gücə malik iki üç fazalı cərəyan generatorunu fırladır. Generatordan, cərəyan sürüşmə kontaktlatrından kabel vasitəsilə yarımstansiya binasına yönəldilir. Tənzimləmə, yağ servomotoru vasitəsilə həyata keçirilir.



Şək. 5.22. USEİ tərəfindən layihələndirilən gücü 4500 kVt olan KES-nin ümüumi görünüşü [64]

Şək. 5.23-də Yu.V Kondratyuk (A.I. Shargey) tərəfindən hazırlanmış külək stansiyasının ümumi görünüşünü təqdim edir. İki külək turbini eyni qüllənin üzərində yerləşir. Hər biri dörd pər (*şəkil 5.24*) ilə 80 m diametrli bir külək çarxına malikdir. Hər bir külək çarxında sürəti 20-dən 600 dövr /dəqiqəyə qədər artıran bir hidravlik multiplikator, üç fazlı cərəyan generatoru və idarəetmə və tənzimləmə mexanizmləri dəsti mövcuddur. Aşağıdakı qurğu yerdən 65 m hündürlükdə, yuxarıdakı isə qüllənin yuxarı hissəsində, 158 m yüksəklikdə yerləşir.

Hər iki qurğu üçün ümumi olan paylayıcı qurğular və şitlər aşağı hissədə əlavə quraşdırılmış maşın zalında yerləşir. Buradan, 6000 V gərginlikli cərəyan, küləyin istiqamətindən asılı olaraq, bünövrə üzərində döndüyündən, xüsusi dairəvi cərəyan kollektorlardan istifadə olunur.

İş rejimində külək çarxı sərt şəkildə bərkildilmiş əsas valı döndərir. Külək sytansiyası külək sürəti 6 m / s-dən işləməyə başlayır və. 16.5 m / s sürətində 7000 kVt gücə, 20.3 m / s sürətdə isə 10 min kVt gücə sahibdir.



Şek.5.23. Külək stansiyasının ümumi görünüşü Yu.V. Kondratyuk (A.I. Shargei): 12,000 kVt

1936-cı ildə Krımdakı Ai-Petrinskayada, vahidinin qoyuluş gücünə görə Dünyada bu günə qədər analoqu olmayan 12 MVt gücündə külək qurğusunun inşasına başlanıldı. Onun gücü ilk Sovet eksperimental nüvə stansiyasının gücündən demək olar ki, iki dəfə çox idi. Bu layihə bu gün bütün dünya mütəxəssislərinin peşəkar maraq mövzusudur. Təəssüf ki, külək enerjisinin inkişafına o dövrlərdə rəhbərlik edən G.K. Orjenikidzenin ölümündən sonra külək fermasının inşası dayandırılmışdı [64].

Artıq qeyd edildiyi kimi, 19-cu əsrin sonlarına qədər ABŞ-da elektrik enerjisi istehsal etmək, suyu yüksəkliklərə qaldırmaq və digər işləri yerinə yetirmək üçün istifadə olunan 8 milyondan çox kiçik külək turbinləri inşa edilmişdir. Bununla yanaşı, bu qurğuların əksəriyyəti 1930-cu ildən başalayaraq ABŞ-ın əksər

tələbatçılarının bilavasitə enerji sistemindən mərkəzləşdirilmiş qayadada təmin edildiyində görə, onların fəaliyyəti dayandılımağa başlanıldı.

ABŞ-da külək enerjisinin inkişafına ən əhəmiyyətli töhfə "Smis-Putnam" külək fermasının yaradılması olmuşdur [65].

1930-cu ildə həyata keçirilən külək turbinləri ölçülərinin onun səmərəliliyinə təsirinin uzun sürən araşdırmalarından sonra Masakuses Texnoloji İnstitunun 1924 –cü il məzunu, mühəndis Putnam belə nəticəyə gəldi ki, istehsal olunan elektrik enerjisinin maya dəyərinin minimuma endirmək üçün böyük ölçülü külək turbinlərinə keçidi təmin etmək tələb olunur. Bu məqsədlə, məşhur aerodinamik Karmanın iştirakı ilə şəbəkədə işləmək üçün yüksək güclü külək turbinini hazırladı. Turbinin İstehsalı "S. Morgan Smith Company" (York, PA), sinxron generator isə "General Electrik" şirkəti tərfindən hazırlanmışdır. Qeyd edək ki, Putnam Balaklavada quraşdırılmış 100 kVt turbin haqqında məlumat əldə etmişdir və bu onu daha güclü qurğunun hazırlanması üçün böyük stimul vermişdir [66].

Külək qurğusu 1940-cı ilin əvvəllərində hazırlandı və sınaqdan keçirildikdən sonra 1941-ci ildə yerli elektrik şəbəkəsinə qoşuldu. Şəbəkə Rutland, Vermont yaxınlığında, Grandpas dağının zirvəsində, dəniz səviyyəsindən təxminən 610 m yüksəklikdə yerləşirdi (*Şəkil 5.24*).

Külək turbinin qülləsinin hündürlüyü *36 m* olmaqla beton təməldə təqribən *7 m* dərinliyə qoyulmuş bir polad torda quraşdırılmışdır. Diametri *53 m* olan iki pərli külək çarxının uzunluğu *20 m* və eni *3,7 m* təşkil edirdi. *14 m / s* külək sürətində turbinin gücü *1250 kVt*-a çatırdı. Külək çarxı *28.7 dövr/dəq* sürətlə fırlanırırdı.

Turbinin külək istiqamətinə tənzimlənməsi hidravlik mexanizm tərəfindən həyata keçirilirdi. Külək turbinini elektrik mühərriki ilə idarə olunan əyləc cihazı ilə dayandırılırdı.

1941-ci ilin oktyabrından 1945-ci ilin martına qədər bu külək elektrik stansiyası *360 min kVt / saat* istehsal etdi. Bu dövrdə cəmi 1010 saat işlədiyi, bunun 838 saatı elektrik sistemi ilə paralel olaraq orta hesabla 431 kVt güclə fəaliyyət göstərmişdir. 1945-ci ilin mart ayında külək turbinində 7 ton ağırlığında olan külək turbininin pərinin qırılması nəticəsində, qurğu fəaliyyətini dayandırmaq məcburiyyətində qaldı



Şək. 5.24. BƏC "Smit3Putnem" KES-in ümumi görünüşü (1250 kVt) [66].

Qəza, idarəetmə sisteminin qeyri-kafi layihəsi səbəbindən baş vermişdi. Qəza II Dünya Müharibəsi dövründə baş verdiyindən təmir üçün lazımi material və işçi qüvvəsinin çəlb edilməsi mümkün olmadığna görə, külək quğusunu bərpa etmək mümkün olmadı və qurğu öz fəaliyyətini dayandırdı.

Qeyd edək ki, ötən əsrin 80-ci illərində qədər ikinci böyük güclü külək turbini quraşdırlmamışdır.

O dövrdə aparılan iqtisadi hesablamalar, bərpa olunan külək turbininin ənənəvi elektrik qurğuları ilə rəqabət dözə bilmədiklərinə görə, külək turbinlərindən imtina olundu. Buna baxmayaraq, Grendpass dağındakı külək turbini qlobal külək enerjisinin inkişafında mühüm mərhələ oldu.

XX əsrin 70-ci illərində məlum enerji böhranının başlanğıcına qədər dünyanın qalan hissəsində kiçik güclü külək elektrik stansiyaları fəaliyyət göstərirdi.

5.3.3. Külək qurğularının növləri

Külək qurğularının növləri ilə bağlı qeydlərə keçməzdən əvvəl, külək enerjisinin gücü ilə bağlı qısa məlumat vermək oxucular üçün faydalı olar.

Mlumdur ki, küləyin orta sürəti yer səthindən hündürlük artıqca artır, bu o deməkdir ki, güc də artır. Məsələn, hesablamalara görə yerdən 20 metr yüksəklikdə, güc 5 m hündürlükdə mövcud olandan təxminən 22% çoxdur. 1 m^3 havanın kinetik enerjisi (joulla) $0.5pv^2$-ə bərabərdir, burada p - hava sıxlığı (səthdə təxminən 0,12 kq / m^3), v - küləyin orta sürəti (m / s).

Külək gücü (vattla) külək enerjisinin bir məhsuludur, küləyin istiqamətinə perpendikulyar olaraq yerləşən pərlərin sahəsi (A, m^2 ilə) və küləyin sürətinin kubu ilə mütənasibdir ($0.5pAV^3$). Küləyin gücü küləyin orta surətinin kubu ilə mütənasib olaraq artdığına görə, sürəti ikiqat artıraraq mövcud gücünü səkkiz dəfə artırmaq olar. İlk dövrlərdə nisbətən ağır və zəif qurulmuş külək dəyirmanlarının işləməsi üçün ən az 25 km / saat (7 m / s) sürətlə əsən küləklər lazım idi. Daha aşağı sürətlərdə onlar yalnız yavaş dönürdülər, lakin küləyin sürəti 10 m/s çox olduqda pərlərin sahəsinin azaldırlması məcbuiriyyəti yaranırdı, daha yüksək surətlərdə sahənin azaldılması davam etdirilməli idi. Bu səbəbdən külək aqreqatlarını yalnız məhdud külək dəhlizli gündəlik faydalı iş saatları 5-7 saat təşkil edirdi.

Bütün bu amillər daimi güclü küləklər olan yerlərin üstünlüyünə səbəb oldu. Daha səmərəli, çevik olan güc dəyirmanları yümüşaq ötürmə və yaxşı yağlama sistemləri külək qurğularının işləmə saatının sutka ərzində 10-12 saata

qaldırmağa imkan verdi. Sənaye dövründən əvvəl cəmiyyətlər yalnız yer səthinə yaxın əsən külək axınlardan istifadə edə bilirdilər, və əksər dəyirmanların qanadları 10 metrdən az idi. Külək axınları zaman və məkana görə böyük dəyişkənliyə malik olduqlarına görə, hətta əlverişli ərazilərdə küləyin orta illik sürəti 30% dəyişdiyini nəzərə alaraq, qurğuların yalnız 30-50 metr yerinin dəyişməsi küləyin orta surətinin azalma və ya artması ilə müşahidə olunur.

Qeyd etmək yerinə düşər ki,heç bir qurğu küləyin bütün enerjisini mənimsəyə bilməz, əks halda bu tamamilə külək axınlarının dayandırılmasını ilə nəticələnə bilərdi. Alman mühəndisi Albert Betz-in 1919-cu ildə dərc etdiyi nəzəriyyəyə əsasən, maksimum külək axınının kinetik enerjisinin 60% -i mexaniki enerjyə çevirilə bilər [67]. Real səmərəlilik sənayedən əvvəlki dövrdə quraşdırılmış külək qurğuları üçün 20-30% təşkil etmişdir. XVIII əsrin qüllə dəyirmanı 20 m diametrli bir pərlə, küləyin 10 m / s sürətində nəzəri gücü təqribən 189 kVt olmasına baxmayaraq, real əldə olunan güc 50 kVt-dən az enerji təşkil etmişdi.

Ötən dövr ərzində çox sayda külək generatorları hazırlanmışdır. Fırlanma oxunun külək axının istiqamətinə nəzərən yerləşməsindən asılı olaraq külək generatorlarını aşağıdakı kimi təsnif etmək olar [68, 69, 70]:

- külək axınının istiqamətinə paralel və ya perpendikulayar, üfüqi fırlanma oxu ilə, yəni pərlər yerləşdirilən ox yer səthinə paralel yerləşdirlir;
- külək axınının istiqamətinə perpendikulyar, şaquli fırlanma oxu ilə, yəni pərlər yerləşdirilən ox yer səthinə perpendikulyar çəkildə yerləşdirlir.

Həmçinin, külək enerjisini, hər hansı hərəkət edən mexanizm tətbiq etmədən, elektrik enerjisinə çevirən qurğular işlənmişdir. Bunlara, məsələn, Tomsonun termoelektrik effekti əsasında qurulan külək axınında soyudulma prosesini göstərmək olar. Elecə də, əgər mexaniki enerji birbaşa digər növ enerjiyə,

məsələn su sistemlərində, kənd təssərüfatı məhsullarının emalı üçün tətbiq olunursa, onda bu qurğular *külək dəyirmanları*, elektrik enerjisinə çevirildikdə isə *külək generatoru* adlandırılır.

Üfüqi fırlanma oxu olan külək turbinləri (ÜOKT) külək enerjisini çevirmək üçün qaldırma güc və ya müqvimət gücündən istifadə edə bilər (*şəkil 5.25*).



Şəkil 5.25. Üfüqi fırlanma oxlun külək turbini (Source: Adapted from National Energy Education Development Project (public domain)

Baxmayaraq ki, ÜOKT-dan fərqli olaraq, şaquli oxlu külək turbinləri (ŞOKT) əsrlər boyu mövcud olmuşdur, onların ümüumi cəhətləri demək olar ki, yoxdur. Bunun da əsas səbəbi onunla bağlıdır ki, ŞOKT-da küləyin surətinin aqreqatın gücünə

təsiri ÜOKT-ə nisbətən daha azdır. Bu səbədən, üfüqi fırlanma oxlu turbinləri daha çox tətbiq olunmuşdur.

Pərlər yerləşdirilən fırlanma oxu yer səthini paralel olmaqla yanaşı, ox külək axınına paraleldir.

Bəzi ÜOKT küləyin qaldırma modulunda (up-wind, rejimində) işləmək üçün nəzərdə tutulmuşdur (qüllənin pərləri birbaşa küləklə qarşılaşır) (*şəkil 5.26. a*) [68]. Külək turbinlərinin konstruksiyasında istiafdə olunan bu üsul küləkdən enerji əldə olunmasının daha effektivlisi hesab olunur.



a) *b)*

Şəkil 5.26. Üfüqi fırlanma oxlu (a) və şaquli fırlanma oxlu külək turbini [68]..

Belə ki, bu yanaşmada qüllənin arxa hissəsinin külək kölgəsinin qarşını alınmaqğa imkan verir.Bununla yanaşı, külək kölgəsi qüllənin qabaq hissəsində yaranır. Bunun qarşısının alaınması məqsədilə, rortoru qüllədən uzaqlaşdırmaq tələb olunur ki, bu da böyük vəsait tələb edir.

Bu tip turbinlər hazırda iki- və üç-pərli konstruksiyada olmaqla daha çox tətbiq olunmaqdadır. Bunların qülləsinin hündürlüyü 120 metrə çatdırılmışdır. Böyük külək turbinlərində maşının külək istiqamətinə reaksiyasını təmin etmək üçün motorlu mexanizmlərdən istifadə olunur. Kiçik güclü külək turbinlərində bu funksiyanı quyruq çubuğu yerinə yetirir.

Digər külək turbinləri endirmə (down-wind) rejimində işləyirlər ki, bu halda külək pərləri küləyə müqavimət göstərmirlər, buna görədə külək faktiki olaraq pərlərin arxa hissəsi ilə qarşılaşır (zərbə endirir) və onu hərəkət etməyə məcbur edir (*şəkil 5.26. b*) [68]. Bu üsul rotorun daha çevik hazırlanmasına və bunun nəticəsində, külək kölgəsini azlatmağa və daha yüngül modelin hazırlanmasına imkan verir. Eyni zamanda, külək birbaşa külək kölgəsindən əsdiyinə görə, küləyin gücü dəyişkən olur və bu konstruksiya külək kölgəsini azaltmağa imkan versə də, aşağı təzyiqli belə turbinlərdə külək kölgəsi hələ də kifayyət qədər yüksəkdir.

Diffuzor-Artırılmış (Diffuse-Augmented) külək turbinləri kimi də tanınan üfüqi oxlu kürəkli turbinlər, sistemdəki hava axını artıran bir üzük şəklində ayrodinamik örtüyündə yerləşirlər (*şəkil 5.27*) [68]. Bu layihə ayrodinamik örtükdə yaranan hava axınının artması səbəbindən üfüqi oxlu külək turbinlərinin gücünü 5 qat artıra bilər. Pərlər ayrodinamik örtüklə örtüldüyünə görə, turbinlərdə turbulans və səs-küy də azalır. Lakin, bunlar çox bahalı turbinlər hesab olunur və müasir, yüksək sürətli turbinlərlə rəqabətdə uduzurlar.



Şəkil 5.27. Kürəkli ÜOKT [68].

Külək çarxı fərqli sayda pərlə icra oluna bilər; əks çəkili yükü olan bir-pərlidən çox-pərli olan (pərlərinin sayı 50 və ya daha çox) külək generatorlarına qədər. Üfüqi fırlanma oxu olan külək çarxları bəzən istiqamətə görə fiksasiya olunur, yəni küləyin istiqamətinə perpendikulayr olan bir şaquli oxda dönə bilmirlər. Bu tip külək generatoru yalnız bir istiqamətdə üstünlük təşkil edən külək istiqaməti olduqda istifadə olunur.

Əksər hallarda, külək çarxlarının quraşdırıldığı sistem (başlıq adlandırılan) dönər, küləyin istiqamətinə yönəldilmişdir. Kiçik külək generatorlarında, quyruq lələkləri ümumiyyətlə bu məqsəd üçün istifadə olunur; böyük külək generatorlarında idarəetmə sistemləri istiqaməti yönəldir.

Şaquli fırlanma oxlu külək generatoru. Belə rotorlar ÜOKT-nə nisbətən vacib üstünlüklərə malikdir. Belə ki, ŞOKT-ı üçün küləyə istiqamətləndirmə



Şəkil 5.28. Savonius turbinlərinin: a) bütöv pərli, b) bölünmüş pərli [68].

cihazlarına ehtiyac olmur, layihə sadələşdirilir və pərlərdə, ötürmə sistemində və digər elementlərində əlavə gərginliyə səbəb olan hidroskopik yük azalır. Eyni zamanda, ŞOKT, onların layihəsi ilə bağlı olaraq effektivliyi (frılanma surəti)

ÜOKT-nə nisbətən aşağı olduğuna görə daha az tətbiq olunmuşdur.

Bu cür qurğulara plitələr, kubok şəklində və ya turbin elementləri olan qurğular, həmçinin qaldırıcı qüvvə təsir edən *S* şəkilli pərləri



a)

b)

Şəkil 5.29. Dariye turbini:
a) layihəsi
b) Kavbek, Canadada quraşdırılmış böyük güclü Dariye turbini [73].

olan *Savonius rotorları* (*şəkil 5.28*) daxildir. Bu tip qurğularda böyük başlanğıc momentə, lakin adi rotorla müqayisədə daha aşağı sürət və gücə malikdir [71, 72].

1920-ci ildə Fransada, Dariye 1970-ci ildən başlayaraq üzərində intensiv şəkildə işləməyə başladığı ŞOKT-un yeni bir rotor növü təklif etdi [73]. Hazırda *Dariye külək generatoru* qanad tipli külək generatorlarının əsas rəqibi hesab edilə bilər (*şəkil 5.29)*

Dariye rotoru, qanadın profilinin eninə kəsiyində movcud olan qabarıq pərlərdə qaldırıcı qüvvədən istifadə edən külək

generatorlarına aiddir [73,74]. Rotor nisbətən kiçik başlanğıc momentinə malikdir və buna görə yüksək sürət, kütlə və ya dəyərə düşən xüsusi güc böyük olur. Belə rotorlar bir, iki və ya daha çox fərqli pər formalara (Φ-, Δ-, Y- və romb şəkilli) malikdir. Turbinin pərləri yüngül və eyni zamanda kifayət qədər möhkəm olmalıdır. Onlar ağac, polad və ya optic - şüşə kimi süni materiallardan hazırlanır.



Şəkil 5.30. Giromil ŞOKT-nin görünüşü [68].

ŞOKT-in bir növü, *Giromil tipli külək turbinləridir (şəkil 5.30)* . Onlar, ümumiyyətlə mərkəzi oxa birləşdirlmiş iki və ya üç şaquli aerodinamik pərlərlə icra olunur. Giromill turbinləri qiymətcə ucuzdur və turbulent külək şəraitində yaxşı işləyir, lakin enerji istehsalına görə ÜOKT ilə rəqabət qabiliyətli deyil [68].

Şəkil 5.31-dən göründüyü kimi, ŞOKT-nin növlərindən biri olan *çırpma panelli turbinlərin* pərlərinə külək istənilən istiqamətdən daxil ola bilər. Bu halda külək turbini eyni şəkildə fəaliyyət göstərəcək [68].

Hazırda, yuxarıda qeyd olunanlarla yanaşı, hər gün yeni dizaynlı turbinlər təklif olunur, hətda pərsiz külək turbinlər belə hazırlanmışdır. Lakin, global güclü rəqabət mühitində, yalnış iqtisadi cəhətdən daha effektiv olan qurğular "yaşamağa vəsiqə" alır.

Şəkil 5.31. Çlrpma panelli ŞOKT

Müasir külək generatorları daha məhsuldardır. İstehsal olunan elektrik enerjisinin miqdarı küləyin gücü və pərlərin sahəsi ilə düz mütənasibdir. Məsələn, pərlərin sahəsini ikiqat artırmaqla dörd qat daha çox elektrik enerjisi hasil edə bilərik.



Kiçik və orta ölçülü külək turbinləri adətən ada və ya kiçik ucqar yaşayış məntəqələrini elektrik enerjisi ilə təmin olunmasında istifadə olunur. Məsələn,ABŞ-da Massachusetts sahillərində yerləşən Cattihank adasında bir külək generatoru iki

yüz nəfərin - adanın bütün əhalisini təmin etmək üçün kifayət qədər enerji istehsal edir.

Hazırda ABŞ, ÇXR Böyük Britaniya, Danimarka və Kanadada vahidinin gücü 9 MVt-dən çox elektrik gücü olan külək turbinləri istehsal olunur. Dünyanın ən böyük külək generatoru; Vestas şirkəti tərəfindən hazırlanan vahidinin gücü 9,5 MVt təşkil edən V164 tibli külək turbini hesab olunur [75]. GE şirkəti vahidinin gücü 12 MVt olan Haliade – X tipli dəniz və okean sularında quraşdırıması üçün dünyanın ən böyük külək turbinini təqdim etmişlər [76]. Bu turbinin hündürlüyü 260 metr, rotorunun diametri isə 220 metr təşkil edir. Belə bir ədəd aqreqat orta hesabla il ərzində 67 miliyon kVts elektrik enerjisi istehsal etməyə imkan verir.

Eyni zamanda, qeyd etmək lazımdır ki, külək energetikasının vahidinin gücünü artırmaq yolu ilə inkişaf etmə ehtimalı azdır. Əksinə, gələcək istehsal və istismar üçün daha rahat olan orta ölçülü turbinlərə aiddir. Müasir külək generatorlarının nə qədər böyük və güclü olmasına baxmayaraq, onlar hələ də böyük şəhərlərin ehtiyaclarını tam ödəyə bilmirlər. Kiçik külək parkları dünyanın bir çox ölkələrində uğurla fəaliyyət göstərir. ABŞ-da, məsələn, bir çox fermanın və kiçik şəhərlərin əlçatmaz ərazilərində yerləşdirilməsi üçün 1,5 kVt--lıq külək generatorunun inşası ciddi şəkildə təşviq olunur. Almaniyadakı Şimali Fris adalarından birində uzun illərdir dəniz suyunu duzsuzlaşdıran qurğu fəaliyyət göstərir və hətta Pelvorm adasında fərqli külək turbinlərinin sınaqları üçün bir sınaq sahəsi yaradılmışdır. Təcrübə göstərir ki, onlardan istifadə dizel mühərriklərindən istifadə ilə müqayisədə 4 dəfə, suyu maşınlarla daşınmasından isə 10 dəfə ucuzdur.

Yuxarıda qeyd olunanlarla yanaşı, küləyin gücünün qeyri – sabit olması, davamlı elektrik enerji təchizatının təmin olunmsı üçün onun akumlyasiya olunmasının tələb edir. Lakin,

mövcud akumlyasiya sistemləri kifayət qədər bahalı olduğuna görə kiçik güclü külək turbinləri üçün daha effektli hesab olunur. Bu səbədən külək enerjisini istehsal olunan məhsulun özündə akumlyasiya etmək daha məqsədəuyğun hesab olunur. Bütün bunlar, məhz külək turbinlərinin kənd təssərüfatı sahələrində tətbiqinin effektivliyini artırır.

Külək turbinlərinin üstünlüklərindən biri də odur ki, onlar bizim ehtiyaclarımıza uyğun (unison) olaraq hərəkət edirlər. Məlumdur ki, Dünyanın əksər bölgələrində ən güclü küləklər adətən payızda və qışın əvvəlində - insanın ən çox işıq və istiliyə ehtiyac duyduğu zaman müşahidə olunur. Əksinə, sakit küləklər - əsasən yayda – nisbətən az enerji istehlakı dövrlərinə təsadüf edir (təbii ki, məişət istehlakı haqqında danışırıq). Ancaq bu və digər üstünlüklər əsas çatışmazlığa nisbətən solğun görünür: külək turbininin gücünü artırmaq üçün pərlərin ölçüsünü artırmaq, yəni konstruksiyanın çəkisini daha da artırmaq tələb olunur. Bu halda, külək generatorunun işləməsi üçün daha da böyük külək sürəti tələb ediləcəkdir, yəni qurğunun tətbiq sahələri daralacaqdır.

5.3.4. Külək turbinləri texnolojiyasının inkişaf etdirilməsində elmin töhfəsi

İlkin mərhələdə külək turbinlərinin inşaası yalnız uzun illər əldə edilmiş təcrübəyə əsaslanırdı. Mütəxəssislər sonrakı nəsillərə kitablar vasitəsi ilə deyil, praktiki işlərlə öyrədirdilər. Qurğuların forma və sınaq metodlarının təkmiləşdirilməsi, hər hansı bir uğurun əldə olunması başqalarına nümunə olurdu və tədricən təcrübə bazasını zənginləşdirirdi.

XVIII əsrdə Avropada maşınqayırma istehsalı sahəsinin meydana gəlməsi elmin və ixtiranın inkişafına təkan verdi, küləkdən istifadə probleminin həllində elmi yanaşmanın meydana gəlməsinə şərait yaratdı.

Təcrübələrdən nəzəri nəticələrə keçid XVIII əsrin əvvəllərinə təsadüf edir. Yer atmosferinin xassələri havadakı cisimlərin hərəkətinə güclü təsir göstərdiyindən XVIII əsrin ortalarında böyük rus alimi M.V. Lomonosovun (1757-1765) atmosfer fizikası və meteorologiya sahəsindəki tədqiqatları küləyin istifadəsi probleminin həllində mühüm addım oldu [77, 78, 79, 80]. XIX əsrin sonlarında meteorologiyada riyazi və təcrübi metodların tətbiqinin təşəbbüskarı, Peterburq Elmlər Akademiyasının müxbir üzvü A.V. Klossovskinin (1846–1917) təşəbbüsü ilə Rusiyada artıq meteoroloji müşahidə şəbəkəsi fəaliyyət göstərirdi. Külək turbini nəzəriyyəsinin daha sistemli bir şəkildə meydana çıxması da bu dövrə təsadüf edir [81].

Elm və texnikanın sonrakı inkişafı üçün N.E. Jukovski (1847–1921), S.A. Çapliqin (1869-1942), L. Prandtl (1875-1953) və bir çox digər mexanika üzrə alimlər qanad, hava vinti və sərhəd təbəqəsi nəzəriyyəsi (1904, 1905, 1910) həlledici əhəmiyyətə malik olmuşdu [82, 83].

1905-ci ildə N.E. Jukovski, qaldırıcı qüvvənin meydana gəlməsi mexanizmini kəşf etdi və məşhur "Bağlı şüalar üzərində" əsərində bu qüvvənin kəmiyyətcə təyin olunması üçün teoremi isbat etdi. Bu tədqiqatlar bir elm olaraq aerodinamikanın əsasını qoydu.

Təcrübə (eksperimental) metodunun geniş miqyasda mexanikaya tətbiqi N.E. Jukovski və K.E. Tsiolkovskinin (1857–1935) böyük xidmətləri olmuşdur. Rusiyada ilk olaraq külək tunelləri yaradıldı.

902-ci ildə N.E. Jukovski Moskva Universitetində Avropada ilk sorma tipli külək tunellərindən birini inşa etdi. 1910-cu ilə qədər dünyada ilk üç aerodinamik institut fəaliyyət göstərdi - Romada, Amerikada və Rusiyada.

N.E. Jukovsky və S.A. Chaplygin əsərlərinin 1910-cu ildə meydana çıxmasından sonra qanad nəzəriyyəsinin sürətli inkişaf dövrü başlayır [68,69].

Serqey Alekseevic Çapılqin (1869–1942)

N.E. Jukovskinin "Bağlı çuxurlarda" və "Təyyarələrin dəstəkləyici səthlərinin konturlarında", S.A. Chaplyqin "Tıxanan cisimlərə təyyarə-paralel axının təzyiqi haqqında" və "Monoplan qanadının ümumi nəzəriyyəsi haqqında" işləri mahiyyətcə qanad profilinin sıxılmayan qazda işləməsi haqqında bütün əsas məlumatları ehtiva edir.

Elmin bu qədər sürətli inkişafına səbəb olacaq və uzun illər aerodinamikanın mərkəzində Jukovski və Çapliqinin olmuşdur. Qanad və vint nəzəriyyəsi ilə bağlı bütün araşdırmalar bir növ bu işlər ilə bağlı olmuşdur.

1912-ci ildə N.E. Jukovski tərəfindən "Aeronavtikanın nəzəri əsasları" əsəri nəşr olundu. Kitab xarici alimlər tərəfindən yüksək qiymətləndirilmiş və 1916-cı ildə Parisdə fransız dilinə tərcümə edilmişdi.

Aviasiyanın inkişafı, bunun böyük uğuru aerodinamikanın yaradıcısı, ən böyük rus alimi N.E. Jukovski, külək enerjisindən istifadənin nəzəri məsələlərini yeni şəkildə həll üçün şərait yaratmışdı.

1914-1918-ci illərdə. N.E. Jukovski və tələbələri V.P. Vetchinkin, G.X. Sabinin, N.V. Krasovski, G.F. Proskura və başqaları ilk dəfə külək turbinlərinin nəzəriyyəsini yaratdılar.

Təyyarənin qanad və vint nəzəriyyəsi və sınaqları, külək çarxından hava axını nəticəsində baş verən hadisələrin öyrənilməsinə tətbiq olunmuşdu.

İdeal külək çarxı nəzəriyyəsi ilk dəfə 1914-cü ildə V.P. Vetkinkin (1888-1950) ideal vint nəzəriyyəsinə əsaslanmışdır. Bu işdə, O, ideal külək çarxının külək enerjisindən istifadə əmsalı anlayışını əsaslandırmışdı.

Nikolay Eqoroviç Jukovski (1847-1921)

1920-ci ildə N.E. Jukovski "NEC tipli külək dəyirmanı" nəzəriyyəsini ortaya qoydu. Oxşar nəzəriyyələr sonradan digər alimlər tərəfindən də hazırlanmışdır.

N.E. Jukovskinin ideal külək turbinlərinin nəzəriyyəsi klassik nəzəriyyə adını aldı. Bu nəzəriyəyəy uyğun olaraq o, külək enerjisindən ideal bir külək çarxı ilə istifadənin maksimum əmsalı 0,593 olduğunu təyin etdi [84].

Praktik tətbiq nöqteyi-nəzərindən daha dolğun olan ideal külək çarxı nəzəriyyəsi professor G.X. Sabinin tərəfindən işlənildi.. Onun nəzəriyyəsinə görə, külək enerjisinin bir külək çarxı ilə maksimum istifadəsi 0.687 təşkil edir [85, 86, 87].

Dünyada külək turbinləri aerodinamikası ilə məşğul olanlar az idi: Almaniyada Göttingen aerodinamik və sınaq laboratoriyasının müdiri doktor Albert Betz və Ştutqart Universitetinin professoru Ulrich Hütter [88] və ABŞ-da məşhur aerodinamik Teodor fon Karman (1881-1963) [89].

W. Hutter, külək enerjisi sahəsində onlarla ixtiraya patent aldı və onlarla elmi məqalə və məruzə nəşr etdirdi. Pərlərə tüstü bomba və ya iz qoyan eksperimentlər texnikasını inkişaf etdirdi.

və ilk dəfə tədqiqatda tətbiq etdi. Bir külək pərinin birinin sonluğunda tüstü bomba işə salındıqda elektrik cərəyanı tərəfindən alovlanaraq dönmə müstəvisindən kənarda uzanan spiral tüstü izi tərəfə bir foto, film və ya video film çəkilmişdir (*şəkil 5.32*). Şəkillərin deşifrə edilməsi, bir hava qülləsində



Şek. 5.32. Külək təkərinin bıçaqlarından birinin ucuna quraşdırılmış tüstü bombalarının izi [88].

küləyin sürətinin qeydə alındığı zaman müəyyən nöqtələrdə külək çarxının səmərəliliyini qiymətləndirməyə imkan verdi [88].

Külək enerjisindən istifadənin nəzəri əsaslarının yaradılması ixtiraçıların və layihəçilərin işlərini gücləndirdi.

1925-ci ildə Fransada və 1926-cı ildə ABŞ-da Darie külək turbinini patentləşdirdi. 1926-cı ildə fin mühəndisi Savonius rotor və ya dönər külək turbinini hazırladı.

1930-cu illərin əvvəllərində, böyük güclü külək fermaası köhnə SSRİ-də ilk dəfə inkişaf etdirildi. Bundan əvvəl dünyada belə stansiyaların gücü 100 kVt-dan çox olmamışdı. 1932-ci ildə Yu.V. Kondratyuk (1897-1941, super güclü bir külək fermasının layihəsi üçün yarışmada iştirak etdi.).

1933-cü ilin aprel ayında külək təsərrüfatı layihələrinin müayinəsi Yu.V. Kondratyuk və Ukrayna Sənaye Enerji İnstitutunun dizayn layihələrinin qələbəsi ilə başa çatdı [64].

Sovet İttifaqında professor V.N. Andrianovun rəhbərliyi altında, külək təsərrüfatlarının qeyri-külək elektrik stansiyaları və enerji sistemləri ilə paralel işləməsinin əsas problemləri nəzəri cəhətdən inkişaf etdirilmiş və eksperimental olaraq təsdiq edilmişdir. Professor E.M Fateevanın rəhbərliyi altında aqreqasiyanın əsasları və külək turbinlərinin səmərəli işləmə metodları araşdırılmışdı.

XX əsrin 30-cu illərinin ortalarında dünya birliyi artıq külək turbinləri pərləri üçün yüksək keyfiyyətli aerodinamik profillərə sahib idi, bunlar da külək turbinlərinin müxtəlif modellərinin yaradılmasını mümkün etmişdi. Bu nailiyyətlər, bir sıra elmi qurumlar tərəfindən külək quğularının hesablanması və layihə üsullarının işlənib inkişaf etdirilməsi və dünya külək mühəndisliyinin inkişafı istiqamətində yaxşı bir zəmin yaratmışdı.

5.4. ƏTRAF MÜHÜT VƏ KÜLƏK ENERGETİKASININ PERESPEKTİVLƏRİ

Hazırda, ekoloji problemlər tədricən bəşəriyyətin əsas narahatlıqlarından birinə çevrildiyi zaman müxtəlif enerji mənbələrindən istifadə yalnız güc və iqtisadi səmərəlilik

baxımından deyil, ətraf mühitə təsiri baxımından da böyük əhəmiyyət kəsb edir.

İlk baxışdan, deyə bilərik ki, külək enerjisi tamamilə ekoloji cəhətdən təmizdir və təbiətə və insanlara zərər vermir. Həqiqətdə isə belə deyil. "Statista" agentliyinin məlumatına əsasən 2019-cu ilinin sonuna quraşdırılmış külək elektrik stansiyalarının ümumi gücü 650 GVt-ı ötmüş, qurğuların dünya üzrə sayı isə 340 min ədəddən çoxdur [90]. Bu yüz minlərlə külək turbinlərin formalaşdığı güclü külək parkları bir çox problem mənbəyinə çevrilmişdir: ağlasığmaz səs-küy yaratmaqla , radio və televiziya yayımlarına maneələr yarada bilir. Bundan əlavə, nəhəng qüllələr əksər hallarda quşların mövsümü miqrasiyasına mane olur. Əlbəttə ki, istilik elektrik stansiyalarının təbiətə vurduğu böyük ziyanla müqayisədə külək qurğuları tərəfindən yaradılan ziyanlar nəzərəçarpan səviyyədə deyil. Eyni zamanda, gələcəkdə tamamilə "təmiz" enerji əldə etmək istəyiriksə, külək turbinlərinin ətraf mühitə təsiri problemləri bu gün həll edilməlidir. Bu həllərdən biri və ən perspektivlisi - sahildən çox məsafədə açıq dənizdə (offshore) külək generatorları quraşdırmaqdır. Bu, təkcə təhlükəsizliyi deyil, həm də səmərəliliyi artıracaq, çünki okeanların geniş ərazilərində külək potensialı daha yüksəkdir. Əlbəttə, açıq dəniz sularında külək generatorlarının quraşdırılması və sistemə inteqrasiyası quruda tikilən stansiyalara nisbətən, orta hesbala iki dəfə çox kapital qoyuluşu tələb edir. Lakin, külək enerjisindən istifadə əmsalının təqribən 1,5 dəfə yüksək olması (>58 %) və ekoloji xərclər də nəzərə alınmaqla, offshore külək stansiyaları iqtisadi cəhətdən səmərəli hesab olunur [91].

Qeyd etmək yerinə düşər ki, Qlobal Külək Enerjisi Şurasının (GWEC – Global Wid Counsil) məlumatına əsasən təkcə 2019-cü ildə global səviyyədə offshore külək sənayesi 6,1 GW yeni generasiya mənbələri daxil edilmiş və bu ötən ilin müvafiq səviyyəsini 35 % üstələmişdir. 2020-ci ilin əvvəlinə dəniz və oken sularında quraşdırılan külək stansiyalarının

ümumi gücü artıq 29 GW-a çatdırılmışdır. Eyni mənbənin məlumatına görə 2024-ci ilə qədər əlavə 50 GW gücün istismara təhvil verilməsi planlaşdırılır [76]. Azərbaycan Respublikası Alternativ və Bərpaolunan Enerji Mənbələri üzə Dövlət Agentliyinin məlumatına əsasən, Xəzər dənizinin Azərbaycana aid hissəsində külək potensialı 10000 MVt-dan çoxdur və bu böyük həcmdə elektrik enerjisi istehsalı üçün əlverişli şərait mövcuddur.

Artıq qeyd edildiyi kimi, külək enerjisindən istifadənin əsas problemi küləyin qeyri – sabit olmasıdır. Külək olmayan günlərdə enerjisinin akumlyasiya olunmasının müxtəlif üsulları mövcuddur. Bunlardan ən sadəsi, biri digərinin aşağı hissəsində yerləşən iki su anbarı sistemini yaratmaqdır. Küləkli günlərdə istehsal olunan elektrik enerjisi aşağıda yerləşən su anbarından yuxarıya suyu vurmaq üçün istifadə edilə bilər. Külək generatorunun fəaliyyəti mümkün olmadıqda isə yuxarı su hövzəsində yığılan suyun enerjisindən istifadə etmək mümkündür. Bu halda su yuxarıdan aşağı hövzəyə daxil olacadır. Akumlyasiyanın başqa bir üsulu, suyun elektrolizi üçün külək enerjisindən istifadə olunasıdır - sudan hidrogen və oksigen istehsal olunur. Məlumdur ki, hidrogen hər hansı bir yanacağı əvəz edə biləcək ideal bir yanacaqdır. Yanma istiliyi təbii qazla müqayisədə 3,6 dəfə yüksəkdir. Küləkli günlərdə kifayət qədər hidrogen tədarük etsəniz, qaz boru kəmərləri ilə istənilən yerə nəql edilə və sonra istilik elementlərində istifadə oluna bilər. Bu texnolojiya ilə bağlı növbəti Fəsildə daha geniş məlumatlar təqdim olunur.

Aparıcı institutların hsablamalarına görə, yer kürəsinin ümumi külək enerjisi potensialı dünya üzrə illik elektrik istehlakından təqribən 30 dəfə yüksəkdir. Əlbəttə, bütün bu enerji ehtiyatından istifadə edilə bilməz. Normal külək turbinləri üçün hava axınının sürəti orta hesabla *3 m / s*-dən az və *50 m / s*-dən çox olmamalıdır. Bununla birlikdə küləyin maksimal sürəti daha yüksək ola bilər. Amerikalı mühəndislər

karusel kimi fırlanan şaquli rotorlar olan generator hazırlanmışdır. Səmərəliliyi baxımından pərli generatorlarından təxminən üç dəfə üstündür və hətta qasırğa küləklərinə də dözə bilir [92-97]. Göründüyü kimi, texnologiyanın inkişafı ilə daha qabaqcıl layihələr ortaya çıxacaq. Çox güman ki, texnologiya külək turbinlərinin vahidinin qoyuluş gücünün artırılması istiqamətində inkişaf etdirilməyəcək. Gələcək kənd təsərrüfatı və kiçik yaşayış məntəqələrinin ehtiyaclarını qarşılayacaq gücü *5* ilə *100* kilovatt gücündə olan külək generatorlarına məxsusdur. Bununla yanaşı, mövcud enerji sistemlərinin bir hissəsi olaraq elektrik enerjisi istehsal edəcək daha güclü (15 meqavata qədər) stansiyalardan istifadə etmək imkanı mövcuddur. Bundan əlavə, külək enerjisi kübrə istehsalında, havalandırma üçün su anbarlarına göndəriləcək sıxılmış havanın istehsalında istifadə edilə bilər - sakinlər üçün lazım olan oksigen miqdarını artırmaq üçün.

5.5. GEOTERMAL ES

Bərpaolunan enerji mənbələri arasında onun istehsalı üçün olduqca spesifik və ekzotik üsullar mövcuddur. Hazırda daha çox tətbiq olunmuş günəş və küləkdən əlavə müəyyən şərtlərdə planetin daxili istilik ehtiyatları istifadə məqsədilə, geotermal elektrik stansiyaları (GeoES və ya GeoİES) yaradılır. Onların işi təbii isti su ehtiva edən yeraltı hövzələrdən gələn buxar enerjisinə əsaslanır. Başqa sözlə, bu tip elektrik stansiyalarında adi yanacaqla işləyən İES-dən fərqli olaraq, buxar generatorunun rolunu buxarlandırıcı-separator tipli istilik-güc aparatı yerinə yetirir. Bu aparatda temperaturu 80-100 ^{0}C-dən 160-200 ^{0}C-dək olan nəm buxar alınır. Bu buxarın axını turboaqreqatın pillələrindən keçərək kondensatora daxil olur. Daha sonra buxar kondensatı təsərrüfat ehtiyacları üçün istifadə olunur və ya su hövzələrinə atılır.

Yerin dərinliklərində suda toplanmış istilik enerjisi mürəkkəb mənşəyə malik olur və geoloji quruluşdan, eləcə də süxurların tərkibindən və maqmatik proseslərdən və s. asılı olur. Geotermal energetika üzrə məşhur mütəxəssis olan İ. M. Dvorovun nəzəriyyəsinə əsasən dərinlikdəki süxurların temperaturu təqribi olaraq aşağıdakı formula ilə hesablana bilər [98]:

$$t = \frac{t_h + (\mathrm{H} + h)}{\sigma}, ℃ \qquad (5.1)$$

Burada t_h - hər hansı bir bölgədəki hava temperaturu, ℃;

H – temperaturun müəyyənləşdirilməsi üçün dərinlik, m;

h – sabit temperatur təbəqəsinin dərinliyi, m;

σ - həndəsi pillə, yəni metr ölçü vahidinə əsasən dərinləşməyə müvafiq olan həcm. Dərinləşən hər bir metrdə temperatur 1℃ artır; dərinlik orta hesabla 33 metrə bərabər olur.

Planetimizin istənilən yerində müəyyən dərinliklərdə müxtəlif geoloji və iqlim xüsusiyyətlərindən asılı olaraq termal sularla zəngin olan dağ süxur təbəqələri yerləşir. Onların temperaturu və mineral tərkibi geniş diapazonda dəyişir. *Cədvəl 5.1*-də temperaturundan asılı olaraq bu suların xarakteristikası verilmişdir.

Bəzi yerlərdə yerin altından quyu boruları vasitəsilə 200 ^{0}C və daha artıq temperaturda qızışmış buxar çıxır. Lakin belə yerlər o qədər də çox deyil. Məsələn, Rusiya ərazisindəki Kamçatka və ya Kuril adalarını misal göstərmək olar.

Azərbaycan Respublikasında əksər termal suların temperaturu çox yüksək olmasa da onlardan istifadə perspektivli hesab olunur. Müxtəlif ərazilər üzrə termal suların temperaturu 30-110 °C arasında dəyişir. Ölkə üzrə ən perspektivli ərazilər Kür çökəkliyi, Qusar dağətəyi zonası və Abşeron yarımadası hesab edilir. Ümumilikdə ölkə üzrə termal suların potensialı 245.6 min m^3/gün həcmində qiymətləndirilir.

Azərbaycan ərazisində 11 geotermik zona mövcuddur. İlkin araşdırmalar bu zonalar üzrə termal sulardan istifadənin iqtisadi cəhətdən səmərəli olduğunu və ekoloji tarazlığın bərpa olunmasına mühüm rol oynaya biləcəyini göstərmişdir. Azərbaycan üzrə geotermal potensialın daha yüksək olduğu bir

Cədvəl 5.1

Termal suların xarakteristikası

Suların xarakteristi-kası	Temperaturu, ℃	Suların xarakteristi-kası	Temperatur, ℃
1. Soyuq:		**2.2.Potensiallı**	50 - 75
1.1.Həddən artıq soyuq	< 0	**2.3.Yüksək potensiallı**	75 - 100
1.2.Çox soyuq	0 - 4	**3. Yüksək termal:**	
1.3.Soyuq	4 - 20	**3.1.Zəif qızmış**	100 - 150
2. Termal:		**3.2.Çox qızmış**	150 - 250
2.1.Aşağı potensiallı	20 - 50	**3.3.Həddən artıq qızmış**	250 >

sıra ərazilər müəyyənləşdirilmiş və geotermal energetika sahəsində işlərin aparılmasının məhz bu ərazilərdən başlanması məqsəduyğun sayılır. Belə ki, Kürdəmir rayonu Carlı ərazisində və Xəzəryanı-Quba ərazilərində geotermal enerji yataqlarının enerji məqsədləri üçün uyğun olması barədə ilkin əsaslandırmalar mövcuddur. Ötən əsrin ikinci yarısında bu ərazilərdə qazılmış quyulardan çıxan suyun yer səthində temperaturu 80-85 °C olmuş lakin sonrakı dövrlərdə həmin quyular müxtəlif səbəblərdən istismardan çıxarılmışdır.

Ölkəmizdə geotermal enerjidən sənaye, kənd təsərrüfatı, məişət, kommunal sahələrdə və təbabətdə geniş istifadə olunma perspektivləri mövcuddur.

Termal sulara malik olan bir çox dünya ölkələrində bu enerji mənbəyindən kifayət qədər geniş istifadə olunur.

GeoİES-in texnoloji sxemi bir çox faktorlardan asılıdır: istilikdaşıyıcısının temperaturundan, onun minerallaşma və digər qatqılarla çirklənməsi səviyyəsindən, quyudan elektrik stansiyasınadək olan məsafədən, işlənmiş su tullantılarından istifadə olunmasından, istilik istehlakçılarının tələbatından və s. Bir çox ölkələrin (İtaliya, İslandiya, ABŞ) təcrübəsində üç növ istilik sxemindən istifadə olunur:

1. Bilavasitə təbii buxardan istifadə olunmaqla fəaliyyət göstərən GeoİES;
2. Buxaryaradıcı qurğulu GeoİES;
3. Ayrılmış buxarla işləyən GeoİES.

Bu sxemləri nəzərdən keçirmədən öncə qeyd etmək lazımdır ki, geotermal sular duzlarla və qazlarla zəngin olur. Buna görə də termal mənbələrin işlənməsində bu maddələrə qarşı dayanıqlı olan xüsusi metallardan və örtüklərdən istifadə olunması zərurətini yaradır.

GeoİES-in sxeminin birinci variantından quyudan (su-buxar qarışığı deyil) quru buxar çıxdığı zaman istifadə olunur. Lakin belə hallara (ən azı 1000 metrədək olan dərinliklərdə) çox az rast gəlinir. Belə sxem olduqca sadədir: müvafiq parametrlərə malik olan buxar (5-20 atm və 200-250 ^{0}C) bilavasitə turbinin axın hissəsinə daxil olur. İşlənmiş buxar qarışıq tipli kondensatora atılır, su-kondensat qarışığı isə yaxınlıqdakı su hövzəsinə və ya istifadə edilmiş quyulara axıdılır. Tərkibi minerallarla zəngin olan istilik daşıyıcısı turbinin detalları ilə (pərləri, diafraqmaları, labirint kipləşdiriciləri, qoruyucu və bağlayıcı klapanlarla, val və s. ilə) bilavasitə təmas etdiyi üçün onlar karroziya və erroziyaya məruz qalırlar. Sadə İES-lərdən fərqli olaraq bu stansiyaların turbinləri daha tez-tez təmizlik, profilaktika və təmir üçün dayandırılır. Bu işlər isə müəyyən xərclər və itkilər ilə əlaqədar olur. Lakin buna baxmayaraq belə

sxem elementar olaraq sadə və maliyyə tutumu cəhətdən az xərc tələb edən sistemdir.

GeoİES-in digər tipinin fərqləndirici xüsusiyyəti onun buxar alınma sxeminə malik olmasıdır. Burada buxar və su-buxar qarışığı bilavasitə quyunun yanında səthli istilik mübadiləsi qurğusunun borulararası hissəsinə daxil olur və buraya daxil olan qidalandırıcı suyu (müvafiq emaldan keçdikdən sonra) buxarlandırır. Alınan buxar turbinə, sonra isə eyni ilə qarışıq tipli kondensatora verilir. Kondensatın geriyə dövriyədə istifadə olunması üçün saxlanılması zərurəti yarandıqda tsikldə borulu kondensator tətbiq edilir ki, bu da soyuducu su ilə bağlı olan xərcləri əhəmiyyətli dərəcədə artırır.

Nəhayət, üçüncü tip GeoİES-lər digər iki stansiyadan onunla fərqlənir ki, burada geotermal suyun (flyuidin) çıxışında xüsusi nəmayırıcı qurğu quraşdırlır. Bu qurğunun vəzifəsi onun adında göründüyü kimi buxarı sudan ayırmaqdır. Daha sonra su (əgər digər məqsədlər üçün, məsələn, isitmə və ya texnoloji ehtiyaclar üçün istifadə olunmursa) su hövzəsinə və quyuya axıdılır. Aşağı parametrli (2-5 at və 100-120 ^{0}C) quru buxar isə turbinə yönəldilir. Bu buxarın kifayət qədər təmiz olmasını nəzərə alaraq ona xüsusi profilaktik tədbirlərin görülməsi tələb olunmur. Bu sxemlə XX əsrin 60-cı illərində inşa olunmuş Rusiyanın Kamçatka vilayətindəki Paujet GeoİES-i fəaliyyət göstərir. Bu bölgədə ümumi olaraq dərinliyi 220 metrdən 480 metrədək olan 21 quyu qazılmışdır. Bu quyuların hər birinin debiti saniyədə 10 kq flyuid, istilik tutumu 170 kkal/kq, temperaturu isə 150-dən 200 ^{0}C-dək təşkil edir.

FƏSİL VI

SABAHIN ENERGETİK İMPERATİVLƏRİ

GİRİŞ

Bu günə qədər dünya iqtisadiyyatının və energetika sektorunun gələcək inkişafının ehtimal olunan istiqamətlərinin qiymətləndirilməsinə həsr olunmuş çox sayda təhlillər mövcuddur.

Daha balanslaşdırılmış hədəf proqnozları, Birləşmiş Ştatların Prezident Administrasiyasının Enerji Məlumat Xidməti, beynəlxalq analitik mərkəzlər - Beynəlxalq Enerji Agentliyi – İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) Məsləhət və Analitik Mərkəzi, Neft İxrac Edən Ölkələr Birliyi (OPEK) Katibliyi, böyük beynəlxalq maliyyə təşkilatlarının analitik xidmətləri – Beynəlxalq Valyuta Fondu (İVF), Dünya Bankı, Avropa yenidənqurma və inkişaf Bankı tərəfindən hazırlanmış ixtisaslaşdırılmış məsləhət və təhlillər hökumət təşkilatları tərəfindən davamlı olaraq hazırlanır.

Yaxın gələcəkdə əlçatan, etibarlı və təmiz enerji mənbələrinə qlobal tələbatın artmağa davam etməsi, dünyada bir sıra ölkələrin aşağı karbonlu enerji sistemlərinə keçməsi tendensiyasını şərtləndirmişdi. Ehtimal olunur ki, hələ də neftə və təbii qaza olan tələbatın ən yüksək həddinə şahid olmamışıq. Eyni zamanda, son on ildə enerji bazarının dinamikası ciddi dəyişməyə məruz qamışdı. OPEC, bazar payını qorumağa diqqət etsə də ABŞ-da şist nefti yeni və çevik tədarük mənbəyini çevrilmişdi. Sürətli sənaye dinamikasını nəzərə alaraq, qısamüddətli perspektivdən kənarda proqnoz vermək getdikcə çətinləşsə də, bu məsələ həmişəkindən daha vacibdir.

Mühəndislər ixtiraçılıqda, şirkətlər bazarda rəqabət aparır və nəticədə sənaye daim elektrik yeniliklərini təklif edir. Yeni bir maşının ortaya çıxması sürətli bir proses deyil, düşünmək, layihələndirmək, prototiplər hazırlamaq və çox saylı nəzarət strukturları tərəfindən təsdiqlənməlidir. Bəzi gələcək yeniliklər hələ də elmi axtarış və tədqiqat mərhələsindədir, çox güman ki, tezliklə həyata keçməyəcəkdir. Lakin, bununla yanaşı, mümkündür ki, yaxın onilliklərdə energetika və elektrotexnika sahəsində bəşəriyyət tərəfindən həll olunmalı olan həyati vəzifələrin həyata keçirilməsi üçün əsaslı, yeni yanaşmalar tətbiq olunacaqdır.

Hər kəs bilir ki, həyatda fərqli yaşamaq olar. Vaxtımızı əyləncə və sabah haqqında düşünmədən keçirə bilərik. Belə həyat strategiyası dəfələrlə bədii ədəbiyyatlarda da təqdim olunub. Fərqli yaşaya bilərik, bu günü tamamilə qurban verib bütün düşüncələrimizi, bütün gücümüzü qeyri – müəyyən gələcəyiniz üçün səfərbəy edə bilərik. Lakin, bütövlükdə bəşəriyyət bütövlükdə cari işlərin təlaşına qapılaraq, çox vaxt gələcək barədə düşünməməyə çalışır. Kömür, neft və təbii qazı necə asanlıqla xərclədiyimizə baxın, özümüzü nikbinlik hissləri ilə ruhlandırırıq: "Elm adamları əmindirlər ki, yerin təkində hələ çox neft var, 30, 40 bəlkə də 50 ilə kifayyətdir"

Bu, heç də enerji təminatı baxımından bəşəriyyətin çox diqqətsiz davrandığını söyləmək deyil. Hər hansı işlər görülür, bir çox mütəxəssislər bunun kifayət olmadığını, dünya sivilizasiyasının "avtomobili" növbəti yanacaq doldurma məntəqəsinə çatmadan dayana biləcəyinə inanır. Bir çox peşəkarlar tərəfindən yeni genişmiqyaslı enerji mənbələrinin perspektivli sahələrində işlər aparılır və bəzi istiqamətlərdə praktiki nailiyyətlər əldə edilir.

Adi enerji istehlakçısı, ehtimal ki, nikbin olmaq istəyir və buna görə də bu yeni perspektivli sahələrin nə qədər inkişaf etməsi ilə ən azı maraqlanır.

